**Vasif SÜLEYMAN**

# BU, ÖMÜRDÜR MƏN DEDİYİM, NAĞIL YOX

*Vasif Süleyman*
*BU, ÖMÜRDÜR MƏN DEDİYİM, NAĞIL YOX*

**83. 3. AZ (2)**

**C** $\frac{4702600000}{(032\text{-}05)}$ **01-09**

**"Bu, ömürdür mən dediyim, nağıl yox" şair Vasif Süleymanın oxucularla üçüncü görüşüdür. Kitabda şairin müxtəlif illərdə yazdığı şeirlər, "Uçurum" poeması və publisistik yazıları toplanıb.**

## *Növbədənkənar yazı*

# VƏ YA HƏR KİTAB SEVİ-NƏNİNİ TAPIR...

Vasif Süleyman, özünə bənzəyən bir şair olduğuna, özünü bu şərtlər altında tapdığına, modaya ayaq uydurmaq üçün "sərbəstin" sərməstliyinə uymadığına görə məni sevindirir. Bir-iki uğurlu misal çox kitabda tapmaq olar, söhbət bir kitab yaxşı şeirdən gedir. Vasifin kitabı belə bir kitabdır. Şeirlərini oxuduqca onun kimsəni yox, özünü, öz iç dünyasını, həm də alışılagələn ənənəvi şeir biçimlərində yazdığını görürük. Amma bu ənənəvilik, "heca qəlibi" ona yeni fikirlər deməkdə əngəl olmur, əksinə ifadə imkanlarını daha da genişləndirir. Əsil şeirlər gələcəyin şifrələri ilə doludur. Zaman şeirdə uyuyur. Uyqu ilə oyanıqlıq arasındakı zaman şeirin mürgüləyən anları... Və haçansa bir şairin şeirində yüz il öncədən unudulmuş zaman o şeir oxunduğunda yenidən oyanar. Anadolu türkləri demiş, fazla sözə nə hacət, gəlin fikrimizi V.Süleymanın kitabından aldığımız örnəklərlə təsdiqləyək:

***Nə olar, bir çiçək ömrünü çək sən,***
***Üzən də çiçəkdi, sən də çiçəksən.***
***Qalsan öz-özünə üzüləcəksən***
***Üzülən ömrünə toxta, bax, çiçək..***

***

***Üzündə zülmət var, əlində çıraq,***
***Bir ömür verilib qismətinə, bax.***
***Üstü başdaşıdır, ayağı torpaq,***
***Ta ondan yuxarı nə olur, olsun.***

Hər şey öz gizli həyatı ilə sirlidir. Biz qəmimizə daha çox inanırıq, nəinki sevincimizə. Gələcək bizə gözəgörünməz işarətləri ilə gəlir:

***Ömrü sonalamaq, seçmək yoxuymuş,***
***Keyfin istəyəndə köçmək yoxuymuş,***
***Bu ömrün içində heç nə yoxuymuş,***
***Di gəl, bu boşluqda yaşa beləcə...***
***...Ömür başım üstən adladı keçdi,***
***Nə ola, ölüm də çaşa beləcə...***

***

***...Bir halal sevgiydi, yiyəsiz qalıb***
***Məni qürur yıxır, onu naz yıxır.***

***

***...Günah eyləməyib çəkdim cəfanı,***
***çəkib ürəyimi üz demədim ki?***

***

***...Bir azca sevincsən, bir azca kədər,***
***bir də, Allah bilir, nəsən bir azca...***
***...Mən öz taleyimdən çoxdan keçmişəm***
***necədi, səndən də küsəm bir azca.***
***...Deməyə-deməyə nəsə deyirsən,***
***nolar, deyə-deyə desən bir azca.***

***

***...Dünən yaşadırdı, canı sağ olsun***
***bu gün öldürən də həmən sevgidir.***

Bəzi fikirlərimi demək üçün Vasifin kitabı əlimə bəhanə kimi keçdi. Burada mən fikrimə söykək üçün ilhamımızın ənənəvi qəlibinə uyan şərq şairlərindən deyil, yeni nəsillərin ciddi-cəhdlə təqlid etmək istədikləri qərb şairlərindən misallar gətirmək istəyirəm. Amerikanın ünli şairi Eliotun bir fikrini xatırlamaq yerinə düşərdi: "Yer üzərində bizə məlum olan ən günahsız aşiq böyük şairdir. O öz varlığına ötüb keçməsi, sönməsi mümkün olmayan elə bir ehtiras hopdurur ki! Və bəxtin dönüm-döngələri, uğurlu-uğursuz həyat şərtləri o qədər də önəmli deyil, günbəgün, saatbasaat, necə deyərlər, o şahanə sevgi vergisini ödəməyindədir. O əngəllər ki, başqaları üçün geriyə çəkilmək, məğlubiyyət bəhanəsi olur, əksinə, bu çətinliklər şairi bir az da bu yöndə inadkar və məğlubedilməz edir. Başqalarının həzzi şairin həzzi yanında bir heçdir. Şair dan üzünü, ya qış meşəsini və ya oynayan uşaqları seyr edəndə bütün ucalıqların, yüksəkliklərin sərhədində gizli olan nə varsa, onun üzünə açılır. Bu eşqin yolunda nə qorxu, nə qaranlıq, nə əzab, nə də ölüm onun iradəsinə əngəl ola bilir".

Təcnis ötüb getmiş zamanın günümüzə dəyib qayıdan əks-sədası kimi hərdən-hərdən yeni nəsillərin yaradıcılığında boy göstərir. Belə çağdaş nümunəlrin ən yadda qalanı Məmməd İlqarın "Çəkir" təcnisidir. Amma Vasifin örnək verdiyim təcnisini diqqətlə oxusanız, hələ xalq

şeirinin bu növünün imkanlarının heç də tükənmədiyini görəcəksiniz:

***O mənə atmışdı qar topasını,***
***Mən atdım, dəymədi qar qıza, vallah.***
***Əlimin içində qar od kimiydi,***
***Hələ görməmişdim qar qıza, vallah.***

***Kimində göz olur, məndə dil acdı,***
***Bu da bir oyunmuş, adı - dilaçdı.***
***Ürəyim birinci sənə dil açdı,***
***Açmadı baxışı - qar qıza, vallah.***

***Kimmiş, buza oğlan, qara qız deyib,***
***Qar buxaq, qar sinə, qar ağız deyib.***
***Bilmirəm, kim sənə qara qız deyib,***
***Vasif bənzədirdi qarqıza, vallah.***

Qulağımızı qırmaclayan yad kəlmələrdən yan keçib mübarək dilimizdə belə bir təcnis yaratmaq da şair ilhamının çoxçalarlı imkanlarından xəbər verir.

***...Laylasını ata çaldı, göynədi,***
***Nə dedisə, ona dedi bu körpə.***
***Göz açanda anasını görmədi,***
***Dil açanda "ana" dedi bu körpə.***

Uşaqlığımız yaddaşımız və yalnızlığımız vətənimizdir, başqa sözlə, tənhalıq vətəndir, ana vətən...

***...Yanmaya-yanmaya ürək bilmişəm***
***Sinənin altında daş olan yeri...***

***...Torpağa su düşsə yaşıllaşandı***
***Solandı yanağın yaş olan yeri.***

Dəniz sahillə görüşə bilməyəcəyinə, sahil dənizlə görüşə biləcəyinə bəlkə də şübhə edə bilər, şair eşqinin uğur qazanıb çiçəklənəcəyinə əsla şübhə etməməlidir. O, mükəmməlliyi və gözəlliyi görür sevgidə.

***...Bu bəxti, qisməti əyən gözələ,***
***Bir səhər başına döyən gözələ.***
***Ölüncə "mənimsən" deyən gözələ***
***Üz-üzə gələndə Siz deyən gərək...***

Dünya niyə belə qurulub görəsən, sevgilər əldən çıxanda, əlçatmaz olanda müqəddəsləşir. Bir zaman uğruna canını vermək istəyən gözəl səndən üz döndərib gedəndə uğruna canını vermək istəyirsən. Niyə sevginin gözəgörünməz ipi qadının əlindədir?! Qadın istədiyi sürəcə kişi var olur, kişi istədiyi sürəcə qadını var edə bilmir, sirr hardadır: oturub başını sındır, cavabsız suallara cavab ara, tapa bilsən, bu sirrin qarşısında aciz olanlara da söylə.

***Sən sevib neyləyəcəksən***
***Allahın bədbaxtı məni...***

***

***...Bu nə bəla idi aldı başımı***
***mən axı bu qədər naşı deyildim.***
***Sənə yol gəlirdim doğulan gündən,***
***Üç günün, beş günün işi deyildi.***

***

***...Niyə istəyirsən, köçəm dünyadan,***
***Hələki eşqinlə dinə bilirəm.***
***O dünya, bu dünya - fərqi nədir ki,***
***Ölsəm də, çatmaram sənə, bilirəm...***

Vasif şeirlərini sözün son ifadə imkanlarını toplayaraq yazır. Bugünkü Azərbaycanda bəlkə də hər şey var, amma bütöv şeir qıtlığı danılmazdır. Bu şeirlərın bir çoxunda bəlkə dişədəyən bir-iki uğurlu misra da tapa bilərsən, amma onlara sənət əsəri kimi baxmaq düşüncəsi içinizdən keçməz. Bir var təndürüst, bir də var şikəst doğulan körpə. Ana, əlbəttə ki, birincini istəyəcək. Bütün bunlarda bəlkə sürüşkən zamanı günahlandırmaq işin ən asan yoludur. Və nə yazıq ki, dövrün sürüşkənliyi, sabitqədəm olmaması, hiyləsi şeirə də keçib. Toplumu kütləviləşən bir məmləkətin şeiri də, yəqin ki, kamillikdən uzaq olmalı, kütləviləşməli idi. Vasifin şeirlərində qibtə ediləcək bir tamlıq, bütövlük var. Əlbəttə, bu şeirlərdə yerinə düşməyən söz və misra arayışına girsən, tapa bilərsən, sürtülmüş qafiyələr də yox deyil. Gözəlin üzündəki hansısa bir çatışmazlığı Tanrıdan gələn gözəlliklər kölgələdiyi kimi, Vasifin şeirlərindəki kamilliyə, bütövlüyə canatım, ilhami ehtiras yuxarıda dediklərimi görünməz qılır. Yəni bu şeirləri oxuyarkən onlarda nöqsan axtarmaq ağlına gəlmir. Şeirin şah damarına düşüb özünü tapdığından kitabın əvvəlindən sonuna

qədər tutduğunu buraxmır. Hər sözünün yükü, çəkisi var. Təkcə sevgi deyil onun şeirlərində nəfəs alan:

***Gündə neçə dəfə açılan əllər***
***Yumulan əllərə cəfadı, bilməz.***
***Dilənçi payıyla böyüyən oğul***
***Vətəndi... Torpaqdı... Davadı...***
***Bilməz.***
***Atanın sürdüyü səfil bir həyat,***
***Yıxdığı bir isti yuvadı, bilməz.***
***Dilənçi, bu dəfə keç günahımdan...***
***Sən nə dilənçisən, nə yoldan ötən,***
***Göylər titrəyəcək indi ahımdan,***
***Dilənçi kökünə düşübdü Vətən,***
***Dilənçi, bu dəfə keç günahımdan...***

Çağımızın şeiri kütlələrin yüksəlməsi, insanlaşması, işığa qovuşması üçün çaba göstərməlidir. Mariya Rilkenin "Gənc şairə məktublar"ın deyildiyi kimi, sənin tərəddüdün xoşbəxtliyindir, onu sev, sirrin açımı ondadır, bilmədiyin sorular bağlı qapılardır, onların açılacağı zamanı gözlə.

***Dünyada hamının istəyi yarı,***
***Bu yarı istəyi qoruyaq barı.***
***Sözlərin başına dolananları***
***Sözlərin əlindən almaq günahdı...***

***

***Ömrümün yarısı balalarımın,***
***Qalan yarısı da sözün qurbanı...***

"Sevgi atılandan sonra başlayır" ilk kitabının adıdır. SÖZ - ANA kimi, TORPAQ kimi NAMUS yeridir, Vasif Süleymana görə. Belə olmasaydı, şeirimizin əksər təmsilçiləri kimi o da ucunu alıb uzunçuluğa gedərdi. Kitab boyu şeirlərə göz gəzdirdim, böyük çoxluğu 3-4 bənddən artıq deyil.

Yazımın bir yerində "ədəbiyyat da ənənə və varislik üzərində qurulur, hər ədəbiyyatın gələcəyi onun keçmişi ilə şərtləşir" demişdim. Bu mənada, oxuduğunuz yazını yazmağım üçün bəhanə olan Vasif Süleymanın kitabı mənə, su gələn yerdən bir də gəldiyini, nakam Dilqəm ruhunun yenidən şadlandığını söyləməyə imkan verdi...

***Məmməd İSMAYIL***
***Çanaqqala,***
***mart-aprel 2009***

***mismail@comu.edu.tr***

***"525-ci qəzet". 27 may 2009-cu il.***

## BU ÖMRÜ

Beş addımdı əvvəliylə axırı,
Görürsənmi bəxti yatan bu ömrü.
Halal etdim, kim götürür, götürsün,
Yaşanmamış başa çatan bu ömrü.

Eh, nə imiş bir sevginin bədəli,
Olan-oldu ya ağıllı, ya dəli.
Bir çöpündən yapışıbdı yad əli,
Viran etdi halal butam bu ömrü.

Bəzəyi yox, nə aldan, nə qumaşdan,
Uçub getdi içimdəki təlaşdan.
Dəli sevgim kəsirdisə o başdan,
Uzadaydı bəlam, xatam bu ömrü.

Necə gəlib-getdiyini yaş ansa,
Bel bağladım ya qismətə, ya şansa.
Əməllicə ömürüydü yaşansa,
Bacarmadım əldə tutam bu ömrü.

Qucaq açmaz mənim kimi miskinə,
Yanmadısa, isinərmi tüstünə.
Yıxılmazdı... dağlar çöksə, üstünə,
Necə yıxdın vallah matam, bu ömrü...

## DİNDİRƏ

Gələ, çaşqın ömrün sarvanı, bir gün,
Keçdiyim cığırı, izi dindirə.
Əlləri havalı, ürəyi küskün,
Sifəti allana, gözü dindirə.

Həsrətə üz tutduq hansı həvəsnən,
Gələrmi təzədən ilahi səsnən.
Odlu ürəyinən, isti nəfəsnən,
Canımda yurd salan buzu dindirə.

İndi ha çağıraq, divanəyik biz,
Yar ola bilmədik, daha nəyik biz.
Təpədən-dırnağa  əfsanəyik biz,
Hardadı nağılçı, bizi dindirə...

Talandı duyğusu, sozaldı canı,
Hanı, bu sevginin sahibi, hanı...
Az qalır sel olub tutsun dünyanı,
İllah da yüyürüb qızı... dindirə....

Daşındı bu ömür, bir xəyal oldu,
Onda ki, yanında dili bal oldu.
Lal oldu, dinmədi Yarəb,  lal oldu,
Danışmaz, Vasifi yüzü dindirə.

# GÖNDƏRİR

**Qızlarım Gültac və Səyalıya**

Elə mən də sizin kimi kövrəyəm,
Gəl ağlayaq, görərsiniz, eh nəyəm.
Üstü-başı, dərdi-səri köhnəyəm,
Fələk vurur hərdən dişə, göndərir.

Ömür buymuş, yol qalmadı varmağa,
Bərə handa, özüm düşdüm qarmağa.
Ürək dağı… Meylim yoxdu yarmağa,
Nə olsun ki, gahdan tişə göndərir.

Kəsməyiblər, kəsilibdir amanım,
Nəyim var ki, nə gizləyim, nə danım…
Bu ömürə nabələddi sarvanım,
Öldürmür ki, taxıb şişə göndərir.

Boyu batsın buxunumun-boyumun,
Çaşıb qaldım yarısında oyunun.
Gözləmir ki, külə dönüm, soyuyum,
Elə məni bişə-bişə göndərir.

Bir ömürə həmdəm oldu bu ahlar,
Eh nə danım, şiriniydi günahlar.
Üzümüzə hər açılan sabahlar,
Sizi dərsə, məni işə göndərir.

## QIZLARIM

Bu, ömürdür, mən dediyim, nağıl yox,
Sizdən şirin şəkər yoxdu, noğul yox.
Siz varsınız, nə olsun ki, oğul yox,
And içirəm canınıza, qızlarım!

Gəlmisiniz bir talenin yayından,
Bir ürəyin çörəyindən, suyundan.
Kəsib ömrün çöldə qalan payından,
Tələsirəm yanınıza, qızlarım!

Dəmir oldum, daş günlərin eşqinə,
Gəlib keçdi yaş, günlərin eşqinə.
Mən böləndüm xoş günlərin eşqinə,
Ömür verdim hamınıza, qızlarım!

# EYLƏ

Bu ömrün əzəldən taxtı-tacı yox,
Mən qulluq eyləyəm, sən şahlıq eylə.
Daha xoş günlərə ehtiyacı yox,
Barı yaman günü halallıq eylə.

Qurtardı bəxt ilə eşqin davası,
Dağılıb yurd yeri, uçub yuvası.
Bu dəli könlümün itib havası,
Kimi səsləyim ki, havalıq eylə.

Yenə sənə tərəf uzandı əlim,
Sən niyə getmişdin, mən niyə gəlim…
Eşq ol, dərgahına səcdəyə gəlim,
Bu qərib taleyə Allahlıq eylə.

## NƏ OLUR, OLSUN

Alın yazısıdır, tale qisməti,
Axarı-baxarı nə olur, olsun.
Ölümnən olumun mənzilindəyik,
Əvvəli, axırı nə olur, olsun.

Eh, nəyim gedibdir, eh, nəyim qalıb,
Bircə yol Allahı görməyim qalıb.
Yarısı dağılmış ürəyim qalıb,
Bu ömrün çıxarı nə olur, olsun.

Üzündə zülmət var, əlində çıraq,
Bir ömür verilib, qismətinə bax.
Üstü başdaşıdır, ayağı torpaq,
Ta ondan yuxarı nə olur, olsun.

## ADDADIM

Nə döndüm  bircə yol eşq deyiləndən,
Nə də ki, canımda qorxu, addadım.
Mən ki, bu dünyanı sevdim əzəldən,
Dünya sevməsə də, arxı addadım.

Sevinci bir udum, qəmi bir ətək,
Qara günləri də sevdim sənintək.
Gəldim qarşılayim əlimdə çiçək,
Boynuma dolanan çarxı, addadım.

Getdim gedənlərlə, qaldım qalannan,
Nə deyim üz-üzə durub yalandan.
Bir qərib taleynən, iki balamnan,
Yolumu gözləyən qırxı addadım.

# BELƏCƏ

Ömrü sonalamaq, seçmək yoxuymuş,
Kefin istəyəndə köçmək yoxuymuş.
Bu ömrün içində heç nə yoxuymuş,
Di gəl, bu boşluqda yaşa...Beləcə...

Dəli sevdalara yaxın apardı,
Azı əyləmədi, çoxu apardı.
Bərədə dayandım yuxu apardı,
Bir dəfə gəlmişdim xoşa... Beləcə...

Bəxtim yollarıma çatmadı, keçdi,
Oddadı, ruhumu oddadı keçdi.
Ömür başım üstdən addadı keçdi,
Nə ola, ölüm də çaşa... Beləcə...

Gəldik  payımıza nə düşdü… Ömür…
Bir şirin röyayla görüşdü ömür.
Bilmədim, əlimdən sürüşdü ömür,
Dəydi qayalara, daşa... Beləcə...

Vasif, ömür-günün ömrü bir içim,
Dəyəri nədir ki, ömürdən keçim.
Bu qara günlərin nəyini seçim,
Onsuz da vurmuşam başa... Beləcə...

# ÇİÇƏK

Səngidi havası, sındı şüşəsi,
Həsrətin bülbülü yaxdı bax, çiçək!
Hərənin payına bir gül düşəsi,
Çəmənə çıxmışdıq baxtabaxt, çiçək!

Ətrin bir aləmdi, ömrün bir udum,
Bir udum havaya qaldı umudum.
Söylə kimi sevim, kimi unudum,
Çıxdığın tikanlı taxta bax, çiçək!

Nə olar, bir çiçək ömrünü çək sən,
Üzən də çiçəkdi, sən də çiçəksən.
Qalsan, öz-özünə üzüləcəksən,
Üzülən ömrünə toxta bax, çiçək!

# HƏLƏ YAZMAMIŞAM SƏNİ BİR SƏTİR

**Səni köçürəcəm sevgi şerinə,**
**Bəxtəvər olacaq sevgi də, sən də.**
**Musa ƏLƏKBƏRLİ**

Nə nalə çəkəmməz, nə ah götürməz,
Bu canım üstünə günah götürməz.
Bir belə günahı  Allah götürməz,
Hələ yazmamışam səni bir sətir.

Hissin dumanında azır, deyirsən,
Həsrətdən, hicrandan yazır, deyirsən.
Vallah düz deyirsən, hazır şeirsən,
Hələ yazmamışam səni bir sətir.

Bütövsən, sözünü dəyişmək haram.
Səni vərəqlərə inan qıymaram,
Qorxuram yazaram, qaralayaram,
Hələ yazmamışam səni bir sətir.

Mən eşqin yolunda dilsiz balayam,
Gərək  ürəyimi oda qalayam.
Yazandan sonra da oxumalıyam,
Hələ yazmamışam səni bir sətir.

Daha şaxtalıdır ömrün baharı,
Gəzriəm Tanrıya gedən yolları.
Ötüşən günlərim gözləyə barı,
Hələ yazmamışam səni bir sətir.

## YIXIR

Havalı ürəyin istisi, hanı…
Məni gözlədiyim bir muraz yıxır.
Özümüz yıxmışıq bu xanimanı,
Fələk dediyimiz vallah, az yıxır.

Beləmi yaradır insanın ağlı,
Səltənəti uçuq, taxtı dağılı.
Olan ürəyimdi qolları bağlı,
Olmayan küməmi nə taraz yıxır.

Dili yox, "neyçün"süz, "niyə"siz qalıb,
Bəlkə Yaradana deyəsiz...Qalıb.
Bir halal sevgidi, yiyəsiz qalıb,
Məni qürur yıxır, onu naz yıxır.

## TƏRSİNƏ

Sənə yol gəlmirəm, səndən gedirəm,
Çəkilib araya pərdə tərsinə.
Mələklər söyləyib sənə eşqimi,
Göydə düz oxunar, yerdə tərsinə.

Günləri qarışıb qaralı, ağlı,
Bu ömrün nəyi var, uçub dağılır.
Qolları açıqdır, ayağı bağı,
Gözləri alışır hərdən tərsinə.

Yoruldu yollarda piyada ömür,
Çəkdi zillətini ziyada ömür.
Axırdan əvvələ qayıda ömür,
Sonra da axıra, bir də tərsinə.

## SEVGİDİR

Axır yaxaladım "düşmənimi" də,
Qəbrə məndən əzəl enən, sevgidir.
Hərdən can istəyir qurban verməyə,
Qayıdıb başıma dönən, sevgidir.

Nə göyü bəllidi, nə yerin təki,
Varlığa aparır, yoxluğa çəkir.
Biz ki, dil açmırıq, gözümüzdəki,
Bir qızın gözünə dinən sevgidir.

Gəlirsə, yolunda dərə, dağ olsun,
Gedirsə, ha denən baxtın ağ olsun.
Dünən yaşadırdı, canı sağ olsun,
Bu gün öldürən də həmən sevgidir.

## YERİYDİ

Qaçdım arxasında köçüm yetmədi,
Çölüm parçalandı, içim yetmədi.
Onsuz da pozmağa gücüm yetmədi,
Qismət  yollarıydı, tale yeriydi.

Gözlərə gəlməyən röyasan dedi,
Tapmazsan təzədən arasan dedi.
Cəmisi ikicə misrasan-dedi.
Vallah, bir şirincə nalə yeriydi.

Yüz "şər"dən keçmişəm bu "şər"ə kimi,
Saldılar düşməzə-düşərə kimi…
Demədim… Yandırsın məhşərə kimi,
Dərdimi deməyin əla yeriydi.

## SOLANDI YANAĞIN YAŞ OLAN YERİ

Ömrümdən ehtiyac keçdi, səngidi,
Qapandı dərdimin boşalan yeri.
Göz dağı dağların ən nəhəngidi,
Bir də talelərin qış olan yeri.

Gördüm ağlamamış ürək kiridi,
Onda yerin-göyün dərdi bir idi.
İlahi, dünyanın xoşbəxt yeridi.
İlk eşqin ürəyə tuş olan yeri.

Həsrəti özümə gərək bilmişəm,
Onu duz bilmişəm, çörək bilmişəm.
Yanmaya-yanmaya ürək bilmişəm,
Sinənin altında daş olan yeri.

Sevincdən daşındım, qəmdən daşındım,
Göz yumub-açınca yandım, yaşandım.
Torpağa su düşsə, yaşıllaşandı,
Solandı yanağın yaş olan yeri.

## GEDİMMİ...

**Qızım Gültac hər səhər**
**-ATA, İŞƏ GETMƏ-deyir**

Gecikən ömrümə gülən çiçəyim,
Bəxtimə açılan yazım, gedimmi...
Sizin yanınızda qalır ürəyim,
Tanrının əlində ruzum, gedimmi...

Çəkilir ürəyim şişə, gedirəm,
Qismətim düşməyə, düşə, gedirəm.
Çörək-duz dalınca işə gedirəm,
A mənim çörəyim-duzum, gedimmi...

Siz olan dünyada neçə ki, varam,
Üzünüz qəm görməz, süfrəniz haram.
Qalsam, yanınızda xəcil olaram,
Gedib-qayıdacam qızım, gedimmi...

## ÇƏTİN Kİ...

Dərdi-qəmi sıralanmış ürəyim,
Param-parça paralanmış ürəyim.
Bir baxışnan yaralanmış ürəyim,
Bir baxışnan sağalarmı… Çətin ki…

Ta əzəldən ortağı yox könlümün,
İtib, səsi-sorağı yox könlümün.
Sən qonmağa budağı yox könlümün,
Viranədi, bağ olarmı… Çətin ki…

Bir şirincə yalan bilib, oxşadım,
Mənə olan-qalan bilib, oxşadım.
Qara günü balam bilib oxşadım,
İndən belə ağ olarmı… Çətin ki…

## ELÇİN İSGƏNDƏRZADƏYƏ

Zülmətin qoynunda çaşdı bu gecə,
Elə bil, ürəyim daşdı bu gecə.
Deyirdim səhərə öldürər məni,
Gəl ki, qollarını açdı bu gecə-
Gecədən bir misra umacağım var.

Ürəyə düşdüsə dağ elə dağdı,
Rəngini neynirsən qaradı, ağdı.
Kiminsə gözündə yaş var, İlahi,
Bu gecə kiminsə damağı çağdı-
Gecədən bir misra umacağım var.

Elə bu imişəm, solum, sağım yox,
Sevinci səhərə saxlamağım yox.
Bu fani dünyadan umacağım yox,
Gecədən bir misra umacağım var.

# GEDİRSƏN

Get, gedirsən bu gedişin haqdısa,
Səni deyib ağlayanın çoxdusa.
Getməyində bir günahım yoxdusa,
Gedən, səni kim öyrətdi… Gedirsən…

Qismətiydi, getməliydi, yazaqmı,
Bu gedişi, küsüb-getdi, yozaqmı.
Getdiyin yer bu dünyadan uzaqmı,
Gedən, səni kim öyrətdi… Gedirsən…

Gedişini eşidənlər neyləsin,
Gözü yaşlar, saçı dənlər  neyləsin.
Gəlişinə sevinənlər neyləsin,
Gedən, səni kim öyrətdi… Gedirsən…

Üzümüzə gülən sözün ağlayar.
Sənsiz qalan insafsızın ağlayar.
Çox körpədi, qıyma, qızın ağlayar,
Gedən, səni kim öyrətdi… Gedirsən…

# BALACA ADAŞIMA

Tələsmə, hər şeyi düz anlamağa,
Tələsmə, dünyanı tez anlamağa.
Başlasa, başını dərdə salacaq,
Ürək anlamağa, göz anlamağa-
Get adaş, get oyna, qurbanın olum!

Bilməyib kədərə gülmək,  bir aləm,
Dünyadan-dünyaya gəlmək, bir aləm.
Sonra heç birindən keçmək olmayır,
Yaşamaq bir aləm, ölmək bir aləm-
Get adaş, get oyna, qurbanın olum!

Özünü bir dünya daddan qoyarsan,
Qohumdan, yoldaşdan, yaddan qoyarsan.
Kənddə toy çalınır, get quzu kəsim,
Əlinə xınadan-zaddan qoyarsan-
Get adaş, get oyna, qurbanın olum!

Üzümdən dünyanın təlaşı getməz,
Dərdnən çilik-ağac yanaşı getməz.
Vasifin başında başqa havadı,
Heç onnan bir yerdə qardaşı getməz-
Get adaş, get oyna, qurbanın olum!

## QURBANI

Qul olmadıq çiçək kimi hisslərə,
Gedib olduq ağılların qurbanı.
Dəyməcəli gözüm yoxdu dəyəsi,
Ürəyim var, ağrıların qurbanı.

Qurbanı var, ucalmağın, enməyin,
Qurbanıyıq de, sən nəyin, mən nəyin.
Bura yollar ayrıcıdır, mələyim,
Olasıyıq nağılların qurbanı.

Məcnun hara, Fərhad hara, mən hara,
Leyli hara, Şirin hara, sən hara.
Mən həmişə sevənlərə qahmaram,
Gözəllərin, oğulların qurbanı.

## QORXURAM

Ömrün qalanından nə çatar mənə,
Vermişəm günləri yelə, qorxuram.
Qorxmağım sevgimdən daha gözəldi,
Mən belə sevirəm, belə qorxuram.

Səslənmiş harayam, qaçılmış hayam,
İndi məcrasını addamış çayam.
Sevib-qısqanmaqda şirəm, ustayam,
Bir gün qısqanaram gülə, qorxuram.

Qoy qalsın yadında divanə adım,
Qəlbinə, ruhuna hakim olmadım.
Yolunda ölməkdən elə qorxmadım,
Necə ki, sevməkdən elə qorxuram.

## GEDƏCƏM

Minnət götürmərəm heç bu dünyadan,
Bir gün halallaşıb özüm gedəcəm.
Birdən məndən sonra azıb qalarlar,
İlləri sıraya düzüm, gedəcəm.

Bir belə ağrısı, dərdi bəsidi,
Ürəyim həsrətin neyli səsidi.
Bu zalım dünyayla  neyniyəsidi,
Bir azca böyüsün qızım, gedəcəm.

Hardasa bəxtimə gülən ölümü,
Hər gün məndən yana ölən ölümü.
Qəfil qonaq kimi gələn ölümü,
Bir səhər tutarsa gözüm, gedəcəm.

## MƏNİ

Səni danammaram,üstümdə haqq var,
Bəlkə bu sevdanın sonuna çox var.
Mənim ürəyimdə sən boyda dağ  var,
Bilmə ürəyinin dağı sən məni.

Uzanıb-kəsilmək tellərə düşdü,
Vədəmiz aylara-illərə düşdü.
Bu nədi, nəğməmiz dillərə düşdü,
Təkcə oxuyurdun axı,sən məni.

Sən məni mənim tək duyan deyisən,
Sən mənim dərimi soyan deyilsən.
Sən məni özgəyə qıyan deyilsən,
Özümə bağışla paxıl, sən məni.

Qəlbimdə qar yoxdu bu qışa məndə,
Bu qış üzü yaza yığışa mənnən.
Əcəlin nə həddi yarışa mənnən,
Öldürə bilərsən axır sən məni.

# BİR AZCA

Göyçək tellərini oxşamaq hədər,
Yel olub üstündən əsəm bir azca.
Bir azca sevincsən, bir azca kədər,
Bir də Allah bilir nəsən, bir azca.

Bizə qismət yazan haqdan küsmüşəm,
Dünyanı sevdiyim vaxtdan küsmüşəm.
Mən öz taleyimdən çoxdan küsmüşəm,
Necədi, səndən də küsəm bir azca.

Yüyürüm dumana, sisə deyirsən,
Mətləbi nə yaman qısa deyirsən...
Deməyə-deməyə nəsə deyirsən,
Nolar, deyə-deyə desən, bir azca.

## QIZLARIM GÜLTAC VƏ SƏYALIYA

Siz gələn yolların yorğunu oldum,
Dünya yaman çəkdi sınağa məni.
Güllərim, axır ki, açılıbsınız,
Dost-tanış tutmuşdu qınağa məni.

Ağ gün elə buymuş, bəsimdi, bəsim,
Başınız üstündə eşqim, nəfəsim.
Görən, YARADANA çatarmı səsim,
Götürsün sizlərə sadağa məni.

Bəxtimə gec gələn kərəmə şükür,
Mənə qanadsınız, görənə şükür.
Qızlarım, sizləri verənə şükür,
Yaman öyrətdiniz uçmağa məni.

# BU KÖRPƏ

**Cavan bir ata körpə uşağı sakitləşdirmək üçün tez-tez-ANAN İNDİ GƏLƏCƏK-deyirdi. Sonralar mənə məlum oldu ki, doğulan gündən anasını itirən uşağa atası il yarımdır ki, bu nimdaş təsəllini verir.**

Laylasını ata çaldı, göynədi,
Nə dedisə, ona dedi bu körpə.
Göz açanda anasını görmədi,
Dil açanda ana dedi bu körpə.

Hələ nə var, yığa bilmir huşuna,
Belə ağrı çətin ötə, daşına.
Elə çəkir göy nimçəni başına,
Haçan görüb ana südü bu körpə...

Gəlib düşdü aralığa nəhs hardan,
Qulağını dəlib keçir səs hardan...
Hər dinəndə ana deyir, bəs hardan,
Hardan bilir, "ana" nədi bu körpə...

Böyüməyi dərd olacaq, ona dərd,
Dərdinmi var, Allah bundan yana dərd.
İndi girib qiyafəyə, dona dərd,
Sonra necə çəkər dərdi, bu körpə...

## QARDAŞIM OĞLU İSKƏNDƏRƏ

Sən adda bir kişi atamız olub,
Unutma heç vədə, qardaşımoğlu!
Adın İskəndərin, ata-ananın,
Gəl borcunu ödə, qardaşımoğlu!

Gələnlər səsləsə, ötən çağırsa,
Gedənlər səsləsə, itən çağırsa.
Birinci getməsən Vətən çağırsa,
Qorx ki, Vətən gedə, qardaşımoğlu!

Ər qanı qarışıb sənin qanına,
Səadət tələsir xanimanına.
Hər gün and içirik sənin canına,
Dədəsən ey, dədə, qardaşımoğlu!

# XALAMIN

**Xədicə xalamın əziz xatirəsinə**

Deyin ki, yaşayır, ölüb deməyin.
Sevgiydi həm sağı, solu xalamın.
Getməz qulağımdan "ölüm" deməyi,
Ürəyi sevgiylə dolu xalamın.

İndi kür arzumu kimdi bəsləyən,
Doğma səs gəzirəm məni səsləyə.
Bu fani dünyanı müqəddəsliyə,
Çəkib aparıdı qolu xalamın.

Yarəb, nə becərdi,
Yarəb, nə dərdi…
Bəlkə bu dünyada ömür hədərdi.
Mənim ürəyimdən gəlib-gedərdi,
Tanrı dərgahına yolu xalamın.

# VAR

**Dostum Aqil Ələsgərovun 50 yaşına**

Nə yoxdur ki, Yaradanın əlində,
Bir ömür də bu ömürdən gendə var.
Bu dünyada sənin kimi bir ocaq,
Mənim kimi bir divanə bəndə var.

Hər deyəndə, demir səni, bilirəm,
Ağac səni, dəmir səni bilirəm.
Çox üzübdü ömür səni, bilirəm,
Nişanəsi saçındakı dəndə var.

Nolub axı, qaşlarını çatma sən,
Əlli nədir, qüssə-qəmə batma sən.
Bir əlliylə başımızı qatma sən,
Hələ sənin bir əllin də öndə var.

# NƏYİMƏ LAZIMSAN ...

**O qız özgəsinin fikrini çəkir,**
**Nəyimə lazımsan, mənim ay şer**
**Səməd QARAÇÖP**

Ömürdə sonuncu ana bənzəyir,
Sadağa verdiyim cana bənzəyir.
Narın göz yaşınnan sıxıram onu,
Di gəl, ağ vərəqdə qana bənzəyir-
"Nəyimə lazımsan, mənim ay şer…"

Daşıdın varımı-yoxumu, neynim,
Apardın ruhumun çoxunu, neynim.
Bir qızın eşqinə yazırdım səni,
O da yazdığımı oxumur, neynim-
"Nəyimə lazımsan, mənim ay şer…"

Dərdi gəlişindən tanıyıram mən,
Baxta düşən baxtı qınayıram mən.
Son dəfə, son dəfə şairliyimi,
Sonuncu şerdə sınayıram mən-
"Nəyimə lazımsan, mənim ay şer…"

## YARƏB

Uçuldu xaniman, dağıldı oda,
Özün ki, yazmısan baxtımı, Yarəb…
Ömrün qalanına bir dəli sevda,
Sən bilən azdımı, çoxdumu, Yarəb…

Göylərin ahına naləm qarışıb,
Hardasan, nəşəyə ələm qarışıb.
Bir az aşağıda aləm qarışıb,
Bizlərdən xəbərin yoxdumu, Yarəb…

Qaraca günlərdi, belə bax, tanı,
Ötüşən  ömürdən adam utanır.
Yaşın bu vədəsi gələn butanı,
Sənmi göndəribsən, haqdımı, Yarəb…

# QOLUN SINSIN, OYNAMAĞIN YERİMİ

**"Yanıq Kərəmi"yə elə süzürdü ki, elə bil yananların qəsdinə durmuşdu**

Bu yanğıdı…
O yanandan nə xəbər,
Gözlər gülür, ayaq süzür nə təhər,
Qol açmısan, sındırırsan bəxtəvər,
Qolun sınsın, oynamağın yerimi…

Biri odun, biri suyun içində,
Beləydimi kökün-soyun içində.
Bu atəşin, bu alovun içində,
Qolun sınsın, oynamağın yerimi…

Ərzurumun gədiyində duman var,
Ağla bir az, ağlamağa aman var.
O tellərin naləsində yanan var,
Qolun sınsın, oynamağın yerimi…

Nə oyundu ayaq açıq, qol açıq,
Kərəm yanıb yananlara yol açıb.
Yanmadı ki, oynayasan qol açıb,
Qolun sınsın, oynamağın yerimi…

# ƏMİ

**Qara QAYMAXLIYA**

Aramızdan keçən yollar,
Beləmi uzaqdı, əmi!
Çölümü alov qarsıyır,
İçimdə sazaxdı, əmi!

Söz dedin, söz oldun, sən ki,
Başdan-başa şeirsən ki…
Qəriblikdə deyilsən ki,
Ora da Qazaxdı, əmi!

Taleyin xoşuna dedik,
Bərkinə, boşuna dedik.
Geyrana bir qoşma dedik,
Birin də yazaxmı, əmi?

## VARMI...

Ay  bu məzarın yiyəsi,
Orda torpaq, dəniz varmı…
Aranızda havalınız,
Dəli-divanəniz varmı…

Axşamınız, sabahınız,
Sevinciniz, günahınız.
Orda sizin Allahınız,
Allahsız bəndəniz varmı…

Nə yaman qucmusuz yeri,
Kimdi ölü, kimdi diri.
Qayıdanda mənnən geri,
Kəndə dönəniniz varmı…

## QIZIMA

Mən atasız, sən babasız,
dünya balasız, qızım!
Bir kimsə gələndə gəlməz,
dərdsiz, bəlasız, qızım!

İndi hayana baxırsan,
hər tərəfdən qan damır.
Bəlkə ona görə qalıb
çəmən lalasız, qızım!

Sən oyuncaqlarla oyna,
biz ömür-günümüzlə.
Udmağı qaldı məhşərə,
Allah-Taalasız, qızım!

## DƏRD ŞƏKİLİ ÇƏKƏN RƏSSAM

Qənşərində çırpınıram,
Boylanıb uzağı çəkir.
Mən ürəyimə çəkirəm,
O vərəqə DAĞI çəkir.

Rəngləri elə calandı,
Baxdım ürəyim talandı.
Nə bilir ciyərim yandı,
Zəhər çəkir, ağı çəkir.

Biri yoxdu, biri vardı,
O rənglərə dünya dardı.
Dörd tərəfi çəmənzardı,
Saralmış yarpağı çəkir.

## MƏNİ

Mən göylərnən əlləşirəm,
İzləmə yer vaxtı məni.
Axtarma dan qızaranda,
Səsləmə şər vaxtı məni.

Sən Tanrım ol, mən də dəlin,
Nə öz başım, nə öz əlim.
Ya xoş günün çağır gəlim,
Ya da məhşər vaxtı məni.

Beləcə göylərdə təksən,
Nə gözəlsən, nə göyçəksən,
Sən sevib neyniyəcəksən,
Allahın bədbaxtı, məni.

## KOR ADAM AĞLAYIR NECƏ...

Görən günü tez olaydı,
Sonra dərdi yüz olaydı.
Nədi diləyi dünyadan,
Bir çəpəki göz olaydı.

Ölüb-qalası, neyniyir,
Qalıb solası, neyniyir.
Yaradan göz ha verməyib,
Görsün balası neyniyir…

Bir adam ağlayır necə,
Gör, adam ağlayır necə…
Nə göz var, nə də göz yaşı,
Kor adam ağlayır necə…

# ...YAXŞI UNUTDUN

Nə sevdin sevən tək, nə üz çevirdin,
Adi təsəlliydin, adi umuddun.
Mən səni hamıdan yaxşı sevirdim,
Sən məni hamıdan yaxşı unutdun.

Neyniyər dodağım şəkəri, qəndi,
Ürəyim payıza, bahara yatmaz.
Daha nə əllərim tumar çəkəndi,
Nə də ki, tellərim tumara yatmaz.

Nə sözün üstündən söz deyəsiyəm,
Nə də bacarmaram, nəyisə danam.
Ömrün sonunacan gözləyəsiyəm,
Məni tanıyırsan, həmin oğlanam.

Dünyanın yolları sevinc qarışıq,
Yolların dünyası müsibətiymiş.
Bir gün məhəbbətdən biz yaranmışıq,
Bizi öldürən də məhəbbətiymiş.

Nə sevdin sevən tək, nə üz çevirdin,
Adi təsəlliydin, adi umuddun.
Mən səni hamıdan yaxşı sevirdim,
Sən məni hamıdan yaxşı unutdun.

## BU NECƏ HƏSRƏTDİR

Bu necə həsrətdir, gözləri duyuq,
Ürəkdə kədərmi, qəmmi, bilmirəm.
İş elə gətirib od qonşusuyuq,
Sənmi köçməlisən, mənmi, bilmirəm.

Ürəyim ovcumun içində hər gün,
Xəyalım göylərin qatından keçir.
İşə baxırsanmı, sənin yolların,
Mənim pəncərəmin altından keçir.

Bizi mənziləmi gətirdi yollar,
Bura havasızdı, yer nə, göy nədir…
Səni qucağına açılan qollar,
Məni üz qoyduğum balınc göynədir.

Ləngiyən vüsala tuşmu olmuşuq,
Yoxsa bu, taleyin çaşdığı yoldu.
Ayrılıb təzədən qonşu olmuşuq,
Ta bunun harası ayrılıq oldu…

Sevgisən, həsrətsən, gəlmirsən dilə,
Ürəkdən yüz hissin təlaşı keçir.
Hər səhər, hər axşam yanımdan belə,
Sevgim həsrətimnən yanaşı keçir.

Bu necə həsrətdir, gözləri duyuq,
Ürəkdə kədərmi, qəmmi, bilmirəm.
İş elə gətirib od qonşusuyuq,
Sənmi köçməlisən, mənmi, bilmirəm.

## NƏ DƏRD ÇƏK, NƏ HƏSRƏT...

Nə dərd çək, nə həsrət, nə də ki ağla,
Neçə ki, səninəm unut dünyanı.
Sən gəl ürəyini buz kimi saxla,
Bircə gözəli var vur-tut dünyanın.

Elə ki, üzünə yolları bağlı,
Dərdi sevincindən əzəl görünür.
Qəribə şey imiş insanın ağlı,
Sevdiyi hamıdan gözəl görünür.

Alnımı yandırar qəlbimin təri,
Gözümün yaşını əyləyə billəm.
Ürəyim tökülür səndən ötəri,
Məndən uzaqdasan neyləyə billəm.

Canım, sevgi hara, unutmaq hara,
Həsrəti gözümə sıxıram indii.
Məni qısqandığın gözəl qızlara,
Çiynimin üstündən baxıram indi.

Nə dərd çək, nə həsrət, nə də ki ağla,
Neçə ki, səninəm unut dünyanı.
Sən gəl ürəyini buz kimi saxla,
Bircə gözəli var vur-tut dünyanın.

## XATİRƏLƏR AĞIR-AĞIR ÇƏKİR YÜKÜNÜ

Xatirələr ağır-ağır çəkir yükünü,
Haqqımmı var, indən belə qınayım səni.
Sən gedirsən əllərimin alışan günü,
Qayıtsan da elə qayıt, tanıyım səni.

Bəsdi daha çəkil oddan, yandın-töküldün,
Nə olacaq, mən də yanım tökülüm bir az.
Qayıdanda daş-kəsəkdən qurarsan məni,
Ələ düşməz belə fursət sökülüm bir az.

Ürəyimdə gizlətmişəm göz yaşlarımı,
Necə gəlsin ürəyimdən gözlərimə yaş.
Təkcə səni duymasaydım nə varıydı ki,
Nə anama oğul oldum, bacıma qardaş.

## ÖLMƏYİN BİR GÖZƏL BƏHANƏSİ YOX

Ömrün sonunacan yaşamaq hədər,
Qəlbimin başında sevgi səsi yox.
Barı heç olmasa doğulmaq qədər,
Ölməyin bir gözəl bəhanəsi yox.

Dağıtdım yarımçıq arzularımı,
Ömrün axırına çıxan yollara.
İtirib sonuncu yolçularını,
Həsrətlə geriyə baxan yollara.

Nədən yarıdıq ki, daha bəsdi...Nə...
Ümidim azalır gələn gecəyə.
Elə bil durmuşam ömrün qəsdinə,
Doğulan səhərdən ölən gecəyə.

Nə yaman dolaşır göylərdə ruhum,
Sısqa bulağıydım, gözü yaralı.
Nəyim var, viranə olmaqdan qorxum,
Bütün arzularım köksü yaralı.

Bu zalım dünyanı sevəndən bəri,
Ağrı-acıları elə var olub.
Mən indi bilirəm, əfsanələri,
Yaradan, əfsanə adamlar olub.

Əzəldən başımın havası bəlli,
Ummadım fələkdən aman, yaşadım.
Onsuz da zamanın vəfası bəlli,
Elə verdiyini yaman yaşadım...

Ömrün sonunacan yaşamaq hədər,
Qəlbimin başında sevgi səsi yox.
Barı heç olmasa doğulmaq qədər,
Ölməyin bir gözəl bəhanəsi yox.

## SEVGİNİN DİLİNİ DUYANDAN BƏRİ

Niyə istəyirsən köçüm dünyadan,
Hələ ki, eşqinlə dinə bilirəm.
O dünya, bu dünya, fərqi nədir ki,
Ölsəm də çatmaram sənə, bilirəm.

Nə vüsal görmüşük, nə kam almışıq,
Yazdığım bir yarpaq şeirdi sənə.
Ölüb getməyimmi ovudar səni,
Qalıb yanmağımmı xeyirdi sənə...

Bu zülmət ömürə nə lazım axşam,
Toranı qovuşur hayandan bəri.
Dünyanın dilini yadırğamışam,
Sevginin dilini duyandan bəri.

## DOĞMALARIMA

Ay anam, ay bacım, nə düşünürəm,
Bizi ölənəcən yaşadar ölüm.
Uzağı, bir səhər çıxıb gedərəm,
Uzağı, bir dəfə daş atar ölüm.

Mən deyən olsaydı, düşməzdi yönüm,
Bəndə olammamış pir olanlara.
Məni tay eyləmə, başına dönüm,
Sevinci dünyayla bir olanlara.

Mənim ağrılarım-acım bu gündə,
Hələ yolmamışam, saçım bu gündə.
Bu gündə gəlmişəm bu günə kimi,
Ay bacım, haraya qaçım bu gündə...

Mənim sevinclərim qaçır sazağa,
Kədər isinməyə oda axtarır.
Dərdə yer vermişik aramızdaca,
Boynuna minməyə adam axtarır.

Yuxulu başların ayılmağı var,
Gəbəni yeyəcək güvələr hələ.
Mən deyən səmadan axar buludlar,
Bir ovuc suyuna güvənər hələ.

Ay anam, ay bacım, nə düşünürəm,
Bizi ölənəcən yaşadar ölüm.
Uzağı, bir səhər çıxıb gedərəm,
Uzağı, bir dəfə daş atar ölüm.

## GAH ELƏ BİLİRƏM...

Gah elə bilirəm, məndən uzaqsan,
Gah elə bilirəm, yaxınsan mənə.
Sənə neynəmişəm zalım balası,
Eynəyin altından baxırsan mənə.

Bilmirəm qalmışam əlində nəyin,
Belə hər nədisə, hissim dərindi.
Qara gözlərində qara eynəyin,
Bizim aramızda Xudafərindi.

Sənnən elə belə danışam gərək,
Özgə cür dinməyə fələk qoymayır.
Elə danışmağa bir arzu, istək,
Belə danışmağa ürək qoymayır.

Bir gün ağlamadım diləyim üçün,
Dərdim ulduzların göydəki sanda.
Bir gözəl nəğməsən ürəyim üçün,
Mən səni bircə yol oxumasam da.

Dünyaya ağ gəlir birinci günü,
Özünə min rəngi toxuyur insan.
Bəlkə doğmalığın ölüm hökmünü,
Sevgi başlayanda oxuyur insan.

Gah elə bilirəm, məndən uzaqsan,
Gah elə bilirəm, yaxınsan mənə.
Sənə neynəmişəm zalım balası,
Eynəyin altından baxırsan mənə.

## SƏYYAH

Hər gün ürəyimdən gəlib-gedirsən,
Yaxşı yol tapmısan gəlib-getməyə.
Elə yaxşısını sən eyləyirsən,
Qorxuram, başqası gələ, getməyə.

Birdən səsə düşər, qulağın səsə,
Dinlə o sözləri bir yalan kimi.
Hələ harasıdır, ürəyim üstə,
Dünyanı gəzəcən Magellan kimi.

Elə sənsizlikmiş ümid, pənahım,
Hər şeyi yazıram qəmin boynuna,
Heç qubar eyləmə mənim səyyahım,
Dəmir çarığın da mənim boynuma.

Tələsmə, bu yolda, astaca, aram,
Gör neçə gecəmiz, səhərimiz var.
İndidən deməyə bir az qorxuram,
Hələ o dünyaya səfərimiz var.

Tələsmə, adına biçilib bu yol,
Tələsmə, bu yolla tən gedənin yox.
Mənim ürəyimdə sən arxayın ol,
Qapıdan çıxanda ləngidənin yox.

Bu yol nə uzundu, nə də ki, qısa,

Bu yol ömür ilə ölüm arası.
Qəlbimə yol saldın, amma...
Hardasa,
Yolunu gözləyir kimsə, qadası.

Hər gün ürəyimdən gəlib-gedirsən,
Yaxşı yol tapmısan gəlib-getməyə.
Elə yaxşısını sən eyləyirsən,
Qorxuram, başqası gələ, getməyə.

# BİR GÖR NEYNİYİRSƏN...

Zülümmü əlini üstünə çəkmiş,
Bu nə dərd yüküdü…
… Gözlərin aydın.
Tanrı bu çiçəyə ömür verməmiş,
Əvvəl taleyini düzüb qoşaydın.

Qorxur ki, yerisə, yer çökə birdən,
Bu yandan göylər də uça üstünə.
Tərpədə bilməyir ömrü yerindən,
Açılan qollar yox, qaça üstünə.

Görən, tezmi düşər güzarın bəri,
Bir gör neyniyirsən…
Bir düşün, Allah!
Tez götür üstündən bəd nəzərləri,
Əlinə keçməsin qurd-quşun, Allah!

Yandırır dağları, daşları ahı,
Yarəb, bundan betər pərişanmı var…
Bizə sən yazırsan bəxti, İlahi,
Sənin də işinə qarışanmı var…

Bir gör, neyniyirsən, sıxılır hava,
Sənin ki, fərmanın, əmrin əlində.
Getməyə yeri yox, qalmağa yuva,
Bu çiçək karıxıb ömrün əlində.

## BU NƏ BƏLA İDİ

Bu nə bəla idi aldı başımı,
Mən axı, bu qədər naşı deyildim.
Sənə yol gəlirdim doğulan gündən,
Üç günün, beş günün işi deyildi.

Qəlbimə xal salıb gördün işini,
Demədin ürək var o xalın altda.
Arada bir dəli sevgi üşüyür,
Hərəmiz bir əlin sığalı altda.

Biz nəyi sayırdıq, tale nə saydı,
Qəmimmi yoxuydu, dərdmi azıydı…
Vədəsiz sevgilər doğulmasaydı,
Həsrət şerləri yazılmazıydı.

Bu yerdə nə göy var, nə də ki, günəş,
Gedirəm, torpağa, daşa gedirəm.
Dünyadan köçməyə bir yer vədələş,
Bilim ki, səninlə qoşa gedirəm.

Bu dünya yar olmaz bizə, bilirəm,
Əllərim uzanmaz telinə qənşər.
Hələ yer üzündə gəzə bilirəm,
Gedim hazırlaşım ÖLÜMƏ QƏNŞƏR.

## ATAMIN XATİRƏSİNƏ

Bu yerlərin bəxti yatıb, ayı, ili yox
Hara baxsan, yaşamağın tərsi yazılıb
O daş üstə bir kişinin ad-famili yox,
O daş üstə kişiliyin dərsi yazılıb.

Nə öyrəndik qalan odur, biləydik əvvəl,
Gərək idi biz binadan-başdan öyrənək.
Qardaş-bacım, harda çaşıb qalsaq məəttəl,
Gəlin gedib atam baxan daşdan öyrənək.

Çox şeyləri Tanrıya da aça bilmərəm,
Açammaram içimdəki sirr mənim olsun.
Mən heç nəyin yaxınını istəməmişəm,
Qoy, atamın yanındakı yer mənim olsun.

## ÇOX TƏLƏSDİN BU NAĞILDA, NAĞILÇI

**...Atalı günlərimizin özü bir nağılıydı.**
**Amma nağılçı bu nağılı sona çatdırmağa**
**sanki tələsirdi**

Çox tələsdin, bu nağılda, nağılçı,
Sonundakı üç almaya görəmi…
Qürub bilib qəhrəmanı apardın,
Üzündəki saralmaya görəmi…

Bir vardı… Bir gün çıxıb gedəsi,
Biri yoxdu… Başa çatdı bu səhər.
Saç yolurdu bir körpənin nənəsi,
Qaçaqaçdı, çataçatdı bu səhər-
Çox tələsdin bu nağılda, nağılçı…

Tələsirdin, əylədənin yoxuydu,
Az qalırdı qışqırasan-dağılın!
Ağ günlərə çıxarardın həmişə,
Qəhrəmanı axırında nağılın-
Çox tələsdin bu nağılda, nağılçı!

# YÜZ İL YAŞAMAQLA ÇATMAQ OLMAYIR

Bizdən üz çevirən, üz çevir bəri,
Ömrü səndən umduq, qisməti haqdan.
Ağlara qalaydı qara günləri,
Nə ölüb qurtarır, nə yaşamaqnan.

Bu boyda dünyada onsuz da təksən,
Olsan da xoş günlə yanaşı belə.
Başdaşı alınır hayana çəksən,
Üst-üstə qoyanda beş daşı belə.

Daşlara dəyməyin, qəribdi onlar,
Daşlar bir-birini görübmü, görən…
Torpağın üstündə qərib olanlar,
Torpağın altında qəribmi, görən…

Ürəyin yüyürür, gözlərin axır,
Torpağı bir ovuc atdığın yerə.
Yüz il yaşamaqla çatmaq olmayır,
Bir dəfə ölməknən çatdığın yerə.

## YAMANLIQ ETMƏYİ ÖYRƏNƏCƏYƏM

Yamanlıq etməyi öyrənəcəyəm,
Bilmirəm, sözümün heyrəti nədir…
Yamanlıq etməyi öyrənəcəyəm
Ay ömrü uzunu yamanlıq edən -
Görüm yamanlığın ləzzəti nədir?

Vaxtım olmayıbdır düşünüm nəsə,
Elə xəyallarda, hissdə azmışam.
Kiməsə yamanlıq etmək istəsəm,
Uzağı adına şeir yazmışam.

Bəzən yaxşılığın axırı günah,
Elə günahlar var, xətərsiz olur.
Hamının halından halı olanlar,
Özünün halından xəbərsiz olur.

Bilirəm, adına yamanlıq deyib,
Kiməsə yaxşılıq gətirəsiyəm.
Ruhunu incitsəm baba dərvişin,
Yeri yerimdəcə itirəsiyəm.
Yamanlıq etməyə tələsən qoçaq,
Yox, bu da səninçün çətin olacaq…

# QIZIL YUXU

**Bir dəfə yuxuda gördüm ki,**
**Başıma qızıl quş qonub.**

Özüm taleyimə yaxşı bələdəm,
Məndən nə şah olar, nə də ki, vəzir.
Şahlığı bir quşun əlində olan,
Allahın balası, tale nə gəzir…

Çıxarma gözümü hədəqəsindən,
Gəl mənim halıma yanma, qızılquş!
Bəxtin, səadətin qıt vədəsində,
Sən mənim başıma qonma, qızılquş!

Özü bir dünyadır bir parça ürək,
O, bəlkə varımdı-yoxumdu mənim.
Gözlərim hələ çox yuxu görəcək,
Bəlkə də bu qızıl yuxumdu mənim.

Bir adla çıxmışdım yoluma mən də,.
İndi bir ürəyin neyli səsiyəm.
Bir oğul olmadı anama məndən,
Böyük bir şəhərə neyləsiyəm.

Sən də bir yuxusan, buta veriblər,
Məndən nə şah olar, nə də ki, vəzir.
Şahlığı bir quşun əlində olan,
Allahın balası, tale nə gəzir…

## MƏNDƏN KÜSƏN ŞEİR

Əzəldən yığvalı belədi bəlkə,
O, məni qayğıya bələdi bəlkə.
Yüyürüb mələdi bəlkə,
Məndən küsən şeir, inciyən şeir.

Axır beş kəlməyə yiyə çıxarır,
Ağlımı başımdan niyə çıxarır…
Gecə kəndirimi "göyə çıxarır",
Məndən küsən şeir, inciyən şeir.

Göz açan bulağın gözünə bənzər,
Mən səni sevirəm-sözünə bənzər.
İnciyib-küsməkdə özümə bənzər,
Məndən küsən şeir, inciyən şeir.

Çöhrəsi nə qəmli, nə də ki, şəndi,
Bir də görürsn ki, məndən üşəndi.
O da bir mövzudu, göydəndüşəndi,
Məndən küsən şeir, inciyən şeir.

## TAVANA YAZILAN NƏĞMƏ

Sükut yorğanımı çəkib üstünə
Gözünə girəmmir yuxu, neyləsin…
Könlümə bir nəğmə düşüb bu gecə
Axırı tavana yazacam onu.
Tanrıyla aramı yaxın eyləsin.

Mən nəyə tamarzı, mən niyə acam,
Bəllidir dünyanın oyaqlarına.
Bu gec\ə söz üçün daş atmayacam,
Kimsə pıçıldayır qulaqlarıma.

Gecələr köksünə yatdığım yuxu,
Ömürlük gözümə çökmədi bəlkə.
Bu gecə başını qatdığım yuxu,
Qapıdan çıxanda təklədi bəlkə.

Gözümə görünər gözəgörünməz,
Bəlkə, nə gündəyəm, görəcək məni.
Gecənin başına oyun açmışam,
Səhəri yuxuya verəcək məni.

Sükut yorğanımı çəkib üstünə,
Gözünə girəmmir yuxu, neyləsin…
Nəğməni tavana yazmışam daha,
Tanrıyla aramı yaxın eyləsin.
Bəndə bundan artıq axı neyləsin.

## TƏNHALIQ

Canım, bu nə səfərdi, yolları qırıq-qırıq…
Nə gedirik gedən tək, nə çatdıq çatan kimi.
Bir gec\ənin içində harasa yol açırıq,
Duyğular əllərimdən tutubdu adam kimi.

Küylərin arasında ömür düşür axına,
Elə tənhalıqda da gediş beləcə imiş.
Nə olsun ki, mən indi ulduzlara yaxınam,
Arzu var, ulduzlara çatanda öləcəkmiş…

Bura nə od düşəsi, nə qar düşəsi daha,
Bir az aşağılarda arzular buğum-buğum.
Özümə gümanım yox, tapşırıram allaha,
Bağışla, yol-yoldaşım, buracandır dostluğum…

# İNDİ

Bu tilsimi kimiydi ki, sındıran, açan,
A bəxtəvər, az da olsa, halıyam indi.
Elə çəkdim həsrətini, sındıranacan,
Mən həsrətin nəzərində uluyam, indi.

Həsəd çəkir  öz-özünə küçələr, tinlər,
Ha sığalla, ha əzizlə inlər ki, inlər.
Ulduz kimi onda necə əridi günlər…
Az qalıram ürəyimi qalayam, indi.

Havalıyla dəli demək, dəli işidi,
Qəfil görüş ayın işi, ilin işidi.
Qoyma belə dilim yandı, əlim üşüdü,
Qıyma, qalan günlərimi talayam, indi.

Mum deyildin, daş da sənə - deyə bilmərəm,
Mən sözümü başqa "sən"ə deyə bilmərəm,
Daşyonanam, daşkəsənəm - deyə bilmərəm,
Hər nəyəmsə, bu havanın quluyam, indi.

## DƏRDİ OLMAYANLAR

Dərdi olmayanı gedib taparsan,
Hələ nə yaşındı, hələ nə vaxtdı…
Dərdi olmayanı gedib tapınca,
Ay zalım, hamını dərd tapacaqdı.

Bağla, pəncərəni keçim küçədən,
Bu küçə nə sənin, nə də mənimdir.
Məni çəkən dərdin dünyası böyük,
Sənin saxladığın dərd düyünçəsi
Dərd edib adına göndərənindir.

Mən ulduz olanda sənə can atdım,
Sən ulduz olanda qaçırdın niyə…
İstəyin kədərli çiçək açıbmış,
Mənim nəzərimdə puçurdun, niyə…
Arxamda dağ kimi dayanan dağı,
Əridib qarşıma uçurdun, niyə…
Bağla pəncərəni keçim küçədən,
Bağla, heç olmasa birini bağla,
Bağlı pəncərənin gününü ağla.

Beləcə güləsən ömrün uzunu,
Yoluna tələsən dərdli dəliydi.
Süzülə-süzülə gələn səadət,
Üzülə-üzülə keçinməliydi.

Dərdi olmayanlar, harda var, zalım…
Nazını çəkəsən hədər gülənin.
Qədrini bilmədin dərdi bəllinin,
Dərdini bilməzsən qədirbilənin.

Dərdi olmayanı gedib taparsan,
Hələ qərənfilsən, hələ nə vaxtdı…
Dərdi olmayanı gedib tapınca,
Ay zalım, hamını dərd tapacaqdı.

## SİZİN QƏMİNİZ

**Cehiz ucbatından qoşulub qaçan,**
**Qəmini yazmadım bacılarımın.**
**Vaqif Bəhmənli**

Çəkdikcə qurtarmaz…
Bir para qəmdi…
Eh…
Saça nə düşər, dəndən savayı…
Cehiz əvəzinə aparmısınız,
Nəyiniz vardı ki, qəmdən savayı…

Uzun gecələri oyaq açanda,
Nağıllar qoynunda qalmaq olurdu.
Axı, nə görmüşdük ayaq açandan,
Maaşla cehizmi almaq olurdu…

Vallah, bu dünyanın işinə matam,
Hər şey ümidlədi, yaşladı hər şey…
Sizin qəminizdən qocaldı atam,
Sizin qəminizdən, başladı hər şey…

Sizə qəm gətirən gözəgörünməz,
Sizin qəminizi aparan deyil.
Sizin qəminizdən başladı hər şey,
Sizin qəminiznən qurtaran deyil.

Çəkdikcə qurtarmaz…Düşüb bəhsinə,
Çəkəsən başatan, başatan qəmi.
Ay anam, deyirəm çəkməyə dəyər,
İnsanı bir ömür yaşadan qəmi.

# ÖZÜMLƏ SÖHBƏT

Haylı-küylü adı varmış xoş günün,
Elə xoşca ömür olsa, nə vardı…
Saxlansaydı, yaman günə saxlardıq,
Ağac olsa, dəmir olsa, nə vardı…
Qayğılarnan belə gəldik döş-döşə,
İşarası qaçammadıq görüşə.
"Yaman günün ömrü azdı" dedilər,
Guya, xoş gün boyaboydu ömürnən.
Suiçimə, bir baxıma yaşandı,
Adı kimi günlər soydu ömürdən.

Bir tərəfdən yola çıxdı məhəbbət,
Başa gəldi sevilmək də, sevmək də.
Mən bilmirəm, kim nə cürə sevibdi,
İş düzəlmir sevilməknən, sevməknən.
Hələ sevib-atılmağın bir ağrı,
Baxışların biri sevinc, yüzü dərd.
Könül almaq guya dərdin axırı,
Könül vermək indən belə müsibət.
Daha itib gözlərimin ovsunu,
Daha itib ürəyimin duası.
Sevirsən ki, qayğıların azala,
Hələ onun "nə bilim"i, "guya"sı.
Oda salsın, sınaq desin adına.
Hələ desin ibrət götür Kərəmdən.

Dost olmadı ürəyimnən gözlərim,
Ürəyimə düşmən olub görəndən.

Görəcəkli günlərimiz qabaqda,
Çox demişik, nə görmüşük görəsən.
Qınamayın, bir kirayə otaqda,
Elə dərdlə görüşmüşük deyəsən.

# TƏZƏ BAŞLAYIR

**Dostum Natiq Muxtarıyla**

Duyğular tarıma çəkilir yenə,
Ürək misra-misra sözə başlayır.
Mən elə bilirdim sözüm tükənir,
Demə, şairliyim təzə başlayır.

Üstünə sərinlik endi, dinmədi
Özünü alova atmağı varmış.
Sağ olsun, ilhamın üzü dönmədi,
Dar gündə dadıma çatmağı varmış.

Qurtardı kədərlə qəlbin davası,
Hər şeyi xəyala yozmağım gəlir.
Başımı götürüb şeir havası,
İlahi şeirlər yazmağım gəlir.

Bu gündən mən nədi, qəm çəkmək nədi,
Qəmlər sonu qəmli oyuna çıxır.
Mən niyə sevirəm kədər çəkməyi,
Bir gün də görəcəm boynuma çıxır.

Bu gündən davamız söz başındadır,
Ürək misralarnan sözə başlayır.
Təzə şeirlərim qız yaşındadır,
Demək, şairliyim təzə başlayır.

## GÖZLƏRİM AĞRIYIR

Hər gecə tavanda gecələyirsən,
Əridib ruhumu heç eləyirsən.
Ovcumun içindən köç eyləyirsən,
Gözlərim ağrıyır səni görəndə.

Neçə ki, əsassız şübhən olacaq,
Gecələr sinəndə qor olasıyam.
Tavanda bir təhər yola gedirik,
Göz-gözə gələndə kor olasıyam -
Gözlərim ağrıyır səni görəndə.

Qəlbimin başında yerin varıydı,
Səndən "Zümrüd quşu"um,
səndin "Ağatlım".
Nə qədər möcüzəm, sirrim varıydı,
Heyif ki, yanında açdım-ağartdım -
Gözlərim ağrıyır səni görəndə.

Məni kədər doğub, qəm bələyibdir,
Nə vaxt çəkinmişəm qəmi görəndə…
Gözüm qollarını çirmələyibdir,
Üzünü yana tut, məni görəndə -
Gözlərim ağrıyır səni görəndə.

# DÜNYA

Başımızı yerə görüb,
Vurdu hər yetənin, dünya!
Saçımızda şirə görüb,
Birər-birər dənin, dünya!

Sevinci qucağa gəlmir,
Quş olub uçmağa gəlmir.
Nadanlar şişə çəkərdi
Yaxşı ki, bıçağa gəlmir -
Üz-gözün, bədənin, dünya!

Bu yolun sonu heçədir,
Səhərin sonu gecədir.
Adam yoxdu ha, soruşum:
- O biri üzün necədir -
Qayıtmır gedənin, dünya!

Qocaların, cavanların,
Göz yaşı tək narın-narın.
Apar məni yaxşıların,
Borcuna ödənim, dünya!

## DÜŞDÜM

Sən məndə dəlilik arama qardaş,
"Varını dağıtma paya-nəzirə"…
Sağımda-solumda havalılardı,
Başımda bir para hava gəzirəm -
Yaxşı ki, havalı dünyaya düşdüm.

Sən deyən havaya oynamağım ar,
Yaxşı görəcəksən yana dur, məni.
Başımda havalı sazandalar var
Gecə-səhərəcən oynadır məni -
Yaxşı ki, havalı dünyaya düşdüm.

Üzür ürəyimi hissim hər axşam,
Qan da havalanır şah damarımda.
Göz açıb şeirə qonşu olmuşam,
Havalı olacaq balalarım da -
Yaxşı ki, havalı dünyaya düşdüm.

# NALBƏNDİN ŞİKAYƏTİ

Beləmi yaşadıq balam, dünyanı,
Təpədən-dırnağa yalan dünyanı.
Hamını özünnən ölçən Koroğlu,
Bizəmi tapşırdı qalan dünyanı -
Hasannan, Həsənnən döyüşdü…Niyə…

Hər şey yaddaşıma yaşımdan gəlir,
At səsi yüz ilin başından gəlir.
Meşə gözətçisi meşəbəyilər,
İndi göy meşəyə maşınnan gəlir-
Dünyanın yolları dəyişdi... Niyə...

Nə yala yatmağa səmənd olacaq,
Nə igid, nə ata, nə bənd olacaq…
Atdan danışana gülüb deyirlər:
-Yəhər qayıranla nalbənd olacaq -
Bilən də yoxdu ki, nə işdi…Niyə…

# LALƏ

**...Lalələrin içində,**
**Lalə olmaq qayğısını çək, lalə!**
**M.Ələkbərli**

Səni vurdu, hansı qışın sazağı,
Niyə gəldin bu zəmiyə gec, lalə!
Tələs, adi gül olarsan, yaz ağzı,
Yığ göçünü, bu yerlərdən köç lalə!

Kim öyrətdi dərilməmiş solmağı,
Qız zülfünə hörülməmiş solmağı…
Niyə gördüm, görünməmiş solmağı,
Demərəm ki, günahımdan keç, lalə!

Oda salmaq, hər bəlanın işimi…
Lalə olmaq, hər lalənin işimi…
Saxlayıram bir aləmin işini,
Götür məni, bu yerlərdən uç, lalə!

Harda qaldı, bu nəğmənin yazarı…
O mənəmsə uçurmuşam hasarı.
Yanağında nə rəngidi, bu sarı -
Elə bil ki, olmuyubsan heç, lalə…

## İLAHİ ŞEİR

İndi yazaramsa, bu "şər" olacaq,
Düşməsə yazmaram, düşər…olacaq.
Çəkəcəm ilhamı "dar ağacı"na,
Vərəqdə elə bir məşhər olacaq -
Mən sənə ilahi şeir yazacam.

Bəlkə də misrası dodağındadır,
Bölgüsü, hecası sorağındadı.
Belə bir şeirin yazı masası,
Dünyanın ən xoşbəxt buğacındadır -
Mən sənə ilahi şeir yazacam.

Ürəyim yazacaq, neyləmək olar…
İlhamı saxlayıb-ələmək olar…
O qədər "sən" deyib şeir yazmışam,
Birini yüz qıza söyləmək olar -
Mən sənə ilahi şeir yazacam.

Dinib -danışanda sözün ilahi,
Bu dərdə dözməyə, dözüm ilahi.
Adi söz demərəm adiləşəsən,
Təpədən-dırnağa özün ilahi -
Mən sənə ilahi şeir yazacam.

Həsrətin, heyrətin sonu bu yazda,
Şeirnən gələydi bizə muraz da.
Qurtarım qəlbimi üzüntülərdən,
Dözmüsən bu qədər, gözlə bir az da -
Mən sənə ilahi şeir yazacam.

## O SEVGİ

Bir para ağrı var səndən ömrümə,
Vallah, ağrını da çəkmək hədərdi.
Məhəbbət gəlsəydi sənnən ömrümə,
Elə səninlə də çıxıb gedərdi.

Gözümüz açılıb dünyaya birgə,
O səhər tutmuşdum üzünü sənə.
Yaxşı ki, vaxtında küsüb getmisən,
Çaşıb deyəcəkdim düzünü sənə.

Keçdin ürəyimdən ayağı yalın,
Keçdin, bu aradan yad keçməmişdi.
Onsuz da kimisə sevməli idim,
Mən səni sevməyə and içməmişdim.

O sevgi min ilin toyundan gəlir,
O sevgi o yerin suyundan gəlir.
Babam da beləcə sevdi nənəmi,
O sevgi kökümdən-soyumdan gəlir.

Bir para ağrı var səndən ömrümə,
Vallah ağrını da çəkmək hədərdi.
Məhəbbət gəlsəydi sənnən ömrümə,
Elə səninlə də çıxıb gedərdi.

## NİYƏ TALEYİMİZ OXŞARDI BELƏ...

Təsəlli üçünmüş gəldiyimiz yol,
Sözlərim qəlbini, danış, neylədi…
Hərəmiz bir adla gəldik dünyaya,
Bizi taleyimiz tanış eylədi -
Niyə taleyimiz oxşardı belə…

Çəkib ruhumuzu səpələdilər,
Səni sevən oğlan, məni sevən qız.
Elə bir-birinə tuş gələydilər,
Bizimi görmüşdü o iki qansız -
Niyə taleyimiz oxşardı belə.

Yolüstü təsadüf, yolüstü pənah,
Bilmədik sevgimiz ölər, doğular.
Belə də həqiqət olarmı, allah…
Bəlkə əfsanəyə qohumluğu var -
Niyə taleyimiz oxşardı belə…

Hərəmiz bir adla gəldik dünyaya,
Bir adla köçərik, xatırlayarlar:
- Oxşar talelilər yaşardı belə,
Onları taleyi tanış eylədi -
Niyə taleyimiz oxşardı belə…

## DEMƏ Kİ...

Demə ki, beləyəm, demə ki, daşam,
Doğrudan beləyəm-elə bilərəm.
Sənin xatirinə doğulmamışam,
Sənin xatirinə ölə bilərəm.
Doğrudan beləyəm, elə bilərəm,
Salırsan gözümdən özümü, bəlkə.
Demə ki, qurtardı mənimki sənlə,
Vaxt tapıb, qapadın gözümü, bəlkə.

Nə bilim, bəlkə də əlim gəlməyib,
Sən ada, ünvana daş atmamışam.
Öləsən - deməyə dilim gəlməyib.
Nə də ki, mən səni yaşatmamışam.

Bu dünya mənsiz də şirindi, vallah,
Bu dünya sənsiz də qurtaran deyil.
Göz yaşı həmişə köməyə çatmaz,
Göz yaşı heç nəyi qaytaran deyil.

Bir də görərsən ki, tələsdi dünya,
Bir də görərsən ki, ərindi dünya.
Baxma xatirinə ölə bilərəm,
Çox da umud olma, şirindi dünya.
Şirindi vallah!

# NAMƏLUM BULUDDAN YAĞAN YAĞIŞ

**...İsti yağışlar yağır...**
**N.Kəsəmənli**

Bolluğa düşübdür bu göz yaşları,
Ömrünü yarıya bölüncə yağar.
Leysana başladı qız baxışları,
Sonuncu damlası ölüncə yağar.

Yağar bir yaddaşın-yadın üstünə,
Dilini göynədən adın üstünə.
Yağışlı-yağmurlu külə dönəcək,
Ha yağsın, yandığı odun üstünə.

Bir dəli buluddan yağar bu yağış,
Bir dəli könülə axar bu yağış.

Bir qərib sevginin dalınca yağar,
Gözünü əlindən alınca yağar.
Mən də bu yağışa yaxşı bələdəm,
Bilirəm, gecə də balınca yağar.

O, göz yaşlarının dalınca baxır,
Yanağı yüyürər istiyə bir gün.
Gözünün yaşını qurtarıb axır -
Kimdənsə göz yaşı istiyər bir gün.

# Nə İsə

Dilimin ucunda göynəyən sözü,
Sənə deyəcəkdim, keçdi, nə isə…
Ünvana yetmədi, ada çatmadı,
Başqa birisinə heçdi, nə isə…

Budaq hər fəsildə bir yarpaq geyir,
Nə qədər şər dedim, gəlmədi xeyir.
Adına yazdığım bir yarpaq şeir,
Ömrümü-günümü içdi, nə isə…

Bir yalan “həqiqət" öldü gözümdə,
Bilirsən, canı var adi sözün də.
Sənə deyəcəyim qaldı özümdə,
Sənə deyəcəkdim…Gecdi…Nə isə…

# SƏNƏ

Üzü bir tərəfə yol alır qatar,
Sən də sərnişinsən ona bu gecə.
Görəsən, harayım haraya çatır,
Qorxuram hirsindən dona bu gecə.

Sənin nifrətinmi, sevginmi dərin,
Qəlbində nələri dolaşdırırsan…
Özünə bənzəməz düşüncələri,
Bəs, necə özünə yaraşdırırsan…

Kiminsə haqlıdır qəlbində kini,
Kiminsə eşqinə indi gülən var.
Sənin "sevgi" adlı qəlbindəkini,
Gör, neçə ünvana bölüşdürən var.

O ki, varaqlamır xatirələri,
Hamıya eyni cür yovuşur qatar.
Onun da qəlbindən yoxdur xəbəri,
Sənin tək ömrümdən sovuşur qatar.

Tək mənə görəmi çapara dönüb…
İndi həsrətim də qatara dönüb.

Üzü biz tərəfə yol alır qatar,
Sən də sərnişinsən ona bu gecə.
Görəsən, harayım haraya çatır,
Qorxuram hirsindən dona bu gecə.

## BU QIZIN GÖZÜNDƏ

Uzalı qalıbdı əli, yolunda,
Bəxtinin çoxundan, azından keçir.
Əlini vermədi ölüm yolunda,
Keçinir…Kiminsə nazından keçir.

Yolur saçlarını o, saçdan keçir,
Dostdan, rəfiqədən, yoldaşdan keçir.
Bu qızın gözündə nədi bu oğlan,..
Ömründən-günündən bu başdan keçir.

Bu qızın gözündə nədi bu oğlan…
Bu qızın qubarlı gözündən soruş.
Bu qızın dinməyə heyi qalmayıb
Ağrıdan, təpərdən, dözümdən soruş.

Dünyanın hər cürə üzündən keçir,
Xəyalı dağından, düzündən  keçir.
Qurban veriləsi gözləri qalıb,
Ağlayır, indi də gözündən keçir.

Görən, nə danışır dodağı altdan,
Onsuz diləməyə aman qalmayıb.
Qoymayın, yer qaçdı ayağı altdan,
Göydən tutmağa da güman qalmayab -
Bu qızın gözündə nədi bu oğlan…

## SEVGİ ŞEİRLƏRİMƏ

Sevgi şeirlərim, ötdü sevgidən,
Daha ürəkmi var, oda düşəsi…
Elə unudurlar Adamı, vallah,
Təzədən sevməkmi yada düşəsi…

Siz də mənim kimi bir belə təmiz,
Siz də mənim kimi belə utancaq.
Eh, Məni bir qıza sevdirmədiniz,
Mən sizi yüzünə sevdirdim, ancaq.

Atılan nə qədər atan nə qədər,
Ürək də yazıqdı çəksə, bu dərdi.
Başını sındırma sevilmyənlər,
Elə sevənlərin sayı qədərdi.

Elə sevənlərdi-sevilməyənlər,
Sevsə də, yansa da bəlası birdi.
Ağlımız kəsəndən sevən atılıb,
Canım yarımağa yar nə gəzirdi.

Mənim bu dünyadan alacağım var,
Mənim nə günüm var, olacağım var…
Sevgi şeirlərim sizdən savayı,
Mənim də nə kümməm var, alacığım var.

Sevgi şeirlərim, ötdü sevgidən,
Daha ürəkmi var, oda düşəsi…
Elə unudurlar adamı, vallah,
Təzədən sevməkmi yada düşəsi…

## GƏLİRSƏN

**Arif Paşaoğlunun 70 illiyinə**

Gözəliydi bu yolları çıxmağın,
İndi onu düşə-düşə gəlirsən.
Ürəyində gənclik eşqi, həvəsi,
Elə bil ki, ilk görüşə gəlirsən.

Getdiyimiz bir ağappaq yoluydu,
Həm kədərlə, həm sevinclə doluydu.
İnsan oğlu bu talenin quluydu,
Ömrü-günü çəkib şişə, gəlirsən.

Qoca dünya üstümüzə daş atdı,
Sapandını arada bir boş atdı.
Yaxşı ya pis, bir ömürü yaşatdı,
Mən əlliyə, sən yetmişə gəlirsən.

## "UNUDA BİLMİRƏM" DESƏN...

Ürək deyiləndən yarımasam da,
Çırpınır sinəmdə zalım quş kimi,
Sən məni bircə yol unutmasan da,
Özünü göstərdin unutmuş kimi.

Bir dəli sevgini qoyduq yarıda,
Ya mən geri dönüm, ya sən… Nə olar…
Əlindən qaçırdın yuxuları da,
"Unuda bilmirəm" desən… Nə olar…

Kimin günahı nə, dil açıb desin,
Bəlkə sahibini gəzir bu sevgi.
Əlində qalmışıq qürurun, hissin,
Hərəni bir yanda əzir bu sevgi.

Özün də bilmədən çəkilir səsin,
Nəyi unudursan… Niyə… Bilirsən?
Dolansan başına körpə sevginin,
"Unuda bilmirəm" deyə bilirsən.

Ürək deyiləndən yarımasam da,
Çırpınır sinəmdə zalım quş kimi,
Sən məni bircə yol unutmasan da,
Özünü göstərdin unutmuş kimi.

# UÇURUM

## (Poema)

## I

Əlləri tətikdə üçəcən sayldı,
İndi son sözünü deyə bilərdi.
Qışqırıb yuxudan oyanmasaydı,
Güllə ürəyinə dəyə bilərdi.

Bir az da yatardı, gecəydi... Ancaq,
Düşündü- daşındı, qəfil dikəldi.
Qayıdıb uzansa beli sınacaq,
Sınıq çarpayıya yazığı gəldi.

Kimi öldürürdü gecə yarısı,
Nə idi əlində tutduğu bayaq...
Başına vurmuşdu gözün ağrısı,
Özünü danladı bir az... Ay axmaq...

Açdı əllərini bəyaz səmaya,
Hələ də bilmirdi neyləyirdi o.
Belə bəxt paylayan zalım dünyaya,
Həmişə yaxşılıq eyləyirdi o.

Nağılnan-noğulnan qəlbini yordu,
Ömrünün talanmış anına kimi.
Həmişə yuxuda zalım olurdu,
Xoruzun birinci banına kimi.

Təsəlli axtardı özünə özü,
Desələr zalımdı - eşit, inanma.
Köhnə ağrısından qızardı gözü,
Bir az yaşamalı dünyadı... Amma...

Bir az da ölməli dünyadı, dünya,
Özünü qəflətdən oyada bilmir.
Zalım dil çıxarır dünyaya, amma,
Yaxşılar dünyayla dil tapa bilmir.

Bir azdan gecə də keçib gedəsi,
Bir azdan ayazlı səhər olacaq.
Bir azdan sevdiyi adamlar, şəhər,
Ğbir də sevmədiyi şəhər olacaq.

**II**

Yüz fikir bir başı eyləyər dəli,
Əlində qalmışdı duyğunun, hissin.
Bilmədən toxundu kiməsə əli,
İstədi qayıdıb üzr istəsin.

Qadın haray saldı, haray, ay haray,
Utanıb-qızarmır oğrunun biri.
Haraya yetişdi "yaxşı adamlar",
Qoymayın əkilə:
-Tutun cibgiri!

Bircə bu qalmışdı, oğru deyələr,
Bircə bu qalmışdı, bu da qalmadı.
Düşündü-"yaxşılar" onu döyərlər,
And-aman qalmadı, qada qalmadı.

Heykəlin yanında saxladı ayaq,
Təmizlik ömrünə güc eyləmişdi.
Bu heykəl onunçün ev olub bir vaxt,
Dibində nə qədər gecələmişdi...

Özünnən aparsın hara baxtını,
Bir soyuq işlədi qanına yenə.
Yığıb çantasına qara baxtını,
Düşdü küçələrin canına yenə.

Daha keçmiş idi hirsdən, acıqdan,
Bu günə, sabaha dözüm gedəcək.
Ölümü çatmamış dayanacaqdan,
Bir gün qəbristana özü gedəcək.

O qədər qovuldu, namərd olunca,
Durduğu yataqdan döndü geriyə.
Röyada özünə güllə atınca,
Düşündü-doğrudan namərdəm,-deyə.

İstədi oxusun yazdıqlarını,
Özünü danladı, ay axmaq olmaz.
Bu "dəli" adamın yazdıqlarıdı,
Camaat içində oxumaq olmaz.

Çantanı qomurdu gözündən yana,
... Kimsə əlindənmi qoparacaqdır.
Elə bilirdi ki, qəbristana da,
Çantanı özüylə aparacaqdır.

Elə ki düşərdi yağışa hərdən,

Elə ki qəlbinə nəsə damardı.
Köhnə sevgili tək çanta tifilə,
Tifil də çantaya daldalanardı.

**III**

O gün ölmək olardı bir təsadüf ölümə,
Bir yanı qağayılar, bir yanı axar-baxar.
Heyfsləndi, nə ola bir də düşə əlimə,
Zalım, belə fürsəti adam əldən buraxar…

Ölüm xahiş deyil ki, istəyəndə gələsi,
Nə də rüşvətdir sənə, kağızlara bükülü.
Elə o qərib gecə öləsiydin-öləsi,
Qal gecələri oyaq, gündüzləri mürgülü.

Dəli bir istəyinən tez qapadı gözünü,
Ondan olsa ölərdi, ölməyə qoymayan kim…
Ölümdən qurtarıbdı, çaş-baş saldı özünü,
Hamı kimi gülərdi, gülməyə qoymayan kim…

Bəlkə qalmağı yaxşı bu zalım dünya ilə,
Bəlkə torpağın altda payı bundan da dardı.
Qəribliyə düşəndə səfil küçələr üçün,
Küçələr öyrəşdiyi səfilçün darıxardı.

Adam var, tənhalığı gəzir, axtarır əl-əl,
Adam var, tənhalığın əlində qalıb əsir.
Ha düşündü-daşındı, duyanmmadı müfəssəl,
Gələnlər gəlir hardan, gedən hara tələsir.

Sevib-atıldığından unutmuşdu sevməyi,
Təzədən sevmək indi özünə ar gəlirdi.

Xəyalən sevilirdi, xəyalında hər səhər,
İşə xumar gedirdi, evə xumar gəlirdi.

İş deyəndə əlləri üzülürdü dünyadan,
Otaqda da, işdə də günlərini sayırdı.
Bezmişdi gözlədiyi gözətçi budkasından,
Kirayədə qaldığı otağa oxşayırdı.

Sonrası nələriymiş, bu dünyadan küsəndə,
Gözündən yaş gedibdir, gözə yaş gəlib hər gün.
Elə gözü görəndən, elə ağlı kəsəndən,
Arzu imkanıyla ayaq-baş gəlib hər gün.

Bu nə taledi belə, kim yazdı bu yazını,
Bəlkə heç sevməyibmiş anası atası.
İnsan ölüm istəyir, nəhs açıbdır ağzını,
Rahat qəbristana da çətin gedib çatası.

Bu dünyanın işıqlı nəyidi görən… Allah,
Dumanlı gündüzləri, zülmət gecələri var.
Öz-özünə düşündü, naşükür olmaz adam,
Heç nəyi olmasa da, yaxşı küçələri var.

Elə bil yazdıqları danışır çantasında,
Bir qəribə həvəsnən qulaq asır, dinməyib.
Onun dünyadan köçmək başını qatıb yaman,
Yaşamağı haqqında bu qədər düşünməyib.

Lap tamarzı qalıbdır bir ölümə-itimə,
Sanki o qəriblikdə bir qərib həyanı var.
Axı, kim tərifləyib o dünyanı yetimə,

Elə bil, o dünyanın muraz paylayanı var.

## IV

Evin sahibəsi tək qadın idi,
Beləymiş onun da yığvalı, baxtı.
Görəndən-görənə salam verirdi,
Bir də ki vaxtında kirayə haqqı.

Demə, qadın sevir gizli, havalı,
Salıb ürəyini oda, yaşadır.
Şəhərdə bir ev var, ikiotaqlı,
Hərəsi bir tənha adam yaşadır.

Eh, bu da həyatın bir görkü idi,
Qadın ürəyini bilməzdi onun.
Bu vaxtsız-vədəsiz nə sevgi idi,
Yatsa, yuxusuna girməzdi onun.

Gecə bir aləmi döyüldü qapı,
Səssiz çağırışlar nə istəyirdi…
Kim sala bilərdi tarap-tarapı,
Bu gecə istəyi nə istəyiydi…

Gəl,-dedi, içəri yeridi qadın,
Gözləri heyrətdən girmişdi dona.
Dilsiz baxışların deyəcəyini,
Qapını döyəndə demişdi ona.

Dili dil açmadı, çoxaldı qəmi,
Dedi, nə dedisə, baxışla dedi.
Qapıya yanaşdı, astaca... Məni...
Səni sevdiyimə bağışla,-dedi.

Anlaya bilmədi gördüyü nəydi,
Gözü kor olmuşdu, qulaqları kar.
Sevgi hisslərini itirməsəydi,
Duyardı qadındı, sevən qəlbi var.

İstədi yüyürüb qapını açsın,
Bir də xəbər alsın, nə dedin bayaq...
Qıymadı yuxudan onu oyatsın,
Bilmədi o zaldım oyaqdır, oyaq...

Öz yerindən oynatdılar,
Ağrı-acısı oynayır.
Yatanını oyatdılar,
Qapı-bacası oynayır.

İndi ümid qaçanadı,
Get, gəlişin haçanadı...
Yolda yollar haçalandı,
Yolun haçası oynayır.

Sirr, möcüzə boxçasıdı,
Kimə ürək açasıdı..
Havalanıb qaçasıdı,
Burdan qaçası... Oynayır.

**V**

Söz demə yetimə, belə söz demə,
Ürəyi qupquru,gözləri bulud.
Umudsuz adamdan umud gözləmə,
Unut, zalım qızı, indidən unut!

Yadına salarsan qəribliyini,
Qəribin yanında ağlamaq olmaz.
Böyük sevgiləri tanımaz indi,
Onu məhəbbətlə saxlamaq olmaz-
Unut, zalım qızı, indidən unut!

Kiminsə gözündən yığışıb köçmək,
Bu qoca dünyadan köç deyil hələ.
Hər sevən sevilmir, sağ olsun başın,
Özünü ələ al, gec deyil hələ -
Unut, zalım qızı, indidən unut!

***

Bu nə xəbər idi, gəldi üstünə,
Fırlanar başına ev innən belə.
Ömrü - nəyə lazım qoyub pis günə,
Sevil innən belə, sev innən belə.

Yollarında ağında talandı ömür,
Nahaqdan odlara qalandı ömür.
Sevdi,sevdi gördü yalandı ömür,
Sevib nə görəcək... eh innən belə.

***

Dərdçəkən kəsib qapını,
Bir xəbər al, nə istəyir.
Heç darılma, dərdin alım,
Dərdini bilmək istəyir.

Ölümü ömründən uca,
Daşa döndü daş olunca.
Hardasan daşyonan qoca,
Bir nəfər ölmək istəyir.

Ürəyi düşüb göynəyə,
Həsrət qalıbdır gör nəyə…
Ağlamaq çatır köməyə,
Elə ki ölmək istəyir.

## VI

**Könül dərdi bir gözələ açmamış,**
**Peşiman olunca, aç peşiman ol.**
**R. Babaxanlı**

Bəlkə taleyindir bu gələn sənin,
Düşməmiş saçına dən, peşiman ol!
Sonra gec olacaq, səni sevən kəs,
Peşiman olmamış sən peşiman ol.

Günlərin uçubdu, qalıb bir əsim,
Taleyin nə qədər səni gözləsin...
Bu gün sən dərdlisən, sabah özgəsi,
Dünyanı tutmamış qəm, peşiman ol!

Nədir gözlərindən boylanan təlaş,
Bəsdi, bu dünyaynan gedib ayaqlaş.
Kimsə daşa döndü, ay ürəyi daş,
Zalım, Allaha bax, dön, peşiman ol!

**... Birdən ona elə gəldi ki, ürəyində ev sahibəsinə qarşı hansısa bir hiss yaranır. Bəlkə, neçə il əvvəl sevdiyi qızla yad evinə gedən sevgisi idi. Yaman yerdə duyğular onu haqladı. Hələ axşama kimi səfil yaşamaq olardı.**

**Ev sahibəsinin hisslərini cavabsız qoyduğu üçün peşiman oldu. İstədi sevmədiyi üçün də peşiman olsun. Bilmədi ki, qadın yenə də**

**onu qabaqlayıb, sevgisini bəyan etdiyi üçün peşiman olub. Sevgi deyilən bir belə əzablı imişsə, adı da ayrı cür olaydı gərək...**

**Bu duyğularnan tələsik addımlarla kirayə otağına qayıtdı. Qapını açıb içəri girdi. Duruxdu. Masanın üstündə kağıza bükülü nəsə vardı. Əlləri titrəyə-titrəyə açdı. Kirayə qaldığı vaxtlarda verdiyi kirayə haqqı idi. Ev sahibəsi aldığı bütün pulların hamısını özünə qaytarırdı. Və xahiş edirdi, yalvarırdı ki:**

-Çıx get, yalvarıram, harasa çıx get,
Çıx get, yük olaram adına sənin.
Özümə dərd olar ulu hisslərim,
Mən çata bilmərəm dadına sənin.

Həsrət ürəyimi sıxanacandı,
Bir səhər evimi yıxanacandı.
Çətini qapıdan çıxanacandı,
Qorxma, düşməyəcəm yadına sənin.

Yaş yox, dərd çoxalar yaşımın üstə,
Qırışlar gəlməsin qaşının üstə.
Tüstüm duman olar başının üstə,
Mən belə yanacam oduna sənin.

## SON

Soyuq divalara boylandı bir az,
Divar da üzündən bezdi, deyəsən.
Soyuq duyğuları, soyuq hissləri,
Daşın daş qəlbini üzdü, deyəsən.

Qapısı, aynası, pərdəsi bumbuz,

Ömrünü əridən balıncı daşdı.
Harda tapacaqsan ürəyi dümdüz,
Hayana gedirsən ay başıdaşlı...

Bir giley oxudu daşda, divarda,
Bir axşam baş çəkir, bir səhər gəlir.
Geriyə dönəndə daş da, divar da,
Nədənsə gözünə birtəhər gəlir.

İllər tapdalanıb ayağı altda,
Yanıb-yandığını deyəmmir daha.
Qanıyla dolanan ağcaqanad da,
Qaralmış qanını bəyənmir daha.

Gedir, bu gedişə indi inanıb,
Bu yerdə nə tələs, nə səngi dünya!
Bir addım o yana ölüm dayanıb,
Bir addım bu yana həmənki dünya.

Atdı çantasını çiyninə tifil,
Özgə nəyi vardı - qara çantadan.
Bir addım atmışdı, birdən elə bil,
Kim isə qışqırdı: - Ay adam, dayan!

**Fevral - avqust 1989-cu il.**

# GÖRK

## (Ssenari)

…Gecə yarısı… Göy üzünü çalxalayan uğultu, qəsdə durmuş kimi selləmə yağan yağış vağzala yaxınlaşan sərnişin qatarını bir az da görünməz edirdi. Səsindən hiss olunurdu ki, qatar lap yaxındadır. Stansiya növbətçisi əl fənərini götürüb qatarı qarşılamaq üçün perrona çıxdı:

-İlahi, özün qoru bizləri! Elə bil özü ilə bəla gətirir bu qatar! Bu nədi, yağan yağışı külək güllə kimi adamın sifətinə çırpır. Bu, həsrət pıçıltılı, vüsal arzulu payız yağışlarından deyil.

***

Qatar stansiyaya yan aldı.

Vaqonun pilləkənindən uca boyu əyilmiş, başında panama, əynində qara kürk, xəyalında əlli ilin o başından boylanan ürəksökən xatirələr olan ADAMdan başqa bir kimsə düşmədi. Gecənin zülmətində qatarın başı üzərində bəri şığıyan qara buludlar elə onu gətirməyə tələsirmiş …

Payızın boz hayqırtısı sanki onu oyatmırdı. Özü ilə gətirdiyi qara aləm ətrafdakı ağrıları külə döndərmişdi.

Stansiya növbətçisi:

-Ay adam, ay adam, kimsən… Yoxa çıxdı…

Yayındı…

***

…Yağışın yağması sanki bu adama təsir etmirdi. Əksinə, başına döyəcləyən damcılar əlli ilin

o başındakı xatirələri  tərpədirdi. Aramsız öskürək göy üzünü tutan üsyankar bulud kimi tufan qoparırdı. Həmişə gəlməli, baş çəkməli və sonda tapşırılmalı torpağa  ömrün qürubunda gəlmişdi. O, ömrün sonunda gəlməyə də bilərdi, onsuz da kimsə gətirməliydi. Amma gətirənin olub-olmayacağını düşünənə kimi özü gəlmişdi. Ömür başa çatan anında bilmişdi ki, ELƏ ÖMÜR BU İMİŞ. Məzar evinə indi könüllü gedirdi. Vaxtilə üstündə dünyanı əriş-arğac elədiyi torpağa indi minnətçi düşmüşdü. Bircə addım yer lazım idi ona sonuncu nəfəsini dərməyə. Torpaq onu qəbul edəcəkdimi…

***…

Taksi sürücüsü:

-Axı, siz kimin evini axtarırsınız, bu kəndin başına iki dəfə dolanmışıq…

Öz-özünə:

-Əlli ildə iki dəfə nədir ki… Mən hər gün dolanmalıydım bu kəndin başına, indi başıma dolanardılar. Saxla, saxla, düşürəm.

***

Axtardığı yeri tapmışdı…

-Deyəsən bu evdir… Yox bu deyil… Bu da oxşayır… Çox oxşayır… Elə budur tifağı dağılmış ev. Uçulub-dağılsa da, əlli il əvvəlki görkəmini bir az saxlayan yeganə yurd yeri. Böyür-başındakılar hamısı dəyişib. Amma bu evdə zaman otuz-qırx il əvvəl dayanıb.

***

Xəyalların gücü ondadır ki, adamı birdən-birə əlli il arxaya qaytara bilir.

Onda hər şey təzə başlayırdı. Kənddən yola salanlar çox olduğu kimi, şəhərdə də tanışlar çoxalacaqdı. Sonralar yaddan çıxaracaqdı ki, bu hansısa kənddən gəlib və oradan onu yola salan ananın məzar evi də indi it-bata düşüb. Deyəsən ana məzarı kimi özü də it-bata düşməyə gəlmişdi.

Həyətə açılan balaca qapı salamatdı.

… Uğuruna xeyir, ay oğul! Sağ get, salamat qayıt! Al, evin açarlarından birini da özünlə götür, birdən qayıdanda evdə olmaram, çöldə-bayırda qalarsan. Dünyanın işini nə bilmək olar, birdənləngidin. Açarı neynirəm, ay ana? Onsuz da səhərdən-axşama hamı evdədir. Yox, yox, ay oğul götür açarı (Ayılan kimi oldu. Bəlkə anam bilirdi ki, ləngiyəcəm. Yox… Əlli il ləngiməkmi olar? Amma nə yaxşı ki, onda ananın təkidindən sonra açarı götürmüşdü).

***

…90-cı illərin əvvəli… qırx il əvvəl onu yola salan ananı bircə dəfə də olsun xatırlamayan oğul kürsüdən odlu-alovlu danışır: "Mən düşünürəm ki, may ayında bayramlarımız çoxdur. 1 may bayramı elə bilirəm ki, bizə lazım deyil. Qoy, gənclərimiz milli ruhda böyüsünlər, bu torpağı, vətəni, valideynlərini sevsinlər, qorusunlar". Evdə çox hərarətlə qarşıladılar onu. Həmin gün onu kənddən yola salan ananın ölümündən otuz il keçirdi. Otuz il idi ki, onun anasına torpaq oğulluq edirdi, ananın ruhunu qoruyurdu. Özü ilə anasının şəklini götürmədiyindən surətini artıq unutmuşdu. Qızı sonralar biləcəkdi ki, atası ona niyə SƏN DEYƏSƏN ANA-

MA OXŞAYIRSAN deyir. Deyəsən… Oğul ananın görkəmini xatırlamırdı, necə ki, indi onu heç kim xatırlamır. Üzün dönsün, fələk!

***

YAĞIŞ BAŞINI DÖYƏCLƏYİRDİ. Döyəcləyirdi ki, xatirələrin səmtini dolaşıq salmasın.

…Sonuncu dəfə anası bu qapının ağzında alnından öpüb yola salmışdı (Al, evin açarlarından birini da özünlə götür, birdən qayıdanda evdə olmaram, çöldə-bayırda qalarsan. Dünyanın işini nə bilmək olar, birdən ləngidin).

Ətrafını basan toz-torpaqdan qapı güclə açıldı. Elə bilirdi ki, indicə qapı-pəncərə, həyətdəki sınıq-salxaq skamya, qurumuş arx üstünə yeriyəcək. Elə olmadı. Cansız əşyalar da onu ayağına gətirirdi. Çünki bu cansız əşyalarla onun elə bir fərqi yox idi. O cansız əşyalar bir vaxt nəyəsə yarıyardı. Onun viran qoyduğu ömür heç bir vaxt, heç kimə yarımayıb. Nə çıxdığı uca kürsülərə, nə görkəmini unutduğu anasına, nə də indi imdad dilədiyi torpağa.

Həyətdəki iri kötükdən başqa onu heç kim, heç nə qarşılamırdı.

***

…Həyətdəki tut ağacının altında oynadığı vaxtlar yadına güclə düşdü. Ağaca hamı qayğı göstərirdi. Hər səhər atası ağaca su verir, anası ağacın altına təmiz parça sərirdi ki, dəymiş tutlar yerə tökülüb xarab olmasın. Bəs hanı o ağac… Ağacdamı didərgin düşmüşdü bu həyətdən…

Hər şey viran olmuşdu. Elə deyəsən bu kötü-

yün yerində idi tut ağacı. Yoxsa… Kim kəsdi onu… Bir az qayğılanmaq istədi, amma yeri yox idi… Bəsləyəydin, qoruyaydın, kəsməyəydilər. Başı kəsilən kötüyün kökü hələ torpaqdan çıxarılmadığından yerində möhkəm idi… TORPAĞIN GÜCÜNƏ BİR BAX!!!

***

YAĞIŞ BAŞINI DÖYƏCLƏYİRDİ. Döyəcləyirdi ki, xatirələrin səmtini dolaşıq salmasın.

…Bu illər ərzində bir dəfə də olsun anasına məktub yazmamışdı. Amma anasından bir məktub almışdı. Qonşu uşağına yazdırmışdı məktubu: "Necəsən ay oğul? Allah məni öldürsün, o gün televizorda gördüm səni. Deyəsən Amerikada idin. Ayaqların üşümür ki, ana qurban, toxuduğum corabları neçə dəfə gedib-gələnlərlə göndərmişəm. Şəhərə gedib-gələnlər də sənlə görüşə bilmirlər. Deyirlər ki, səninlə görüşməyə qoymurlar. Kim qoymur? Niyə qoymur…Səni görmək dərdi məni öldürməsə yaxşıdır. Necə olur ay oğul? Hər gün şəhərdən kəndə gələn olur, torpağa baş çəkirlər. TORPAQ TƏKCƏ BAŞ QOYMAQ ÜÇÜN DEYİL AXI, HƏM DƏ BAŞ ÇƏKMƏK ÜÇÜNDÜR. Necə olur ki, dünyanın o başına gedib çıxırsan, kəndə gələ bilmirsən? Bir zaman sənin gəlişinin heç kimə xeyri olmayacaq.

Yadına nə vaxtsa oxuduğu misralar düşdü:
Bala şəhərdədir, anası kənddə,
Görüşə bilmirlər bir məmləkətdə.

***

YAĞIŞ BAŞINI DÖYƏCLƏYİRDİ. Döyəclə-

yirdi ki, xatirələrin səmtini dolaşıq salmasın.

…Nə vaxt, kimdən eşitdiyi, haradan oxuduğu yadında deyil. Bircə o yadındadır ki, itlər ağ və qaradan başqa rəngi seçmirlər. Dünyada olanlar onlara ağ və qara görünür. Ona elə gəldi ki, yaşadığı it ömrüdür, çünki hara baxırsa, qara görünür gözlərinə. İtlər həm də sədaqətli olurlar. O da bir vaxtlar tabeliyində olanlara sədaqət göstərib axı… Bəs onda ağ rəng hanı… İllər ötdükcə göstərdiyi sədaqətin ömrü tükəndiyi kimi, dünyanın ağ rəngi də tükənmişdi. Yox… O, it ömrü yox, indi it günü yaşamışdı. Ağı çəkilmiş ömürdə burula-burula gedən qara buludlardan başqa nə olmalıydı ki…

***

…Dayanmayan öskürək bu yalandan gedib-gələn nəfəsi birdəfəlik kəsmək istəyirdi.

Öz-özünə:

-Torpaq adamı beləcə götürmür. Elə bu kökü torpaqdan can alan kötüyün üstündə can versəm, məni torpağa kim tapşıracaq?

…Bu onun cavabını axtarmaq istədiyi sonuncu sual idi. Sonrasını düşünmək haqqını mələklər əlindən almışdı. Sağ böyrü üstə yıxıldığı kötük torpaqdan iki qarış hündürdə idi…

***

…Gecənin qoynundan üşüyüb çıxan səhəri astadan oxunan azan səsi yuxudan oyatmaq istəyirdi.

Batan gecə ilə çıxan səhəri bir-birindən ayırmaq olmurdu. Göyün üzündəkinin alatoran işıq olduğunu düşünmək insanın ağlına belə gəlmirdi.

Bu, ağ rəngini hədər yerə sərf edən bir ömrün olan-qalanı idi. Günəş zərrin şəfəqlərini lap zirvəyə qaldırsa da belə, bu ömrün qara rəngini pozmaq olmurdu…

…Qədim-qayım qonşuları oturduğu yerdən durmaq imkanı əlindən alınanın kim olduğunu hələ də dəqiq xatırlaya bilmirdilər…

# BUNLARI DA ŞEİR ADINA YAZMIŞAM

# KİM BU GÖZƏLLİYƏ QİYMƏT QOYMASA

DÜNYA SEVGİDƏN DOĞULUB. Bu, danılmaz bir həqiqət, bu həqiqətin əvəzolunmaz təbliğatçısı və tərənnümçüsü, məmləkəin ünlü şairi Musa Ələkbərlinin yeni kitabının adıdır. "Musa Ələkbərli… və onun sevgi fəlsəfəsi" adlı ön sözdə professor, millət vəkili, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Nizami Cəfərov yazır: "Musa Ələkbərli daha çox sevgidən yazırdı… Ancaq bu sevgi "öz içini yiyə-yiyə duran", yaxud "tərki-dünya bir aşiqin subyektiv yaşantıları" deyildi, təbiətin özü qədər təbii, mükəmməl bir kəndli balasının yüz illər ərzində formalaşmış mərdanə istəyi, kişiliyin zərif məxluq qarşısındakı tarixi məsuliyyəti idi".

Bir Allah bilir ki, onun yeni kitabının təşnəsi olanlardan biri, bəlkə də birincisi mənəm. Bu, Musa Ələkbərlinin şair, mənim isə oxucu olaraq haqqımdır. Bir kitab sevgi şeiri, bir kitab SEVGİ. Adam əzəldən dünyanın sevgidən yoğrulduğuna inamlı olub, elə ilk şeirlərindən:

**O hansı gözəldi heyran olduğum,**
**Gözündən, könlündən pünhan olduğum.**
**Qorumur heç zaman qurban olduğum,**
**Qorumur bu gözəl bəladan məni,- deyib.**

Bu gözəl bəladan yaranan 664 səhifəlik bir kitabı birdəfəlik oxuyub həzm eləmək bilirsiniz, nə deməkdir? Birinci səhifəsindən sonuncu səhifəsinə kimi sevgiyə tutuşan kitabı elə oxuyandan son-

ra oxucu da sevgiyə bələnir. Bu kitabı yarımçıq və cəmisi bir dəfə oxumaq olmaz. Gərək başdan-ayağa və dəfələrlə oxuyasan. Hər dəfə də bu şeirləri birinci dəfə oxuyurmuş kimi oxuyacaqsan. Çünki özünün etiraf etdiyi kimi:

**Məhəbbət! Demə ki, qaldım dünəndə,**
**Söz-söz, misra-misra paylanmağım var.**
**Dünyada hər şeydən üzüm dönəndə,**
**Mənim sən tərəfə boylanmağım var.**

Böyük məhəbbətə, yaradan və yaşadan hissə bundan ayrı nə cür səcdə etmək olar. Şair bir müqəddəsi (məhəbbəti) başqa bir müqəddəsin (sözün) hökmü ilə ilahi ucalığa qaldırır. Həqiqət də belədir. Məhəbbətin ən çətin anlarda insana arxa, dayaq olması sayəsində fikirlər Musa Ələkbərlinin şeirlərində qızıla, zərə dönür:

**Mənəm göydən düşən almaya ortaq,**
**Kövrək kəlmələrdi qızılım, zərim.**
**Şerimlə açılar qırxıncı otaq,**
**Xəzinəyə dönər düşüncələrim.**

Digər məhəbbət şairlərindən fərqli olaraq, Musa Ələkbərli təkcə bir fərdin sevgisindən çox, BÖYÜK SEVGİnin gətirdiyi ağrı-acıdan və əzablı vüsaldan yazır:

**Sevincdən, kədərdən doymadı ürək,**
**Hər şeydən, hər sözdən istiləndilər.**
**Baş-başa çatılan iki kösöy tək,**
**Beləcə bir ömür tüstüləndilər.**

Təsadüfi deyil ki, şerlərinin birində şair özü də bunu etiraf edir. Etiraf edir ki, aşıladığı sevgi hisslərini "Bir çiçəyin qulağına əyilib, Mən sözümü

bu dünyaya deyirəm". Hisslərini bu cür ifadə etmək üçün bu dünyanı, onun mütərəqqi bəşərini sevməlisən. Və düşünürsən ki, yurdu, torpağı, insanları sevməyən kəsdə bu qədər məhəbbət hissi ola bilməz. Sən insanları sevirsən, insanlar da sənin sevgi dolu şerlərini.

"Dünya sevgidən doğulub" kitabı Musa Ələkbərlinin otuz beş ildə yazdığı sevgi təranələrinin məcmusudur. Həmyaşıdlarının xatırladığına görə, onun sevgi şerləri hələ tələbə ikən dillər əzbəri olub, xatirə dəftərlərinin yaddaşına hopub:

**Deyin, sarmaşığı kənara əysin,**
**Yenə pəncərəyə qonub ağ əllər.**
**Qoy kimin xətrinə dəyirsə, dəysin,**
**Sizin küçəlidir bütün gözəllər.**

Böyük sevgilərin qəribə gedişləri həmişə olub. Vüsalnan aranda bir addım olanda onun divanəliyi, həsrətin qucağında olanda vüsal istəyi baş qaldırır. M. Ələkbərlinin şair kimi böyüklüyü ondadır ki, bu həyat həqiqətlərini poetik həqiqətlərə ustalıqla çevirir:

**Məhəbbət ən ağır günahım, suçum,**
**Elə istəmişəm közündə bişəm.**
**Həmişə başımın üstündən uçub,**
**Həmişə mən onu perikdirmişəm.**

Belə olanda da Yaradanın ən böyük kəşfinə onun digər yaratdıqları kömək edir. Sevda yollarının uzanması şairin haqlı düşüncəsinə görə, hələ də mövcudluğa işarədir. Hərəkət varlığın əlamətidir. Uzanan yollar, daralan səbrlər, əzablı üzüntülər hələ də eşqli günlərin olacağını bildirir:

**Həsrətlə vüsalın barışığıyla,**
**Yollar uzanırsa, hələ varıq biz.**
**Günəş şəfəqiylə, ay işığıyla,**
**Bir də küləklərlə qovuşarıq biz.**

Və bundan sonra həqiqət aşkarlanır. Yollar hələ də uzanmağındadır. Artıq bu yolla əzablı sevginin vüsalına qovuşanlar əl-ələ verir:

**Beləcə yol gedək ikilikdə biz,**
**Ömrün dolayında verək əl-ələ.**
**Bəlkə bizim kimi oxşartaleli,**
**Xoşbəxtlər dünyaya gəlməyib hələ.**

Uğursuz mahnı mətnlərinin gündəmdən düşmədiyi bir dönəmdə gözəl nəğmələrin qəfil səslənməsi adamda nostalji hisslər oyadır. İndi qələmpərdazlar, özlərinin təbirincə desək, hazır "balvanka"lara hecaları pərçim edib, adını mahnı mətni qoyurlar. Və nəyə görəsə, bəzən də peşəkar bəstəkarlarımız belə mətnlərə musiqi bəstələməyi özlərinə rəva bilirlər. Nədənsə musiqiyə uyarlanacaq şeirin özündə həzinlik, bir ritm olduğu yaddan çıxarılır.

Sevgi nəğmələri ilə dolu olan bir kitabdan danışırıq. Çox heyf ki, arasında rəsmi nəğmə statusu alanlar çox azdır. İllərdir ki, musiqimizin qızıl fondundan düşməyən

**Çox öyünmə qəlbə dəyib,**
**Məni sən yox, bəxtim əyib.**
**Hansı bülbül nəğmə deyib,**
**Qızılgülün solan vaxtı**, - mahnısı da Musa Ələkbərlinin yaşantısıdır. Şairin sevgi şerlərində elə ən çox üz tutduğu, müraciət etdiyi obyektlər sa-

ralan, solan çiçəklərdir.

**Kimdi duyan indi, düzü, doğrunu,**
**Mənə qıy sən kədərini, ağrını.**
**İndən belə qaraltma heç bağrını**
**Qaradan ki, artıq olmur rəng, lalə!**

Və elə bu çiçəklər tərəfindən də yaralanır, Qorunmuşdum tikanlardan, Yaraladı çiçək məni,- deyir. Amma onları da nigaran qoymur. Ömrün ça-lın-çarpaz yollarında öz çiçək payını dərdiyi üçün "çiçəklərə nigaran qalmayın" deyir:

**Buludda gizlənən ayımı tapdım,**
**Aradım, axtardım tayımı tapdım.**
**Zəriflik, incəlik payımı tapdım,**
**Çiçəklər, siz məndən arxayın olun.**

Bir az əvvəldə dediyim kimi, M. Ələkbərli bu torpağın ağacını, çiçəyini, otunu, daşını da öz böyük sevgisi ilə sevir. Bəzən bu "cansız" canlılar insanlardan daha sıcaq təmas qura bilirlər:

**Ay adamlar, üççə kəlmə sözüm var,**
**Bu baharın qulağına deməli.**
**Ağacına, çiçəyinə, otuna,**
**Yarpızına, bulağına deməli.**

Musa Ələkbərinin nəzərində şerin bir anlamı da elə SEVGİ, MƏHƏBBƏTdir. Şair haqlı olaraq ürək çırpıntıları olan şeirə bundan gözəl sinonim axtarmır:

**Yaşın tufanında, ömrün qarında,**
**Ay Musa, həddi var təlaşların da.**
**Axdımı Məcnunun göz yaşlarında,**
**O sevgi, məhəbbət adlanan şeir.**

Şair həyatda qarşılaşdığı sualların çoxuna bu

kitabda cavab verib. Ömrünü sevgiyə bələnmiş Musa Ələkbərlinin özündə və sözündə yaş həddi sezilmir. Altmış yaşında da on yeddi yaşlı ürəyinin odu-alovu tükənmir:

**And-aman eyləyib, haray qopardın,**
**Belə and olarmı, qəsəm olarmı?**
**Bu uşağın sənə bir sözü vardı,**
**Otuz ildən sonra desəm olarmı?!**

Şairin yaşantıları, məramı, son anda gəldiyi qənaət də ibratəmizdir. Əvvəlində qeyd etdiyimiz kimi, Musa Ələkbərlinin bütün yaradıcılığı, o cümlədən sevgi şerləri, böyük bir məhəbbətin tərkib hissəsidir. Şairin nəzərində bütün sevgili, eşqli günlər son anda torpaqla nəfəs-nəfəsə dayanmağa hazırlıq prosesidir. Bundan ali məram, insan oğlunun bundan böyük sevgili istəyi ola bilərmi:

**Həsrətin, hicranın evini yıxıb,**
**Bu qaragünlünü siz bükün ağa.**
**Ölümü vüsal tək köksümə sıxıb,**
**Bir sevgi aparım ana torpağa.**

Həmişə belədir, qaibanə gəlişlərin hamısı müqəddəsdir. Sevgi də insan ürəyinə beləcə səssiz-səmirsiz, bir kimsənin izni olmadan daxil olur. Yoxsa o da əvvəlcədən planlaşdırılmış olsaydı, bu qədər şirin əzabı, dadından doyulmayan ağrı-acını insana verə bilərdimi… Sınanılmış həqiqətdir ki, qəlbin ən zərif və ən mürəkkəb hissi məhz sevgi hissidir. Elə buna görə də şairin İlahidən bircə istəyi var ki, bu hissi son anda da ürəyində ölməyə qoymasın:

**Ağlayan bir qəlbi güldür, İlahi,**
**Hökmünü Musaya bildir, İlahi.**

**Öldürsən, sən məni öldür, İlahi,**
**Qoyma ürəyimdə ölə bu hissi.**

Böyük sevgilərdə əbədiyyətə, ünvanı bilinməyən sonsuzluğa bir gediş olur həmişə. Bu gediş sevgi şairinin qələmində əbədiyyətdə qərar tutmaq məqamıdır. Musa Ələkbərli "Ver əlini, çıxıb gedək dünyadan, İllər boyu gözlədiyim an gəlib", -deyəndə də o gedişə işarə edir. Və gəlimli-gedimli dünyada şair, ürəyi sevgi ilə döyünən bir aşiq öz yerinin harada olduğunu hamıdan yaxşı bilir:

**Qarşıma min çəpər, min hədd qoymasa,**
**Canımı verərdim minnət qoymasa.**
**Kim bu gözəlliyə qiymət qoymasa,**
**Gözünə görümsüz pərdə gələcək.**

İnanmıram ki, kimsə bu boyda gözəlliyi-həm məhəbbəti, həm də onu tərənnüm edən şairi görməsin.

**İstəyin odur ki, dinməyə, susa,**
**Bu xəbər çatmaya elə-ulusa.**
**Elə arxayınsan, elə bil Musa,**
**Sən olan dünyaya bir də gələcək.**

Heç kim arxayın olmasın, yeni bir Musa Ələkbərlinin bir də gələcəyinə. Ən azından o bir daha bu dünyadan, bu dünyadakı oxucularının yaddaşından getməyəcək. Getməyənlərin gəlməsi nə cür ola bilər ki… Tanrının belə seçilmiş bəndələri getmək üçün yox, əbədi yaddaşlarda qalmaq üçün gəlirlər.

"Dünya sevgidən doğulub" kitabını oxuyanlar bunu hökmən görəcək. Görəcək və biləcək: BİR DƏ Kİ, "ŞAİRƏM" DEYƏNƏ QƏLBƏN, MƏHƏBBƏT ÖMÜRLÜK EHTİYAC OLUB.

# GƏNCLİK TƏBİƏTİN ZARAFATIYMIŞ

Poeziyanı duyduğum, sevdiyim və ara-sıra nəsə yazmağa başladığım vaxtdan otuz il keçir. Bu zaman kəsiyində mənim sevdiklərim arasında birmənalı olaraq ən yüksək zirvədə olanı Məmməd İsmayıl olub. Məni tanıyanların hamısı bilib bunu, təkcə Məmməd İsmayıldan başqa.  Amma dilimdən şeirləri düşməyən bir şair haqqında ilk dəfədir yazı yazıram.

Nədənsə mətbuatda bir oxucu sevgisinin reklamına ehtiyac duymamışam. Düşüncəmə görə ilahi rəğbətin, ilahi sevginin bir özəlliyi də onun pünhan qalmağındadır. Otuz ildə cəmisi iki dəfə onunla üzbəsurət olmuşam, o da 2009-cu ildə, "525-ci qəzet"də mənim "Eşq ol, dərgahına səcdəyə gəlim" kitabım haqqında "Növbədənkənar yazı"-sı çap olunandan sonra. Minnətdarlığımı bildirmək istədim. Mən onu tanımadan sevdiyim kimi, o da məni şəxsən tanımadan kitabım haqqında ürək sözlərini yazdı.

Bu yazını yazanda Məmməd İsmayılın hər hansı kitabını açıb vərəqləmədim, yaddaşımda olanlara istinad etdim. (Ona görə də bəzi misralarda hər hansı söz və ya şəkilçi dəyişikliyi olsa, üzürlü sayın). Əslinə qalsa, sevimli şairin Aktyor evində keçirilən 70 illik yubiley tədbirində  çıxış etmək arzusundaydım. O tədbirdə heç kimin çıxışına ağız büzməsəm də, hərçənd deyə biləcəklərimin daha

fərqli olacağının fərqində idim. Bu dəfə də istəməyərəkdən düşüncələrimi pünhan saxladım. Çünki məni tanıyanlar Məmməd İsmayıl poeziyasını bir səcdəgah kimi qəbul etdiyimi yaxşı bilirlər (Onu belə sevən tək mən deyiləm ki…). Amma bir çoxlarından fərqli olaraq, mən sevgimi, rəğbətimi ürəyimdə böyütməyi də bacarıram. Nə isə. Bunların mətləbə bəlkə də az dəxli var. Çünki o tədbirdə başqa bir sevgili dostumuz Musa Ələkbərlinin Məmməd İsmayıla yazdığı şeirin misraları hələ qulaqlarımdadır:

**Gəl, gün işığı tək aləmə yayıl,**
**Ərzin hər yerində seçilib-sayıl.**
**İtməz yaddaşlardan Məmməd İsmayıl,**
**Fərqi yox, görünmə, görün, a Məmməd.**

Məmməd İsmiayıl o şairlərdəndir ki, onun oxucusu olmaq da məsuliyyət tələb edir. Bu poeziyanın yanından ötəri bir nəzərlə və yaxud sükutla keçmək, sadəcə olaraq, sayğısızlıqdır. Ən azından zövqlü oxucusansa, şeirlər özü səni dayanmağa və düşünməyə məcbur edəcək:

**Dünyaya gəlişin bircə an ola,**
**Gələsən, barını dərib gedəsən.**
**Taledən əlində bir imkan ola,**
**Kefin istəyəndə gəlib-gedəsən.**
**Yaşamaq olurmuş bunun harası,**
**Elə qərib gəlib, qərib gedəsən.**
**Tanrım, o dünyaya bir özgə yol yox,**
**Elə hökmən gərək ölüb gedəsən...**

Məmməd İsmayılın Azərbaycanın mədəniyyət tarixində əvəzsiz xidmətləri çoxdur. Təkcə

"Gənclik" jurnalı mətbuatımıza demokratik düşüncə tərzini gətirməklə Məmməd İsmayıla bu xalqın yaddaşında əbədi qalmağa haqq qazandırıb. Təkcə "Aman təklik əlindən" poemasına görə Məmməd İsmayılı şair kimi bir ömür sevmək olar. Təkcə ANALAR QININDAN SIYIRIB BİZİ, QOYMUŞDU NƏFSİNNƏN ÖZ ARASINDA misralarına görə Məmməd İsmayıl-mən bu xalqın qarşısında bacardığımı etmişəm,-deyə bilər. Bu "təkcə"lərin sayını o qədər artırmaq olar ki… Amma Məmməd İsmayıl bunu demədi. Yetmiş yaşında da başından ilahi duyğular əskik olmadı:

**Gedərsən, məchula yol gedər gedən,**
**Qürbət bir açılmış sirdən başlayır.**
**Burnunun ucunu göynədən vətən,**
**Yadından çıxdığı yerdən başlayır.**

Və yaxud:

**Şirinliyi hardan alır,**
**Bal nə bilsin...**
**Sora bilsən,**
**Gedib soruş, arı bilər.**
**Gecə harda yatdığını**
**Sən bilirsən,**
**Səhər harda oyanacan,Tanrı bilər.**

Məmməd İsmayılın bir çox şeirləri xalqın dilində az qala aforizm kimi səslənməkdədir.

**... Bu gün Bethoveni çaldılar sazda,**
**Hələ yaşamağa dəyər bir az da...**

**...Bir adam yol gedir bizdən qabaqda,**
**Yaxşı ki, dünyaya cığır açan var...**

**...Bir yetim haray var, gəzir dünyanı,**
**Görəsən hardadı anası ölmüş...**

**...Qırdım öz əhdimi mən bilə-bilə,**
**Haqqın var, yanımdan keç gülə-gülə.**
**Əriyim oduna qoy gilə-gilə,**
**Mən səni sevmişəm səndən xəbərsiz...**

Bir ara Məmməd İsmayılın az çap olunduğu vaxtlar da oldu. Bəlkə də BAŞINI GÖTÜRÜB GETDİyi vaxtlar idi. Amma mən onu hər gün oxuduğumdan az çap olunduğunun fərqində olmamışam. Elə bilmişəm ki, Məmməd İsmayıl hər gün çap olunur və mən də hər gün oxuyuram:

**Şəfəqlər önündə bulud qatıymış,**
**Səhər yox, günəşin bathabatıymış.**
**Gənclik təbiətin zarafatıymış,**
**İlahi, bu boyda zarafat olur...**

Hardasa iyirmi il əvvəl yazdığı şeirlərdəndir. Ömrün "zarafat" adlandırdığı kəsiyində Məmməd İsmayıl bir ömür seviləcək qədər oxucu sevgisi qazandı. Özü də təkcə canından artıq istədiyi türk dünyasında deyil, mütərəqqi bəşərin cəm olduğu çox yerdə. Kim nə deyir, desin. Onun ömrünün müdriklik çağını belə gümrah, eşqlə yaşamasının əsl səbəblərindən biri məhz qazandığı SEVGidir. Təki şairin bundan sonrakı yaşantıları da beləcə "zarafat" içində keçsin.

O, bir çox yaradıcı gənclərə hərtərəfli güvənc yeri olub. Beyləqanda yaşayan, son vaxtlar mətbuatda tez-tez çap olunan gənc şair Elməddinin

Məmməd İsmayılla məktublaşmasına vasitəçi oldum. Özünün etirafına görə Məmməd İsmayıldan cavab məktubu alanda, ifadə eyləyə bilməyəcəyi bir ovqatda idi. Üstəlik də onun şeirlərini bəyənmişdi. Məmməd İsmayılın 70 illik yubiley tədbirinin başlanmasını ana balasını gözləyən bir sevgi ilə, həyəcanla gözlədi. Çünki onun Məmməd İsmayılla şəxsən tanış olması üçün imkan yaranmışdı. Budur şairə olan əsl oxucu sevgisi. İndiyə kimi aldığı saysız-hesabsız ödüllərin başında duran mükafatdır bu SEVGİ. Elməddinin Məmməd İsmayıla həsr etdiyi şeiri də çox ibratəmizdir:

**Buluddan ayrılıb qopanda damla,**
**Yağışı səsindən tanımıramsa.**
**Ağzını açanda paxıl adamlar,**
**Bircə kəlməsindən tanımıramsa,**
**"Mən şair deyiləm, atam-qardaşım!"**

Canındakı ilahi eşqi, başının üstündəki Allah sevgisini yetmiş yaşına kimi qoruyub saxlayan Məmməd İsmayılın öz sözləri ilə desək, əvvəlin sonu olduğu kimi, sonun da əvvəli var. Bu, daha müqşəddəs, haramından halalına maya yetişməyən bir başlanğıcdır:

**Haramdan halala yetişməz maya,**
**Mən bu ümiddəyəm, bu inamdayam.**
**Qəm yemə, kainat dönsə damlaya,**
**Axırda damla da kainat olur.**

… Zamanından, yerindən asılı olmayaraq harda XX-XXI əsr Azərbaycan ədəbiyyatından söhbət düşəcəksə, orda Məmməd İsmayılın adı qırmızı xətlə keçəcək.

# YANMIŞ İKİ ÇUVAL

## və yaxud

## Məhəmməd Bağban kimdir?

Bu günlərdə "Şur" nəşriyyatında işıq üzü görmüş kitab belə adlanır. Adından göründüyü kimi, kitabın hər sətri yaddaşlardan toplanıb. On doqquzuncu əsrin ikinci yarısında Cəbrayıl qəzasının Şərikan kəndində (indiki Zəngilan rayonu) yaşayıb-yaradan aşıq Məhəmməd Bağbanın həyat və yaradıcığından bəhs edən bu toplu bir el sənətkarını yaddan çıxmağa qoymayıb.

Əvvəlcə məlumat üçün bildirək ki, kitabın müəllifi Cəmil Tağıyev 1931-ci ildə Zəngilan rayonunun Aşağı Gəyəli kəndində anadan olub. Orta təhsilini rayon mərkəzindəki 1 saylı məktəbdə tamamlayıb.

1948-50-ci illərdə Naxçıvan Dövlət Müəllimlər İnstitutunu, sonra Azərbaycan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsini (qiyabi) bitirib.

Müəllimlik fəaliyyətinə rayonun Şayıflı kənd məktəbində başlayıb. 58 illik pedaqoji fəaliyyətinin xeyli hissəsini direktor müavini və direktor vəzifəsində çalışıb.

1993-cü ildə Zəngilan erməni-rus silahlı birləşmələri tərəfindən işğal edildikdən sonra Bakı

şəhərinin Nəsimi rayonunda məskunlaşıb. Bu rayondakı 46 saylı orta ümumtəhsil məktəbinin rus bölmələrində Azərbaycan dili müəllimi işləyir.

"Təlimi rus dilində olan orta ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi məsələləri" adlı dərs vəsaitinin müəllifidir. "Yaddaşlardan yığılan kitab" C. Tağıyevin oxucularla ikinci görüşüdür.

Kitabın redaktoru Həsən bəy Zərdabi adına mükafat laureatı Salam Cavadlı "Ön söz"də yazır: "Yaşının ixtiyar çağında Cəmil Tağıyevin el təəssübkeşliyi, nəciblik göstərərək ciddi axtarışlar aparması məni də hədsiz sevindirdi. Seçiminə görə ona təşəkkür etdim və belə bir nəşrə ürəkdən kömək göstərməyin hər bir zəngilanlının borcu, şərəf işi olduğunu bildirdim.

Cəmil müəllimin əsasən həmkəndliləri, yaxınları olan yaşlı adamların söyləmələri əsnasında Bağban yaradıcılığından topladığı nümunələrə nəzər yetirdikdə, nədənsə gözüm önünə rayonumuzun Məmmədbəyli kəndində künbəzi uçulub dağılmış qədim məqbarə, Vejnəli kəndində hörgüsünün bir hissəsi yerlə yeksan olmuş qız qalası gəldi".

Kitabın müəllifi Cəmil Tağıyev "Yanmış iki çuval və yaxud Miəhəmməd Bağban" adlı araşdırmasında yazır: "Anam Tamam Ağalar qızı, xüsusən el şairi kimi o dövrdə böyük şöhrət qazanan Məhəmməd Bağbanının qardaşı qızı Nubar xalanın dediyinə görə, 1918-ci ildə kəndlərə hücum çəkib viran qoyan erməni daşnakları hər

şeyi talan edib aparmış, o cümlədən Məhəmməd Bağbanının iki çuval (əldə toxunan iki kisə) əl yazması olan şeirlərini də yandırıb məhv etmişlər. Məhz buna görə də onun heç bir şeiri yazılı şəkildə bizə gəlib çatmamışdır. Yalnız hafizə və yaddaşlarda yaşayan qoşma, təcnis, gəraylılar və satirik şerlərinin bir qismi nəsildən-nəslə ötürülə-ötürülə bu günümüzə gəlib çatmışdır.

Məlumdur ki, XIX əsrin ikinci yarısında Azərbaycan şeirinin qüvvətli qollarından biri də aşıq şeiri idi. Azadlıq hərəkatının genişlənməsi ilə əlaqədar olaraq aşıq şeirində müasir mövzular getdikcə qüvvətlənirdi. Aşıqlar nəsihətamiz və aşiqanə şeirlərdən başqa dövrün ictimai eyib və bəlaları əleyhinə də şeirlər qoşardılar.

Bu dövrdə mübariz xalq aşıqları yetişmişdir ki, onlardan biri də 1834-cü ildə Cəbrayıl qəzasının Şərikan kəndində (indiki Zəngilan rayonu) yoxsul kəndli ailəsində anadan olmuş, 1914-cü ildə vəfat etmiş Məhəmməd Bağban idi. Məzarı Şərikan kənd qəbiristanlığındadır.

Məhəmməd Bağban el arasında o dövrün görkəmli el şairi kimi tanınmışdır. (Bax, "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" II cild səh. 176). Savadsız olduğu üçün qoşduğu şeirlər Şərikan kənd mollaları - molla Həmid və molla Mustafa tərəfindən yazıya alınmışdır. Yuxarıda qeyd edildiyi kimi, onun şeirləri ermənilərin kəndlərimizə məlum hücum və talanları zamanı məhv edilmiş, bizə yazılı surətdə gəlib çatmamışdır.

Qardaşı qızı Nubar xalanın dediyinə görə, o,

kasıb bir ailədə doğulmuş, balaca yaşlarında kənd camaatının xırda heyvanlarını (buzov və quzuları) otarmış, gənc yaşlarda isə çobanlıq etmişdir.

Məhəmməd qonşu Burcalılar kəndində çoban olarkən ona yuxuda vergi-buta verilib. Nubar xala baş vermiş hadisəni bu cür nağıl edirdi: - Payızın ilk günləri imiş. O, yuxuda görür ki, hava bərk soyuyub, az-az qar yağır. Qəflətən yuxudan qalxır və görür ki, doğrudan da seyrək qar yağır. Havanın işıqlandığını görən çoban sürünü örüşə buraxır. Sürü otlaqdan bir qədər aralananda o, heç vaxt sürünün arxasınca getməz, yalnız tütək çalmaqla sürünü geri qaytararmış. Bu dəfə də sürü örüşdən uzaqlaşdıqda tütək çalarkən sürü geri qayıdır, yalnız bir saqqar kərə şişək geri dönmür. Bundan əsəbləşən Məhəmməd yapıncını yerə atıb, şişəyin arxasınca gedir. Bu vaxt şişəyin dırnaqlarının yerində bir rəngli muncuq görür və onu götürüb cibinə qoyur. Bu an şişək geri qayıdır. Elə o andan da Məhəmməd bədahətən şeir deməyə başlayır. Bu xəbəri eşidən ata-ana narahat olur ki, belə vergi verilən adamların sevgisi uzaqlara düşür. Tez bir zamanda onu yanlarına - Şərikan kəndinə gətirirlər.

Xoşbəxtlikdən sevgisi yaxınlıqda olan Xırdaqışlaq kəndində Nabat adlı bir qız olur. Bundan sonra Məhəmməd el arasında şair-aşıq kimi tanınmışdır.

Kasıb olduğu üçün özü kimi savadsız kasıb uşaqlarının acı taleyindən şikayətlənərək:

**Şıx Məhəmməd eylər könlünü abad,**

**Yetim qalırsa da Məhərrəm, Cavad.**
**Kağızsız, qələmsiz, özü bisavad,**
**Dünyanın dərdini yazan necə oldu?**

Bağbanın qoşmalarında sevginin tərənnümü, gözəllərin tərifi diqqəti cəlb edir. Həmin qoşmalarında o, Şıx Məhəmməd və Şıxıyev Bağban kimi tanınmışdır. şerlərinin birində oxuyuruq: "Dolayıb qələmə Şıxıyev Bağban". Bununla belə şair el arasında təxəllüsü ilə - Bağban çağırılmışdır. Onun şerlərinin də qısaca Bağban təxəllüsü ilə yazılmasına dair dəqiq misallar çoxdur.

C. Tağıyev daha sonra yazır ki, Şıx Məhəmməd Bağban heç bir təhsil görməmişdir. Buna baxmayaraq qoşma, gözəlləmə və gəraylılarında şeirin bütün qayda-qanunları gözlənilmişdir. Şeirləri ifadə tərzi, bədii vüsəti, oynaqlığı ilə qəlbləri oxşayır. Bağban "Bənövşə" adlı qoşmasında gözələ müraciətlə deyir:

**Ağ geyinsin, ağ əbanı bürünsün,**
**Şamaxı ört, ucu yernən sürünsün,**
**Yaxan düyməlidir, qoymur görünsün,**
**Ay qız, qoynundakı nardı, almadı?**

Onun "Tellərin", "Sədəf", "Dağlar", "Tərlanım" və başqa lirik şerləri də beləcə incə ruhda, oynaq tərzdə yazılmışdır. Bağbanın yaradıcılığında mövzular da çox müxtəlifdir. O, insan və təbiət gözəllikləri ilə bərabər, müxtəlif heyvan, quş, əşyaları tərif və təsvir etmişdir. Onun "Tərlanım" adlı qoşması bu cəhətdən səciyyəvidir.

**Ay ağalar, gəlin tərif eyləyim,**
**Əzəl ağ görünür döşü tərlanın.**

**Sərf eyləmir bəhlə üstə ət yemək,**
**Dağılır hər yana huşu tərlanın.**

Əsasən nikbin, oynaq şeirləri ilə tanınan Şıx Məhəmməd Bağbanın bədbin əhval-ruhiyyəli şeirləri də vardır. "Ağlasın", "Gəlsin" adlı şeirlərindən görünür ki, şair bunları ömrünün axırlarında, xəstə yatağında yazmışdır:

**Can gedir, gəlsin canan,**
**Günüm indi olub yaman,**
**Dərdlidir ağbirçək anam,**
**Ürəyi yanan ağlasın.**

və yaxud

**Şirin cana gəldi qada,**
**Cavan ömrüm gedir bada,**
**Qonağam fani dünyada,**
**Məni yola salan gəlsin.**

İnanırıq ki, "Şur" nəşriyyatının dlirketoru, gözəl şairimiz Musa Ələkbərlinin da nəfis tərtibatla işıq üzü görmüş "Yaddaşlardan yığılan kitab" tədqiqatçıların diqqətindən yayınmayacaq.

# BU YAŞIL AĞACIN ALTI BİZİMDİR

Bu kitabı oxumamış da düşüncələrimi bölüşə bilərdim. Ən azından kitabda toplanan şerlərinin hamısını müxtəlif vaxtlarda oxumuşdum. Amma küll halında bir də oxudum, bir də sözün qüdrətindən yarananlara heyran oldum. Oxuyanlar fikrimə şərik olarlar. Xalq şairi Zəlimxan Yaqubun "Qayıdaq əvvəlki xatirələrə" kitabından danışıram.

Kitab "Gənclik" nəşriyyatının "Azərbaycan lirikası kitabxanası" seriyasından nəfis şəkildə çap olunub (Bildiyim qədər bu seriyadan cəmisi bir neçə böyük sənətkarın kitabı işıq üzü görüb). Seriyasından bəlli olduğu kimi lirik şerləri toplanan kitaba şair layiqli bir ad seçib və Mustafa Çəmənli də xatirələrlə dolu bir ön söz yazıb.

Əslində lirik duyğulara köklənmək, ötən yaşantılara xəyali yoldaş olmaq üçün ən yaxşı yol əvvəlki xatirələrə qayıtmaqdan keçir. Bu baxımdan sevimli şairimiz növbəti kitabı ilə xatirəyə dönmüş illərə qayıda və bizləri də o havaya kökləyə bildi. Və bununçün şair haqlı olaraq ömrünün çalın-çarpaz yollarında çəkdiyi ağrıları ifadə olunan şerlə başladı kitabını:

**Talan olmuş bostanın uraları məndədir,**
**Dağ-dağ olmuş dağların sıraları məndədir.**
**Tarixin sağalmayan yaraları məndədir,**
**Mən bir ömrün içində beş ömrü yaşamışam.**

ƏKİNÇİ TALEYİ, XIŞ ÖMRÜ yaşayan və bundan qürur duyan şair sonunda nail olduqlarının

o zəhmətdən pərvəriş tapdığını bildirir. Elə buna görədir ki, hamar olmayan yollarda çəkilən əziyyət sonradan yaşam tərzinə halallıq gətirir:

**Bu süfrəyə uzanan əllərimdə ləkə yox,**
**Bu süfrənin üstündə haram adlı tikə yox.**
**Burda yavan çörək var, burda yağlı tikə yox,**
**Bu süfrə duasını özün oxu, ilahi!**

Bir şey də həqiqətdir ki, xatirələr təkcə şirin-şəkər anları yaşatmır. Bu xatirələrdə ürək parçalayan itkilər, alına qırış, saça dən gətirən sarsıntılar da var. Gözəldi kədər də yeri gələndə-anlamına söykənsək, belə xatirələr daha çox anılır. Haqq dünyasına qovuşan əzizlərimizi necə xatırlamayaq. Bəlkə də xatirələrin gücü ondadır ki, həqiqi yaşanmış nə varsa, onu qoruya bilir:

**Öldürür ananı, alır atanı,**
**Qurtarmaq istəmir çayda batanı.**
**Taxtın çevriləni, baxtın yatanı,**
**Vaxtın sərt üzü var xatirələrdə.**

Bir həqiqət də var. Ötənlər saxtanı, yalanı sevmir. Qalan nə varsa, deməli canında yaşarı toxumlar olanlardır. Hansı tarix iftiranı, böhtanı, şəri əbədi yaşada bilib. Heç birini. Ona görə də acılı-şirinli (amma həqiqət olanda) qalan nə varsa, yaşanmış ömür odur. Xatirəyə dönə bilən ancaq onlardır. Yaşanmamış ömrün xatirəyə dönməsi mümkünsüzdür. Z. Yaqub bunu hamıdan yaxşı ifadə edə bilir. Və bu həqiqət elə Zəlimxan Yaqubun həqiqətidir:

**Zikr edir, namazı qılan danışmır,**
**Dərin xəyallara dalan danışmır.**

**Keçmiş insanlara yalan danışmır,**
**Hər şeyin düzü var xatirələrdə.**

Zəlimxan Yaqubun "Qayıdaq əvvəlki xatirələrə" kitabında onun dillər əzbəri olan şerləri toplanıb. Kitab lirik seriyadan buraxılsa da, özünün bir vaxtlar dediyi kimi, bu şerlərdə lirika ilə yanaşı reallıq da var. Reallıqların lirik ifadəsi daha gözəl deyilmi. İkisi bir yerdə daha bütövdür. Biz niyə sevməyək bir-birimizi-deyən şair təkcə lirik duyğulardan danışmır ( Bu yerdə Z. Yaqubun mənə danışdığı bir məqamı xatırlamaya bilmirəm. O, deyirdi ki, Hacımurad adlı bir dayım vardı, Allah rəhmət eləsin. Çox nurani, şair təbiətli bir insan idi. Bir dəfə o, mənə dedi ki, səni acılayana, qaranca danışana, yaman deyənə heç vaxt tez reaksiya vermə. Belə anda emosiyaya qapılmamaq, sənə nifrət hissi ilə baxan adama hörmətlə yanaşmaq ən təsiredici vasitədir. O, qarşıdakına daha çox təsir edir, nəinki dediyindən bir az da artıq qaytarasan. Onda hər iki tərəfin səviyyəsi bərabərləşir. Hər iki tərəf belə anda bərabərləşəndə səbr kasası daşır, onda insan emosiyanı yox, emosiyalar insanı idarə etməyə başlayar. Və mən də o gündən Hacımurad Güləhmədovun dediklərini yaşam idealına çevirdim). İndi məmləkətimizin dörd tərəfdən soyuq nəzərlərlə əhatə olunduğu bir vaxtda bizə bir-birimizə qarşı sevgidən vacib nə lazımdır ki…

**Çəmənlər torpağa -xalı çəkirsə,**
**Xalıda yaşılı, alı çəkirsə.**
**Arı çiçəklərdən balı çəkirsə,**
**Biz niyə sevməyək bir-birimizi.**

Bu düşüncələrin ürəkdən gəldiyinə necə inanmayasan? Zəlimxan Yaqubun sazın, sözün qoynunda yaşa dolması, hər şeyə qəlbinin hökmü ilə yanaşması imkan verməz ki, saxta düşüncələr onu çulğasın. Hər şey öz ilkinliyini qoruyanda gözəldir. Kitabda toplanan şerlərində bunu görməmək olmur:

**Üzdən ağladığım yadıma gəlmir,**
**Ağlasam, göz yaşım ürəkdən gəlib.**
**Sevgim də, sözüm də, məhəbbətim də,**
**Nə varsa beşikdən, bələkdən gəlib.**

Elə buna görədir ki, yazdıqları da ilahidən qulağına pıçıltı ilə gələnlərdir. Söz Zəlimxanı hansı zirvəyə çatdıra bilibsə, Zəlimxan da sözü o zirvədə yaşada bilir:

**Yerin qulağına çatan sözlərim,**
**Göyün üzündəki mələkdən gəlib.**

Hələ çap olunmamışdan öz dilindən eşitdiyim,sonralar çoxlarının dilinin əzbəri olan "Bu yaşıl ağacın altı bizimdi" şerini oxuyanda hələ indən sonra çoxunun BU YAŞIL AĞACIN ALTI BİZİMDİ deyəcəyinə inanırsan:

**Atəş Allahındı, isti Allahın,**
**Ocaq Allahındı, tüstü Allahın.**
**Bu yaşıl ağacın üstü Allahın,**
**Bu yaşıl ağacın altı bizimdir.**

Dünyanın işdəklərini qələm adamlarından çox kim saf-çürük edir ki… Adına yaxşı deyilməyən nə varsa, onlara ilk etrazı da yazarlar qaldırır. Bu prizmadan yanaşanda Zəlimxan Yaqubun dünya ilə üz-üzə dayanması o qədər olub ki:

**Polad sındı, dəmir yandı mum oldu,**
**Sal qayalar toza döndü, qum oldu.**
**Sarayların yeri qara şum oldu,**
**Dünya, dərdin çəkiləsi dərd deyil.**

Zaman-zaman dilimizin, mədəni tariximizin unutdurulması, yaddan çıxarılması məqsədli xarakter daşıyıb. Bu baxımdan yaradıcı adamın missiyası daha böyükdür. Nə yaxşı ki, həyatı və fəaliyyəti canlı ensiklopediya olan Zəlimxan Yaqub kimi TƏKlər az da olsa var. Onun yaratdıqları və yaşatdıqları dilimizin zənginliyini qorumaq baxımından böyük institutların görə biləcəyindən artıqdır. Bu həqiqəti çoxları, elə onu sevməyənlər də etiraf edə bilər. Belələrini öz böyük missiyasından yayındırmaq, yardımçı meydanlara çağırmaq uduzmaq qədər ağırdı. Bəlkə də dünyanın mizanı onu durultmağa çalışanların sayəsində hələ tam pozulmayıb. Şerlərindən birində şair bunu daha gözəl ifadə edir:

**Dənizlərin dənciyinə dən atdım,**
**Nə qan saldım, nə bir könül qanatdım.**
**Mən dünyanı durultmağa can atdım,**
**Dünya məni bulandıra bilmədi.**

Hər birimizin əvvəlki xatirələrə qayıtmaq ehtiyacı var. Sadəcə ona qayıtmağın yolları fərqlidir. Zəlimxan Yaqubun bu kitabını oxumaqla hərə öz xatirələrini çözələyir. Deməli kitabdakı şerlərin müxtəlif məqamlarında hər kəs özünü görə bilir və şair mən sənin qəlbinə necə yol tapım-desə də, bizim qəlbimizə yol tapıb. Dili rəvan, zəngin, fikirləri saf, düşüncələri bütöv şairin "Qayıdaq əvvəlki xati-

rələrə" kitabını oxumaq haqqımdan lazımınca bəhrələndiyimdən bu kiçik qeydləri yazmağa da ehtiyac duydum. Çünki o xatirələrə qayıtmaq məqamıydı:

**Eşqin saralmayan cöhrəsi sən ol,**
**Toxumu mən olum, pöhrəsi sən ol.**
**Aşıq bir həftəlik dastan başlasa,**
**Tahiri mən olum, Zöhrəsi sən ol!**
**Şehli çəmənlərdən gül dərə-dərə,**
**Qayıdaq əvvəlki xatirələrə.**

Hələ mən kitabdakı DƏRDİMİZİN BAYATI DÜZÜMÜndən danışmadım. O da bir ayrı söhbətin mövzusudur. Körpəlikdən laylası bayatıynan, oxşamaynan yoğrulan şairin özünün də bayatı çağırması çox təbiidir.

Necə bilirsiniz, bəlkə QAYIDAQ ƏVVƏLKİ XATİRƏLƏRƏ…

# GÖY TANRI-RÜSTƏMXANLI TANRISI

Mütaliəyə heç vaxt ara verməsəm də, Sabir Rüstəmxanlının "Qanun" nəşriyyatında çapdan çıxan "Göy Tanrı" kitabını fasiləsiz olaraq oxumağa məqam tapmırdım. Bəlkə də belə bir nəhəng kitabı oxumağa hazırlayırdım özümü. Çünki bu sıradan bir kitab deyildi. Mənim anlamıma görə belə əsərləri oxumaq üçün bir az hazırlaşmaq daha vacibdir.

Başa çatandan sonra haqqında təəssüratlarımı qələmə almağa ehiyac duydum. Bu sadəcə bir ehtiyac deyil. Sanki car çəkib aləmə bildirmək istəyirəm ki, tariximizi saxtalaşdırmaq istəyənlərə qarşı əsaslı  vasitəmiz var.

Sabir Rüstəmxanlı kitabı yazanda, özünün dediyi kimi, hansı ilahi duyğulara köklənmişdisə, oxuyan oxucu da həmin hisslərə köklənir. Çünki söhbət bir fərdin, hansısa balaca bir toplumun yox, minillər boyu yer üzünə sahiblik etmiş nəhəng bir imperiyanın tarixindən və istər-istəməz adı çəkiləndə hər birimizin qürur duyduğumuz QƏDİM TÜRK  TARİXindən gedir. Özü də nəhəng tarixin sadəcə olaraq yaranmasından yox, onun böyük xaqanların, sərkərdələrin iradəsi ilə yaradılmasından… Və məntiqi nəticə odur ki, yaradılanları yaşada bilməmək və yaxud sadəcə olaraq yaşatmaq istəməmək, yağılara qol-qanad açmağa imkan yaratmaq qədər zərərlidir.

Kitabda əvvəldən-axıra türkün böyüklüyü, qədimliyi önə çəkilir. Tarixə aydınlıq gətirən mə-

qamlardan xali olmayan bu əsər daha çox yazıçı Sabir Rüstəmxanlının araşdırdığı və yaratdığı tarixdir. Özü də bu tarix tarixçilərin yaratdığı tarixdən qat-qat üstündür. Bu kitabda bəşər tarixinin yaranışı haqlı olaraq türkün yaranışı ilə eyniləşdirlir. Dünyanın ən ucqar qurtaracağında belə (bu gün də davam etməklə) tapılan, uzun illər mənbəyi məlum olmayan cizgilərin, rəsmlərin sonradan türkün qədim yazılı abidələri ilə bağlılığı ortaya çıxanda bu həqiqəti bir daha dərk edirsən.

Və nə yaxşı ki, Sabir Rüstəmxanlı elə bütün yaradıcılığında olduğu kimi bu böyük əsərində də eyni inanca işıq tutur. Tarixi məqamlar yazıçı araşdırması və təxəyyülü ilə çulğaşanda daha gözəl olur:"Günçıxandan Günbatana hələ yalnız bir üzü tanınan yerin ortasında Tanrının öz sevgisindən yaratdığı bir ulus yaşayırdı" və "biz onların törəmələri, nəvələri, nəticələri, kötücələri, iticələri, budaqları və yarpaqlarıyıq". Deməli ən azından soy-kökümüzü bilərəkdən gizlədilmiş və saxtalaşdırılmış arxivlərin cəngindən qurtarmağın yollarını tapa bilərik. Sabir Rüstəmxanlı təkbaşına bir institutun görə biləcəyi işdən artığını bu kitabı yazmaqla görüb.

Və beləcə əsər boyu göydən yaranan insanın ilk illərindən ötən təxminən bir əsrdən bir az artıq (Qara xanın yaşadığı dövrdən başlayaraq Oğuz xanın 116 illik ömrünün sonuna kimi olan bir zaman kəsiyində) dövr ərzində keçilən möhtəşəm yolun davamı indi bizim ömrümüzdən keçir.

Sabir Rüstəmxanlının özünün də etiraf etdiyi

kimi "Göy Tanrı" şer kimi qəfil doğulub. Elə dilindən, yazılış üslubundan da bunu duymaq mümkündür. Oğuz xan Qam Atayla söhbətini xatırlayır:"Hə, doğrudan da göydən gələnlərin nəsli kəsilib. Bunlar torpaqdan yarananlardır. İllər boyu qanadlı atların belində uçurtdum bunları. Tanrının göndərdiyi qanadlı sözlərlə ruhlarını yüksəltməyə çalışdım. Amma bir yerdə dayanıb, bir parça torpaq tapan kimi dizədək batdılar çamura. Özlərinə qovuşublar.. Daha kimsə onları bu torpaqdan qopara bilməz".

Qısqanc ədəbiyyatçılar bu əsəri daha çox tarixi, qısqanc tarixçilər isə daha çox ədəbi saya bilərlər. Elə belə düşünsələr də gözəldi. İstənilən prizmadan yanaşsalar da, oxumalıdırlar. Türkçülüyün, tariximizin təbliğatçılarından olan bir dostumuzun -"Göy Tanrı" daha çox bədii əsərdir-deməsini eşidəndən sonra qənaətimdə yanılmadığımı hiss etdim. Sözsüz ki, bunun əksini də eşidəcəyik. Çətini bu kitaba könül verməkdir. Oxuyandan sonra hər kəsin beynində tutduğu yanlış düşüncələrə yer qalmayacaq. Çünki Sabir Rüstəmxanlı çoxumuzdan fərqli olaraq illər öncə də belə düşünürdü. "Salam Gəncə qapısı"nı, "Ömür kitabı"nı yazanda da artıq bu havaya köklənmişdi. Və sonradan "Göy Tanrı"sı ilə bir daha o böyük inanca öz sədaqətini nümayiş etdirdi (Bunu qələmə alarkən, nədənsə yadıma bir məqam düşdü. Milli-azadlıq hərəkatı təzə başlayan illərdə hansısa mitinqdə Sabir Rüstəmxanlının başı polis dubinkası ilə yarılmışdı. O vaxt mən, səhv eləmirəsə, "Şans" qəzetində apardığım köşədə bir yazı yazmışdım və qeyd et-

mişdim ki, bu gün bəlkə də hamını zopa ilə vurmaq olardı, təkcə "Ömür kitabı"nın müəllifi Sabir Rüstəmxanlıdan başqa. Amma əksinə oldu, o zopa heç kimə dəymədi, Sabir Rüstəmxanlıdan başqa). Hələ bu silsilənin davam edəcəyi qənaəti də var oxucuda.

Sözsüz ki, bu əsərin də elmi analizə ehtiyacı var və müvafiq sahənin araşdırıcıları öz münasibətlərini bildirəcəklər. Mənim düşüncəmə görə əslində tarixçilər bu kitabı daha çox bəhrələnmək üçün oxumalıdırlar. Sabir Rüstəmxanlının istisnasız olaraq bütün yaradıcılığında ötərilik yoxdur. Onun əsərlərində kiminsə, nəyisə götürmək, əxz etmək məqamları daha çoxdur. Amma bir şey var ki, onu vətəndaş şairimizin hər yazısında görmək mümkündür. O da bu Vətəni, bu torpağı və bu torpağın üstündə ilk yaranmışlar olan böyük türklüyü sevməyin yollarıdır. Bunu niyə hamılıqla etmək istəmirik - demək çətindir.

Xırda bütləri dağıdıb Tanrı inancını dirçəldən Oğuz xaqan da min illər öncə bu məhz bu yolun başlanğıcını qoymuşdu. Onun Göy Tanrı inancı əslində böyük türk imperiyasının qurulma metodlarından biriydi. Savaş səhnələri ilə dolu olan bu əsər yeri gəldi-gəlmədi lüzumsuz davalar yapmaq ideyasına istiqamətlənməyib. Əslində Oğuz xanın Göy Tanrıya olan inanca görə öz atasını, yaxınlarını öldürməsi adicə bir yaşam faktı deyil. Bu, böyük bir törənin qorunub-saxlanması kimi müqəddəs, haqlı bir idealın olum-ölüm dilemmasından çıxarılması idi. Əsərin sonunda bu ibratəmizlik bir da-

ha özünü büruzə verir. Xaqanın övladları Gündoğandan Günbatana kimi bütövləşmiş türk diyarından hərə öz vərəsəsini istəyir. Bir azdan Oğuz xan Ata Mağarada Qam Atanın ona bağışladı dəri xəritəni övladlarına göstərəcək, onların bölünmək arzularına görk olsun deyə, xəritəni altı yerə kəsəcək. Amma əvvəlcə dəri xəritədə göstərilən cizgilərə diqqətə baxıb, orada göstərilənlərin hamısını fəth etdiyini duyacaq və oğullarının bölünmək istəyinin nələrə səbəb olacağını onlara anladacaq. "Ömrü qısalıb, Tanrının dili unudulur, əski dünyaları dağılıb, keçmişdən gələn yollar qapanır. Balacalaşıb Tanrıdan uzaqlaşır". Amma nə vaxtsa "Tanrıya doğru qarşısıalınmaz bir yürüş başlayacaq".

Oğuz xanın son yürüşünün Midiyadan keçərək Kaspinin güneyindəki kəndlərə gəlməsi, üzü Savalandan o tərəfə-dağlara, dərələrə baxan yeri gözaltıaması, burada onun məzarının olacağı poetik bir dillə təsvir olunub. Arxada isə keçilmiş bir yol qalır. Çindən Günbatan dənizinədək bir ərazidə hamının türklərə bac verməsirnə kimi gətirən bir yol. O yol təkcə türkün savaş yolu deyildi. O yol ucalıq yolu, təkamül yoluydu. O yoldan sonralar dünyanın böyük türk fatehləri keçib.

Sonda Oğuz xan Ata Mağaradan başlamış dünya boyu getdiyi yerldərdə məbədləri xatırladı. Və son qənaəti: "BƏLKƏ TAPINAQLARI TANRIYA DAHA YAXIN YERLƏR BİLMİŞƏM! YOX YANLIŞ DÜŞÜNCƏYMİŞ. GÖY TANRI GÖYLƏRİN ALTINDA HƏR YERDƏDİR. ONA YAXINLAŞMAQ ÜÇÜN MƏBƏDLƏRƏ TOPLAŞMAQ ARTIQ İŞ-

DİR, Əksinə MƏBƏDLƏR İNSANI TANRIDAN UZAQLAŞDIRIR. TANRI İNSANIN İÇİNDƏDİR".

Türkün qədim tarixinə qısqanclıq zaman-zaman öz hökmünü göstərmək istəyib. Kitabı oxuyub başa çatandan sonra bunun bir sıra səbəblərini anlamamaq olmur. İstənilən halda qısqanclıq gərəkli bir məfhuma qarşı olur. Bu baxımdan BÖYÜK TÜRK tarixinə qarşı bu günədək davam edən qısqanclıq niyə olmamalıydı? Bu, türkün dönməzliyinə, qədimliyinə, bir ola bilməyinə olan qısqanclıq idi. Məkrli imperiyalar bunu heç vaxt sınıra bilməzdilər, necə ki, indi də qəbul edə bilmirlər. Bü boyda böyüklüyün hardan pərvəriş tapması onları bu gün də dəhşətə gətirməkdədir. Oğuz xanın hər döyüş ərəfəsi etdiyi etirafı da inancı bir olanların böyüklüyünə dəlalət edir. Xaqan hansı şahın yanına elçisini göndərirdisə, bir qayda olaraq arzularını da çatdırırdı ki, biz döyüş, qan-qada istəmirik, amma bütövlüyümüzü bərpa etmək istəyirik. Baxmayaraq ki, bəşərin yaranışı kitabda Göy Tanrı inanclı oğuzlarla əlaqəli təsvir edilir, əslində müəllif ondan da irəli olan zamana işıq tuta bilir. Ata Mağarada Qam Atanın ona bağışladığı dəri xəritədə çəkilən cizgilər, əslində türkün Oğuz xandan əvvəlki minilliklərdə də mövcud olduğuna işarədir. Deməli daha qədim zamanda Gündoğandan Günbatanacan olan ərazilərə sahiblik edənlər də qədim-qayım türklər olub. Oğuz xanın üzü böyüklüyə yol başlaması özündən əvvəl mövcud olan törənin yenidən bərpası idi.

"Göy Tanrı" kitabında xırda texniki qüsurlar

və qrammatik xətalar da var. Belə bir dəyərli kitabda tələskənliyə yol verməmək də olardı. Bu iradların müəllifə elə bir aidiyyatı yoxdur, onun günahını kitabı çap edən nəşriyyat işçilərində axtarmaq lazımdır. Əslində isə bu da elə bir günah deyil, çünki onlar belə bir abidəni işıq üzünə çıxarıblar. Ən əvvəlcə bu insanlara ÇOX SAĞ OL düşür.

# MƏN ALLAH OLMAQDAN İMTİNA ETDİM...

Vahid Əzizin başlığa çıxarılan bu misrasını oxuyanda dodağınız qaçmasın. Nəzərə alın ki, bu şairin şerlərindən birinin bir misrasıdır. Onu küll halında oxumaq lazımdır. Necə ki, mən oxudum və belə bir misranı başlığa çıxarmağa cəsarət etdim:

**Torpaqda göyərdim, torpaqda bitdim,**
**Səs saldım təklikdə sıxılan göyə.**
**Mən Allah olmaqdan imtina etdim,**
**İnsana uzaqdan baxmayım deyə.**

Gözəl şairimiz Vahid Əziz həmişə sevilib. Onunla oxucuları arasında heç vaxt uçurum yaranmayıb. Daha doğrusu Vahid Əziz bu uçurumun yaranmasına imkan verməyib. Baxmayaraq ki, uzun illər kitabları çap olunmayıb. Vahid Əzizin bir xüsusiyyətini oxucu olaraq çoxdan duymuşam. Çoxları (qələm adamları nəzərdə tutulur) hər hansı vəzifədə işləyərkən imkanlarından istifadə edərək daha çox kitab çap etdirirlər. Vahid Əzizdə isə bambaşqadır. O, müxtəlif yüksək vəzifələrdə işləyəndə bir dəfə də olsun kitabını nəşr etdirməyib. Bu böyük şairin sanballı kitabları (sözün hər mənasında) indi-indi işıq üzü görür. Olub ki, Vazid Əziz illərlə bir dəfə də çap olunmayıb. Elə həmin illərdə bir dəfə də olsun o, oxucularının yadından çıxmayıb. Şair xoşbəxtliyi mənim düşüncəmə görə elə

bu meyarla ölçülməlidir. Vahid Əziz poeziyası böyük bir tədqiqat mövzusudur (Bu tədqiqat böyük ürək tələb eləyir).

Bu yaxınlarda "Gənclik" nəşriyyatında işıq üzü görən dördcildliyin birinci cildi böyük, sevgili şairimizin müxtəlif illərdə yazdığı şerlərindən bağlanıb (redaktorları Əlican Əliyev və Səyavuş Sərxanlıdır). Şerlərin hər biri haqqında ayrılıqda bu yazı həcmində yazmaq olar. Mən sadəcə oaraq fikirlərim haçalanmasın deyə, oxucu olaraq düşündüklərimi qərara aldım.

Kitabdakı şerlərin böyük bir qismi böyük eşqin tərənnümünə həsr olunub. Şair-

**Sənə sədaqətdə nə and içim ki,**
**Yola sal, qayıdıb gəlməsəm, unut**-deyəndə düşüncələrinə hörmət etməmək olmur. Çünki özünün etiraf etdiyi kimi:

**Dəlisiyəm tellərinin,**
**Ölüsüyəm əllərinin.**
**Bu dünyaya... bir də sənin,**
**Tayın olsa, gələcəyəm.**

Bu gün eşqlə yaşayıb-yaradan Vahid Əziz vüsal uğrunda həsrətdən ölməyi şərəflilərdən sayır. Bir şerində dediyi kimi:

**Əgər həsrətindən öləcəyəmsə,**
**Deməli ölməyə dəyərmiş, gülüm.**

Hər ovqat şerə dönmür. Hər hiss könül duyğulandırmır. Ətrafda müşahidə olunan neqativ hallar da nostalji hissləri xatırladanda, müqayisə predmeti yaradanda qələm götürürsən. İndi cəmiyyətdə guya ki, sivil dəyərlərin əxz olunması prosesi

gedir. Əslində isə vəziyyət bir başqadır. Görüntü xatirinə can güddürənlərin vücudunun dəyərini ölçməyə ən aşağı meyarı belə tapa bilməyən Vahid Əziz canını vaxtında qurban verə bilən kişiləri xatırlayır:

**Mənə rişxənd etmə, belədir işlər,**
**Bunların dərisi əyninə dardı.**
**Bizim vaxtımızda köhnə kişilər,**
**Təkcə can üstündə can tapşırardı.**

Nəfis tərtibatla çap olunan bu kitabda şairin müxtəlif səpgili şerləri toplanıb. Vahid Əzizin şerlərində təbiətin təbii mizanı çox ustalıqla qələmə alınıb. Neçə illərdir ki, gözəl şairimiz bizə bu poetik həqiqətlərdən oxucu kimi bəhrələnmək imkanı verir. Haqqında danışdığımız kitabda da bu şerlərdən bir xeylisi yer alıb:

**Çən düşdü, dağların döşü ağardı,**
**Qartallı qayalar qara bağlanır.**
**Yazda dərələrdən sellər axardı,**
**Soyuqlar güc gəldi, ara bağlanır.**

Sözün sehrinə beləcə düşürsən, Vahid Əzizin kitabını oxuduqca. Gözünün önündə nə vaxtsa müşahidə etdiyin mənzərə canlanır, sözlə çəkilmiş mənzərə:

**Gəzmək küləyinki, yağmaq qarınkı,**
**Ötmək tütəyinki, yanmaq tarınkı.**
**Meşəyə yağan qar elə narın ki,**
**Elə bil tənziflə yara bağlanır.**

Mövzuları müxtəlif olsa da, bu şerlərin arasında bir yaxınlıq var. O da eyni ilhamdan pərvəriş tapmasıdır. Dünyanın işdəkləri zaman-zaman qə-

ləm adamlarının müşahidə obyekti olub. Yanaşmalar müxtəlif olsa da, onun faniliyini heç kim danmayıb. Bu baxımdan Vahid Əzizin gəldiyi qənaət daha inandırıcıdır:

**Nahaq bu dünyaya tapşırdın məni,**
**Bu dünya əmanət saxlayan deyil.**

Və yaxud:

**Gah vurular,gah vurarsan, belədir bərə,**
**Bu dünyada nişangah da, ovçu da çoxdu.**
**Güllə var ki, ürəyində dəyər xəbərə,**
**Güllə var ki, atılmağa gümanı yoxdu.**

Həmişəki kimi, Vahid Əzizin bu kitabında da Vətən təəssübü ön sıradadır. Amma onun Vətən sevgili şerlərini yersiz təntənə ilə yox, zünə qapılıb oxumaq olur. O, düşmənin soyuq baxışlarına tuş gələn torpağa hamıdan fərqli ağı deyir:

**Gəzdikcə çadırlarını,**
**Dəfn etdikcə aclarını.**
**Yazıq Vətən saçlarını,**
**Yolur, xəbərimiz olmur.**

Son vaxtlar Qarabağ dərdindən yazmaq az qala şit müsabiqəyə çevrilib. Bu yurdu sevməyən də "haray" çəkir, şer yaza bilməyən də. Amma onu övlad sevgisi ilə sevən Vahid Əziz belələrinə ibrət verir:

**Havalanmış bulud kimi gəzərəm yalqız,**
**İçim,çölüm-faciəli, özüm güməli.**
**Qarabağım-qaçırılmış bakirə bir qız,**
**Zorlayanmı, zorlananmı-hansı ölməli?**

Adına müqəddəs dediyimiz nə varsa, elə müqəddəs də yaşatmalıyıq. Torpaq düşmən tapda-

ğında olanda belə o müqəddəsliyi qorumalıyıq. Çünki yaşarı olanlarla əylənmək, eksperiment etmək, şou yaratmaq bağışlanan deyil. İnsanlıq adına ləkə olanlar Qarabağ boyda bir ağrını alver yerinə çevirəndə şair yazır:

**Yurdu tutan bir qəribə azardı,**
**Hara baxsan, alver gedir, bazardı.**
**Hara getdi o ucalıq-qalmadı?**
**Qarabağda Qarabağlıq qalmadı.**

Bu məmləkətin başına gələn və gətirilən nə varsa, Vahid Əziz öz şerlərində bir şair kimi, bir vətəndaş kimi mövqe ortaya qoyur:

**Bir şikəstə oxuyurdum,**
**Havalanıb zil qırıldı.**
**Yuva quran bir qaranquş,**
**Qatdı Tanrının başını,**
**Xocalıda el qırıldı.**

Şerlərində Vahid Əziz geriyə qanrılıb yaşanmış ömrün səhifələrini bir də nəzərdən keçirir. Əlbəttə, oxucu olaraq biz bu şair ömrünün şərəflə yaşandığının fərqindəyik. Amma özü təbiətinə xas olan təvazökarlıqla yaşadığı altmış ildə gördüklərini saf-çürük edir:

**Varlığım yaymıdı, süzən oxmudu,**
**İlahim, nələrə başımı qatdın?-**
**Bilmirəm, heçnəmi, azmı, çoxmudu?-**
**Zarafat-zarafat... Altmışa çatdım.**

Bu kitabında Vahid Əziz bir neçə qəzəlini də oxucuların mühakiməsinə verir.Hansı formada yazmağından asılı olmayaraq şair öz sevimli oxucularını itirmir.

**Göylərdən gəlsə də söz,**
**yar qəlbinə yol tapmadı,**

**Sevgidə məğlub olan şairlik əlvida sənə-** desə də, şair özünün şair taleyindən qaçmağın mümkün olmadığını gözəl dərk edir. Bir şerində dediyi kimi:

**Təkcə məzarıma bükülsün dizin,**
**Qarşımda süründü vaxt dizin-dizin.**
**Yaşasan, görərsən - Vahid Əzizin,**
**Neçə nəsillərə yetər adı - ha!**

Yetər, həqiqətən də yetər Vahid Əziz. İnsan (xüsusən də qələm adamları) mədəni tariximizdə özünün yerini hamıdan yaxşı bilir. Sən həqiqət carçısı olaraq öz həqiqətini də yaxşı dərk edirsən. Bilirsən ki, müasir poeziyamızda bir Vahid Əziz həqiqəti, bir Vahid Əziz mərhələsi var. Elə bir mərhələ ki, zaman-zaman üstündən sükutla keçmək mümkün olmayacaq. Həmişə bu poeziyanın səcdəsinə gələcəyik.

# RÜZGARLA ÇARPIŞIR TÜRKÜN BAYRAĞI

## və yaxud

# ELÇİN İSKƏNDƏRZADƏNİN AVTOPORTRETİ

Bu günlərdə gözəl şairimiz, bir çox beynəlxalq təşkilatların fəxri və həqiqi üzvü Elçin İskəndərzadənin "Avtoportret" adlı nəfis tərtibatlı bir kitabını oxudum. Onun yaradıcılığı haqqında oxucu fikirlərimi yazmaq üçün çoxdan özümü hazırlayırdım. Bu kitab arzularımı reallaşdırmaq üçün əsl fürsət oldu.

Akademik Nizami Cəfərovun və kitaba ön söz yazmış Şimali Ütah Universiteinin professoru Dr. Satyam S. Moortyın redaktorluğu ilə  işıq üzü görən kitab həqiqətən də Elçin İskəndərzadənin AVTOPORTETİdir.

Gözəl şairimizin azərbaycan və ingilis dillərində (şeirləri ingilis dilinə Sevil Gültən tərcümə edib) işıq üzü görən bu kitabını, necə deyərlər, fasilələrlə oxumaq mümkün deyil, birnəfəsə başa çıxmalısan. Çünki kitabda, demək olar ki,  başdan-başa bir VƏTƏNDAŞın ürək yanğıları toplanıb. Elçin İskəndərzadə çoxşaxəli fəaliyyət sahibidir. Bir alim, bir naşir, bir ictimai xadim, Azərbaycanı xarici ölkələrdə ləyaqətlə təmsil edən bir ziyalı kimi

fəaliyyəti ayrı-ayrı söhbətlərin mövzusudur. Amma bir şair olaraq ömrünün hansı paralelllərdə olduğunu Elçin İskəndərzadə hamıdan əvvəl duyub:

**Bu dünyada mənim ömrüm,**
**qılıncla ləçək arası.**
**Nə gəzirsən dəli könlüm,**
**qəbirlə çiçək arası?**

Qəbirlə çiçək arası sıralanmış ömürlərin arasında yaşam taleyi fərqli olan bir zümrə də var, onlar şairlərdir. Elçin özü gözəl şair olaraq bu taleyi yaşayanların haradan-haraya gələ biləcəyini çox yaxşı bilir:

**Qol götürüb bu havaya,**
**Oyna havasız-havasız.**
**Şairləri-qərib durna,**
**Köçür yuvasız-yuvasız.**

Bu kitabı oxuyandan sonra, bir daha yəqin etdim ki, Elçin İskəndərzadənin gərgin həyat tərzi, çoxpilləli fəaliyyəti onun şairliyinin yardımçı qollarıdır. Adil Mirseyidin təbirincə desək "dünyanın hər yerindən görünən adam"ı bu zirvəyə çatdıran məhz onun poeziyasıdır. Bu baxımdan indiyə kimi təhlilçilərin, səsi dünyanın hər yerindən gələn adamın bədii yaradıcılığına, yumşaq desək, biganə yanaşması anlaşılan deyil (bəzi istisnaları nəzərə almasaq Elçin İskəndərzadə poeziyası lazımınca təhlil olunmayıb). Şair taleyinin əsl sahiblərindən biri kimi Elçinin buna daha çox haqqı var axı:

**Yenə bu dünyadan çıxıb gedərəm,**
**Köksümü ovcuma sıxıb gedərəm.**
**Axar sular durulanda bir səhər,**

**Mən axar sularla axıb gedərəm.**

Bütün yaradıcılığında olduğu kimi, Elçin İskəndərzadənin bu kitabında da TORPAQ, VƏTƏN, QARABAĞ ağrıları daha qabarıq əksini tapıb. Əslən o gözəl diyardan olması belə burada əsas faktor ola bilməz. Elçin zatən VƏTƏNPƏRVƏR ziyalıdır. Bir çoxlarından fərqli olaraq şair Qarabağ dərdini qışqıraraq car eləmir, ürəksökən duyğularını özünəməxsus təmkinlə poeziyasına gətirir. O, yaxşı bilir ki, qışqırtı, emosiya hansısa ağrıdan, fərd olaraq, insanın özünün azad olmaq ehtimalıdır. Amma Qarabağ ağrısını yaşamadan, özü də toplum olaraq, çözmək müşküldür. Bu da çözülməyincə o yerlərə yazın necə gəlişinin şahidi olmaq eynən Elçin İskəndərzadənin poeziyasındakı kimi olacaq:

**Ürəyində hələ dərddir gül açan,**
**Novruzgülün mənim kimi bağrı qan,**
**Xarıbülbül, qovuşarıq bəs haçan,**
**Qarabağa bizsiz gəlir bu yaz da...**

Bizsiz qalan yazı bundan gözəl necə demək olar… Yanan tonqallar bəlkə də heç tonqal deyil, torpağın üsyanıdır. Əslində üsyanı biz etməliyik, amma torpaq yağıların ayaqları altında tapdağa dönməmək üçün köksündən alov püskürür:

**İçimdə**
**Çərşənbə tonqalı kimi**
**alışıb-yanır,**
**Cıdır düzünün qayaları, daşları...**
**Bayramdı...**
**Dağların bağrı qandı...**

Bir az əvvəldə dedim axı, bu dərdi qışqırmaqla çözmək olmaz. Elə şair qardaşımız da belə düşünür. Onun da düşüncəsinə görə Qarabağ, hansı prizmadan baxsan, savaş məkanıdır, nostalji hisslərin şerlərdə ifadə olunması obyekti deyil (İstər-istəməz yadıma digər bir vətənpərvər şairimiz Musa Ələkbərlinin TORPAĞI GEDƏNİN BİRCƏ YOLU VAR, YAŞAYIB ÖLMƏK YOX, ÖLÜB YAŞAMAQ misraları düşür). Şair haqlı olaraq xiffətli göz yaşı tökülən misralardan usandığını bildirir:

**Usandım, ah usandım,**
**qrafoman şairlərin**
**Xarıbülbül şəklinə**
**göz yaşları tökə-tökə,**
**yazdıqları dualardan.**

Sonra da sanki bu "ah"ların göylərə bülənd olmamasından təsəlli tapır:

**Yaxşı ki ahımız göylərə çatmır,**
**yoxsa baş götürüb qaçar mələklər.**

Və belə dlüşünməkdə də haqlıdır şair. Mübarizə olmasa nostalji hisslər nəyi qaytara bilər ki… Ağrını candan almaq üçün, ilk növbədə, onun böyüməsinin qarşısını almalısan. Günün xoş keçəndə nostalji duyğuların oddan alışan cana su səpməyi ola bilir. Torpaqlarımızı yadelli baxışlardan qurtarandan sonra keçmiş ağrılarla duyğulanmaq olar. Amma hələ bunlar baş verməyib. Bəlkə düşmən də bu cür həsasslığımıza bələddir. Əslində nə qışqırtı lazımdır, nə də keçmişi göz yaşları ilə təsvir etmək. Çünki  indiki məqamda buna ehtiyac yox. O cənnət diyarın hər qarışına soyuq nəzərlər

dikilib. Ən sərrast fikirləri Elçin İskəndərzadə deyir:

**Qabaq Ağdam**
**qənşər Şura.**
**Ürək qanlı bir çiçək,**
**könül sınıq bir şüşə.**

Elçin İskəndərzadə ikinci onilliyini yadların əlində keçirən yurd yerlərimizin ağrısını məhz belə qələmə alır. Onun şerlərində bu ağır itki ilə barışmaq istəyi yoxdur. Şair sonrakı şerlərində bundan çıxış yollarını da arayır. Onun düşüncəsinə görə, belə olan halda, içimizdə qətiyyən reklama hesablanmayan bir qəzəb olmalıdır. Bizi yağı qarşısında xəcil etməyən bir qəzəb, Qarabağı azad etmək iqtidarında olan bir qəzəb:

**Türk bir Allah quludu,**
**Sənin kimi, mənim kimi.**
**Qızıl qında qılıncdı,**
**Qarabağın qəzəbi.**

Təkcə bununla da bitmir. Şairin poetik qənaəti də düşündürücüdür. Hələ ki, torpaqlarımızın qarşısında günahlarımızı yumaq imkanlarımız da tükənməyib. Elçin İskəndərzadənin ehkamına görə, xoşbəxtlikdən Tanrı əlini bizdən tamam üzməyib. Tövbə qapısı açıq olduğu kimi, günahlarımızın bağışlanma limiti də bitməyib. Bitməsini gözləyəkmi…

**Tanrının gözü üstümüzdədi-**
**alnımızı naxışlayır.**
**kölümüzü ovsunlayır**
**günahları bağışlayır.**

Bütün bu hissləri, düşüncələri bizdə yaradan Elçin İskəndərzadənin qələmi oldu. Bu qələm deyilənin də idarəedilməsində bir yazılmamış qanun var. Qələmi ağ vərəq üzərində hərəkətə gətirən insan barmaqları olsa da, qələmdən gələnləri gətirən isə ürəkdəki təpərdir.

Şairin haqlı qənaətinə görə, qara qələmə qalsa, bir kimsədən qorxusu yoxdur, şeytana da uya bilər. Amma

**Qələm şeytana uyanda**
**əlim tutub qələmin boğazından,**
**ağrıdan qələmin gözlərində**
**şimşəklər çaxar.**
**Qələm əlimin,**
**əlim ürəyimin**
**quludu, köləsidi.**

Qələm əlin, əl ürəyin qulu olanda şair də Elçin İskəndərzadə kimi duyğularını misralara düzə bilir. Getdikcə bizdən daha da uzaqlaşan yurd yerləri üçün qəribsəmiş insanın həsrətini ürək qələmə belə diqtə edir:

**Alışıb yanan dodaqlarıma**
**bir damcı sarı limon sıxın,**
**ya bir qızıl lalə verin**
**Öpüm yanağından, ağrısız ölüm.**

İndiyə kim yüzlərlə qələm adamın kitabını çap edən (əksəriyyətini E. İskəndərzadənin birbaşa təşəbüsü ilə) "Vektor" Nəşrlər Evində işıq üzü görən "Avtoportret" kitabı mənim kimi yüzlərlə əsl poeziya tamarzısı olan oxucunun ürəyini fəth edəcək (zövqlərin parametrləri müxtəlif olsa da). Kita-

bı axıracan oxuyan oxucu Vətən, çiçək, sevda, arzu, yağmur, tənhalıq, Qobustan, röya, bənövşə, qürbət, rüzgar, ilkinlik, Yaşıl İrmak, müjdə türkülərini canına çəkəcəkdir. Sanki bü türkülərin akkordu kimi "Tokat türküsü" xüsusilə ibratəmizdir:

**Rüzgarla çarpışır türkün bayrağı,**
**Uçuşur havada Tokat türküsü.**

Bu kitab, sözün həqiqi mənasında, Elçin İskəndərzadənin bir vətəndaş, bir şair kimi avtoportretidir. Oxuyun və onu sevdiyiniz üçün yanılmadığınıza bir daha əmin olun. Əmin olun ki, bu şairin bütün yaradıcılığı böyük hərflərlə yazılan SEVGİ ilə yoğrulub:

**Şəhid məzarlarına**
**İsa bulağından bir ovuc su at.**
**Dirilib ayağa qalxmasalar da,**
**Rahat uyuyacaqlar**
**qan qardaşlarım,rahat.**

"Avtoportret" reallıqda bizi üzən, hələ ki, dərdinə çarə tapılmayan ağrıların poetik həllini özündə cəmləşdirib. Labirintə düşmüş bir çox siyasi proseslərin zaman-zaman bədii düşüncədən bəhrələndiyini unutmaq olarmı…

# "ÇƏPƏR"

Bu günlərdə istedadlı yazıçı Müzadil Aqilin "Vektor" Nəşrlər Evində "Çəpər" adlı ilk hekayələr kitabı işıq üzü görüb.

Oxuculara xatırlatmaq istəyirəm ki, Müzadil AQİL 1965-ci ildə Şəmkir rayonunun Dəllər qəsəbəsində anadan olub. İlk yazıları rayonda çıxan "Şəmkir" qəzetidə işıq üzü görüb. Ali təhsil almaq üçün Rusiya Federasiyasına üz tutan M. Aqil 1989-cu ildə Belqorod Texnologiya İnstitutunda ali təhsilini maddi çətinlik üzündən yarımçıq qoyub. Hazırda Dəllər qəsəbəsində yaşayıb-yaradır və Gəncəbasar zonasının "Qərb xəbərləri" qəzetinin ədəbiyyat şöbəsinə baxır.

Ölkə mətbuatında ara-sıra hekayələri ilə çıxış edir (Yeri gəlmişkən, insafsızlıq olar deməsək, "Kaspi" qəzeti əyalətdə yaşayan Müzadil Aqilin yaradıcılığına ən səxavətlə yer ayıran mətbuat orqanlarından biridir). "Çəpər" yazıçının ilk hekayələr toplusudur. Kitab "Vektor" Nəşrlər Evinin rəhbəri, hörmətli professor, gözəl şair Elçin İskəndərzadənin xeyirxahlığı ilə işıq üzü görüb.

Müzadil Aqilin hekayələrinin dili sadə, rəvan, mövzusu isə həyatdan alınmadır. Bir az da yaşantılarına, taleyinə bələd olduğumdan deyə bilərəm ki, bu kitabda çap olunan "Çəpər", "Dərd qapısı", "Aliment", "Televizor", Çətirli dondurma", "Pay" hekayələri və "Kimdir ölü, kimdir diri" elegiyası yaşanmış ağrıların bədii təcəssümüdür. Bu baxımdan "Çəpər" hekayəsi olduqca ibratəmizdir. Bir-birinə

bitişik həyətdə yaşayan qardaşların torpaq sahələrini ayıran çəpər təsvir olunur ilk baxışda. Amma yazıçının demək istədikləri təkcə bu deyil: "Özünü nə qədər aldatmaq istədlisə bacarmadı. Getdikcə onun gözlərində böyüyürdü hələ çəkilməyən çəpər. Bəlkə də bütün dünyada belə çəpərlər çəkiləndən sonra, dinlərə, millətlərə bölünmüşdülər insanlar… Bilmirdi… Nədənsə gözlərində böyüyür, hündürlənir, qalınlaşır əlçatmaz zirvəyə, alınmaz qalaya çevrilirdi hələ çəkilməyən bu çəpər. Ürək edib qardaşından soruşa bilmirdi ki, doğrudanmı bu çəpəri çəkmək lazımdır. Yəni o qədərmi vacibdir…Gecələr gördüyü yuxulardan da dəhşətli gəlirdi ona. Nə qədər fikirləşdiyini özü də bilmədi. Bir də başını qaldırıb baxanda gördü ki, axşam düşür… Bircə onu deyə bildi:

- Qardaşı qardaşdan ayıran çəpər."

"Dərd qapısı" hekayəsi də çox təsirli bir dillə qələmə alınıb. Yazıçının böyüklüyü ondadır ki, bir obrazı yaratmaqla, bir məqamı təsvir eləməklə çoxsaylı insanların oxşar talelərinə ayna tuta bilir. Qapının bu üzündəkilər özlərini qapının o üzündən gələn xəbərə (yaxşı və ya pis) hazırlamışdılar: "… Birdən ağır-ağır açılan qapının cırıltısına hamı çönüb arakəsmə otağa tərəf baxdı. Sanki qapı da xəcalətindən açılmaq istəmirdi. İstəyirdi ki, gözləyənlər bu xəbəri canına hopdursun. İstəmirdi ki, altı gündən bəri ümidlə gözləyənlər bəd xəbər eşitsin. Hamı içəridən çıxan Banı xalanın nə deyəcəyini gözləyirdi. Qəhər onu boğurdu. Danışa bilmirdi. Neçə-neçə belə hadisənin şahidi olmuş o mənalı

gözləri nə demək istəyirdi görəsən. Sanki gözlərində şimşək çaxdı, leysan axmağa başladı. Xəyyam elə bildi ki, bu, sevincdəndi. Ancaq birdən hamı bir ağızdan dedi:

- Allah rəhmət eləsin!"

Hekayədəki hadisələr o qədər təsirli bir dillə qələmə alınıb oxucu həsrətlə sonu gözləyir: "Qapıya yaxınlaşdıqca onu tər basırdı. Əlini atıb qapını yerindən çıxardığını özü də hiss etmədi. Neçə illərin qurumuş taxtası olan qapı quş kimiydi. İki əlli tutub qapını çiyninə qaldırdı. Amma birdən beli bükülməyə başladı. Çünki qapı dərdi öz canına hopdurmuşdu və dərd qapısı olmuşdu bu qapı. Eləcə bu vəziyyətdə də küçəyə çıxdı. Adəti üzrə oğlu da onun dalınca yüyürdü. Qapı da çiynində küçəylə üzü yuxarı getməyə başladı. Yanında körpə Aqili, çiynində isə dərd qapısı…"

Nə isə… Kitabdakı hekayələrin hamısı haqqında danışıb oxucunun bu kitabı oxumaq haqqını əlindən almaq istəməzdik.

# ADAMIN İÇİNDƏ ÜŞÜYÜR SƏSİ

… Misra Həsrətindir. Ovqata uyğun olduğundan başlığa çıxardım. "Bir çiçək eşqi"nə az dəxli olsa da, deməliyəm. Şəmkirdə yaşayıb-yaradan istedadlı yazıçı Müzadil Aqil bir vaxtlar rayonda şair Məzahir Hüseynzadənin rəhbərliyi ilə fəaliyyət göstərən "Şəmkir inciləri" ədəbi məclisinin üzvlərinin yazılarından ibarət bir almanax hazırlamaq ideyasını irəli sürmüşdü. Qısa bir zaman kəsiyində "ŞƏMKİR İNCİLƏRİ-ŞƏMKİRin İNCİLƏRİ" adlı kitabı hazırlayası olduq. Məclisin ən istedadlı üzvlərindən biri olan Həsrətin özünü və şeirlərini tapmaq əsl müşkülə çevrilmişdi. Nəhayət ki, "Ocaq daşı" adlı ilk kitabının oxunmaqdan param-parça olan bir nüsxəsini tapdıq və ordan bir neçə şeirini çapa hazırlanan kitaba saldıq. Taleyin işdəklərinə bax. Bir gün sonra özü də, təzə kitabı - "Bir çiçək eşqi" də peyda loldu.

Çoxdandır ki, görüşmürdük. Özünün təbirincə desək, yalquzaq kimi təkliyə, tənhalığa çəkilmişdi. Bir vaxtlar sanballı "padborka"larla çap olunan Həsrət Kərimovu (sonralar sadəcə Həsrət oldu) soraqlamadığım adam qalmamışdı. Xatırladıram ki, Həsrət 1955-ci ildə Şəmkir rayonunun Şiştəpə kəndində anadan olub. "Ocaq daşı" adlı ilk şeirlər kitabı 1992-ci ildə "Gənclik nəşriyyatında çap olunub. "Bir çiçək eşqi" on altı il şairi şirin ağrılarla yaşadandan sonra gəldi. Bu gözəl gəliş idi:

**Kimdən öyrənmisən a zalım belə,**
**Bir anlıq gəlişi ay eyləməyi.**
**Səni gözləməkdən şam kimi yanan,**
**Gözlərin yaşını çay eyləməyi.**

Və yaxud:

**Elə bilirdim ki, ayrılıq ancaq,**
**Bizim aramıza ölümnən düşər.**

Həsrət bu məmləkətin sözün qədrini bilən şairlərindəndir. Bəlkə də oxucularla seyrək görüşməyi kiminsə yadından çıxarıb imzasını. Amma mən dəqiq bilirəm ki, həqiqi oxucular, Həsrətin öz oxucuları onu bir an belə unutmayıblar. Bir az qayğıların çoxluğundan özü ilə əməllicə dərdləşəmmədik. Bir oxucu olaraq düşüncələrimi bu kitabdan xəbərsiz olanlarla paylaşmaq zorunda qaldım. Və gəldiyim qənaət də bu oldu ki, hər on altı illik fasilədən sonra belə bir kitabla görüşməyə dəyərmiş:

**Qələmim dən səpir ağ vərəqlərə,**
**Zamanın ovcunda özüm də bir dən.**
**Özümü səpirəm  bağ vərəqlərə,**
**Dən-dən ayrılıram özüm-özümdən.**

Az qala otuz əvvələ qayıdıram nədənsə. Onda "Şəmkir inciləri" ədəbi məclisinin  ən fəal üzvü olan Həsrət vətəndaş yanğılı şeirləri ilə hamımızı heyrətləndirirdi. Həmin yanğı indi də canındadır. Hələ mətbəə qoxusunu itirməyən ("Şirvannəşr". 2008) "Bir çiçək eşqi"ndə nə qədər Vətən sevgisi var:

**Şəhid oğullarla ana torpağı,**
**İndi bir-birindən ayırmaq çətin.**
**Hər şəhid üstündə deyilən ağı,**

**Sərhəd dirəyidi bu məmləkətin.**

Zamanın beləcə darmacal vaxtında, bir bölük qayğıların fonunda, Həsrət SÖZlə olan pünhan ilişgilərini elə saflığındaca qoruyub saxladığına görə alqışlanmalıdır. Düşüncələrin parametrləri çox dəyişib son on ildə. Bir vaxtlar haqqı deyənlərin nahaqqa yoldaş olmağı da var bu aralıqda. Dünya bir az da dözsə, Həsrət kimi şairlərin sayəsində düşüncələrin durulaşmağı məqamı da gələcək. Çox inamlıyam buna. Ən azından oxuduğum kitab bunu mənə diqtə edir. Zamanın dəyirmanı işlədikcə gərəklilərlə gərəksizlərin ayrılacağına inamlıyam:

**Ömrümü kədərim, qadam üyüdür,**
**Üyüdür dərd məni, atam, üyüdür.**
**Girmə bu otağa, adam üyüdür,**
**Divarı, qapısı, daşı dəyirman.**

Həsrətin "Bir çiçək eşqi"ndə təcnislərinin xüsusi yeri var. Təbiidir ki, şair aşıq yaradıcılığına, folklora yaxınlığından qaynaqlanır. Doğulub boya-başa çatdığı yerlərin canına hopmuş saf havası elə körpəlikdən onu bu sevgiyə kökləyib. Bu baxımdan şair dostu İlham Zamanoğluya müraciətlə yazdığı təcnisi xüsusilə fərqlənir:

**Dindir incə, sevil incə, sev incə,**
**Kor olasan vəfasızı sevincə.**
**Niyə sevinc mehman olmur sevincə,**
**Nədəndirsə tez qovuşur dərdə dərd.**

Adı ilə düşüncələrinin, yaşam tərzinin arasında qəribə bir doğmalıq var Həsrətin. Yaz qoxulu ovqatla bir çiçək eşqinə susamağında şairin bütün qənaətləri həqiqətdir:

**Həsrət çoxluğudur Həsrət adım da,**
**Adamın içində üşüyür səsi.**
**Bir kəpənək ömrü yaşamağım da,**
**Bir çiçək eşqidi, bir yaz həvəsi.**

Səsi içində üşüyənlərin sığındıqları məkanın ünvanıdı "Bir çiçək eşqi". Eşidənin oxumaqdan vaz keçməyəcəyi həqiqətdir bu kitab. Necə ki, mən vaz keçmədim.

# QUŞDAN ÖZGƏ GÖYDƏ NƏ VAR, ƏYLƏYİN...

….Çünki GÖY ÜZÜNDƏ AĞRI ÇƏKİR BULUDLAR… Bu, şair yaşantısı, şair hökmüdür. Bu hökmə tabe olanlar isə Musa Urudu illər öncədən sevmiş və imzasını həsrətlə gözləyən oxucularıdır (Mən özümü fərqli oxucu hesab edirəm, o baxımdan ki, sevdiyim sənətkarları təkrar-təkrar oxuyuram və onların az çap olunduğunu hiss etmirəm, Yaxşırdmı, pisdirmi, deyə bilmərəm).

Musa Urudun "Avropa" nəşriyyatında nəfis tərtibatla çap olunan "Hər nə varsa" kitabını oxuyanda da bu hissi keçirdim. Bu kitabda HƏR NƏ VARSA gözəldir: Yazılanlar və nəfis tərtibat.

Şairi heç nə öz düşüncələrindən gözəl təqdim edə bilməz. Özünün "Ön söz"də yazdığı kimi: "Ən gözəl şeir Allahın söylədiyi sözlərdir. Bu mənada şair həm Allaha, həm də bəndəyə xidmət edəndir. Həm Allaha, həm də onun bəndələrinə xidmət etmək şərəfdir. Şərəfdir, ancaq xoşbəxtlik deyildir. Allah şairlıəri xoşbəxt yaşamaq üçün yaratmır.

Dünyanın dərdlərini suçəkən kimi ürəyinə çəkən kəs xoşbəxt yaşaya bilməz. Özündən sonra da sözü yaşayan şairlər insanların ən xoşbəxtidir. Dünyanın əvvəli də sonu da sözdür. Sözü dünyada qalan, gözü dünyada qalandan qat-qat xoşbəxtdir."

Bu fikirlərə heç nə əlavə etmədən misralarına tapınmaq olar:

**Bulud Allahındı, yağış şahındı.**
**Torpaq Allıhındı, qamış şahındı.**
**Dua Allıhındı, alqış şahındı,**
**Allaha deyilən şaha deyilməz.**

Kitabın annotasiyasında qeyd olunur ki, burada şairin ən uğurlu, yəni  seçmə şeirləri toplanıb. Zənnimcə Musa Urudun bütün yaradıcılığını toplayıb adına "seçmə" demək olar. Çünki şair olaraq Musa Urud zatən seçilmişlərdəndir və onun qələmindən çıxan hər misra oxucularının iliyinə çoxdan işləyib. Yazdıqlarının hamısına bir səmimiyyət qatan şairin uğursuz bir yazısı olsa belə, onun canındakı səmimiyyət hər şeyi yoluna qoyar.

Bütün yaranmışlar SEVGİyə borcludur. Yaşam tərzini sevgiyə bələyəndə yazdıqlarının da canından bir sevgi ilahəsi yol başlayır. Bu sevgi ilahəsi Musa Urudun bütün yaradıcılığından qırmızı xətilə keçir. Kitabını sevgi şeirləri ilə başlaması da təbiidir:

**Yolumun üstündən yolun keçəcək,**
**Zülməti doğrayan təzə dan kimi.**
**Qaranquş yuvaya, cüyür bulağa,**
**Pərvanə çırağa qayıdan kimi**
**Sən mənim ömrümə qayıdacaqsan.**

Bu olacaqlar sonranın işidir. Amma hələ yaz ağzıdı. Hər şey gözəl başlayıb. İyirmi beş-otuz il əvvəl də Musa Urud yaradıcılığa beləcə gözəl başlamışdı:

**Alma çiçəklədi, nar çiçəklədi,**

**Laçının qaşında qar çiçəklədi.**
**Tumurcuq qızlardan yar çiçəklədi,**
**İlahi, nə gözəl başlayıb bu yaz.**

Şair özü də fərqindədir ki, gözəl başlanğıc hələ hər şeyin gözəl olacağına işarə deyil. Bu gözəllliyi qoruyub saxlamaq, yaşatmaq üçün çalın-çarpaz yollardan keçməli olacaqsan. Hələ bu gəlişin gedişi indən sonra başlayacaq. Hər şey sınaqlardan keçəndən sonra bərkiyir. Və Musa Urud bizi inandırır ki, bu qarmaqarışıq yollarda bir ilahi duyğunuün şirin əzabını çəkməyə dəyər. Bu müddətdə əzablara dözməyəcək eşqin, deməli, heç əvvəli də olmayıb. Baxmayaraq ki, hərdənbir "get" deməyə də məhkum olacaqsan:

**Qisməti qarışıq gələn,**
**Yazında qar-qışı gələn.**
**Bir tərəfin - "işıq gələn"**
**Bir tərəfin - "it hürən", get.**

"Get" desə də, həmişə üz tutacağı bir sevgi ünvanı olduğunu yaxşı bilir. Hara getsə də əvvəli, ya sonu həmin ünvana dönür.

**Hava -zad bəhanədi,**
**Könlümün buzu sınıb**
**əriyib qana dönür.**
**Nə yazıram, ya əvvəli,**
**ya sonu sənə dönür.**

Bu dönüşdən sonra yenidən birlikdə aşılacaq qarlı aşırımlar var. Bu aşırımları adlayandan sonra artıq geriyə yol qalmır. Əzablı və eyni zamanda yaşadan ağrıların qoynuna düşdünmü, yol ancaq irəliyədir. İstəsən də, istəməsən də sənindir bu yol.

**İrəlidə tufan, qar**
**Nə də geriyə yol var.**
**Sevgiyə gedən yollar**
**Dərdə aparır bizi.**

Bax beləcə, dərdə gedən yolun başlanğıcına gəlirsən. Bu o dərddir ki, ta qədimdən indiyə kimi duyğu adamlarını yandıraraq yaşadır, yaşadaraq düşündürür. Bu o dərdir ki, onu xırda dərdlərə qurban vermək olmaz. Bəşər tarixinin nəhəngi Füzuli əbəs yerə "Edəməm tərk, Füzuli, səri-kuyin yarın" deməmişdir ki…

**Özünü axtaran kişi,**
**Yolunu qürbətdən salar.**
**Dərd deməz xırda dərdə ki,**
**Dərdini hörmətdən salar.**

Kitabdakı şeirlərin böyük bir qismi "vətənin qıraqda qalan yerləri"nin düşmənin soyuq nəzərləri altında çırpınmasına dözə bilməyən şairin ağrılı duyğularını əks etdirir. Vətəndaş olaraq yaşantıları şair olaraq vərəqlərə hopanda Musa tam görünür. Təkcə "Hər nə varsa" kitabında deyil, bütün yaradıcılığında (həm poeziyası, həm publisistikası) yad əlində qalan torpaq həsrəti ürəkgöynədən misralarla təsvir olunur. Havası saf, asimanı zəngin, torpağı müqəddəs olan yerlərə həsrət qalmağı şairin ruhunu tirədir:

**Çiskini örpəkdi, dumanı şaldı,**
**Çiçəyi məlhəmdi, bulağı baldı.**
**Təmizdi, durudu,safdı, halaldı,**
**Gəl gedək dağlara, dağlar gözəldir.**

Bu arzunun reallaşa bilməməsi illər öncə ba-

şa gələn bəlaların təzahürüdür. Ta qədimdən altı da, üstü də düşmən gözü oyan torpaqlarımız soyuq nəzərlərin məngənəsinə sıxılıb. Sinəsinə çalın-çarpaz dağlar çəkilən Vətən torpağının bir hissəsi indi də bu soyuqluq altındadır. Qarı düşmən bu gözəl yurda tamah salmaqdan əl çəkə bilmir ki… Adına VƏTƏN deyilənin bir qarışı da düşmən əlində olanda tamlığı hiss edə bilmirsən:

**Dönüb qayıtmağa el tapmayanda,**
**Adam adamlıqdan çıxır, İlahi!**
**Dərd başdan tökülür, kürəkdən çıxır,**
**Qabıq tək ayaqdan çıxır, İlahi!**
**Atasız-anasız keçinmək olar,**
**Qardaşsız-bacısız keçinmək olar.**
**Vətənsiz keçinmək olmur, İlahi!**

Və haqlı olaraq sonra da KAFİR ATLARININ DIRNAQLARINDA, ÖLƏN TORPAQLARI KİM QALDIRACAQ,-deyə sual edir. Bu cavabı özünə çoxdan bəlli olan şair sualıdır, o sual ki, onun yaradacağı dəhşəti məhz şairlər öncədən görə bilirlər. Bu da Musa Urudun misralarıdır: "Bu gün olasını dünən gördülər, On beş il sonranı on beş il qabaq." Burda istər-istəmsəz Musa Urudun tarixi mövzuda apardığı araşdırmaları da xatırlamaq lazım gəlir (Amma bunlar  tamam ayrı bir  söhbətin mövzusudur).

Bunlar sadəcə bir insanın düşüncələri deyil, ürəyi Vətən sevgisi ilə dolu olan bir şairin harayıdır. Getdiyim səs hanı, tanrı? Qurtar bu cəzanı, tanrı. Ya apar Musanı, tanrı, Ya qaytar Urudu, Allah!

**Gördüm səni, Göyçə gölü,**
**Düşmədi kölgəm üstünə.**
**Ağırlığın-uğurluğun,**
**Tökülsün düşmən üstünə.**

Bütün bu ağrıların fonunda şair sınmamağı, əyilməməyi təlqin edir. Gözü yolda qalan torpaqlarımızın düşmən tapdağı altında inləməsinə dözə bilmir. Həmişə belədir, yol qurtaranda mənzilə çatmaq üçün yeni yolu sən açmalısan ki, səndən sonra gələnlər də məəttəl qalmasın. Yol qurtarıb, mübarizə ki davam edir. Belə olan halda səndən əvvəlkilərin açdığı cığırı qələbəyə qədər aparmaq üçün dözümlə vidalaşmalısan. Və şair hamını haqlı olaraq dözümsüzlüyə səsləyir:

**Bu döyüş son sınaqdı,**
**Ən gözəl gün sabahdı.**
**Şuşada əcəliylə**
**Gedib ölmək günahdı,**
**Cənnət uman, əsgər ol!**

Və Azərbaycanın Milli Qəhrəmanları Aqil Quliyevə, Fəxrəddin Vəlyəddin oğluna, Sərdar Səfərova həsr etdiyi şeirlərdə cənnət umanların müqəddəs şəhidlik zirvəsinə yüksəldiklərini tərənnüm edir. Ona görə də NƏ QURD VAR, NƏ DƏ Kİ QIRMIZIPAPAQ, ANAM AYRI NAĞIL DANIŞ NƏVƏNƏ, deyir.

"Hər nə varsa" kitabında Musa Urudun "Basayevin ayaqları" və "Bu dəstə hara gedir" poemaları da yer alıb.

"Basayevin ayaqları" poemasını illər öncə mətbuatdan oxumuşdum və ondan təmirlənib eyni

adlı şeir yazmışdım. Və bir də oxudum. O zaman necə təsirlənmişdimsə, yenə də eyni ovqata kökləndim. Azadlıq uğrunda savaşa qalxan bir millətin keçdiyi şərəfli yol gəldi gözlərim önünə. Çünki bunu qələmə alan Musa Urudun SÖZü həmişə təzətər olub.

Musa Urud üçün torpaq ağrısı həmişə müraciət etdiyi mövzu olub. "Bu dəstə hara gedir" poemasında şair 1988-ci ilin dekabr ayının 2-də erməni zülmündən baş götürüb Zəngəzurdan Şahbuza gələn sonuncu 107 nəfər soydaşımızın taleyini qələmə alıb.

Şair Musa Ələkbərlinin redaktorluğu ilə işıq üzü görən bu kitabın haqqında təəssüratlarım olduqca çox idi. Amma bu sətirləri  yazarkən gözümün önünə Musa Urudun sadiq oxucuları gəldi və onların bu gözəl kitabla təmasdan ayırmaq istəmədim. Çünki Musa Urudun çiyninə düşən bir sıra mühüm vəzifələr, ictimai funksiyalar ilk növvədə şair Musa Uruda borcludur. Elə oxucu olaraq biz də. Özü də bunun fərqindədir: SÖZ HAQDIR, SÖZƏ BAŞ ƏY Kİ, SÖZÜN DÜNYADA QALACAQ.

# GEDƏCƏYƏM ÜZÜ HAQQA

… Mələklərin çiynindəcə… Hər ikisi İlham Zamanoğlunun misrasıdır - yazının başlığı da, birinci cümləsi də. "Vektor" Nəşrlər evində Elçin İskəndərzadənin qayğısı ilə çap olunan "Gedəcəyəm üzü haqqa" kitabı, əslində İlham Zamanoğlunun əlinə qələm aldığı otuz il ərzində yaşantılarının ümumi mənzərəsini əks etdirir. Onun şeirləri həmişə zamanın fövqündə dayansa da, zaman onun kitabını oxucularına çatdırmaqda şıltaqlıq elədi.

Kimdir İlham Zamanoğlu, sadiq oxucuları hökmən xatırlayacaqlar. O, mətbuatda ara-sıra çap olunsa da öz auditoriyasını çoxdan toplayıb. Hər halda haqqında bilgi vermək yerinə düşərdi. İlham Zamanoğlu 1963-cü ildə Şəmkir rayonunun Şiştəpə kəndində anadan olub. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Rayonda nəşr olunan "Şəmkir" qəzetinin redaktoru olub. Hazırda Şəmkir rayonunda yaşayıb-yaradır. Vaxtilə rayonda fəaliyyət göstərmiş "Şəmkir inciləri" ədəbi məclisinin üzvü, "Əhməd Cavab adına ədəbi məclis"in rəhbəri olub.

"Gedəcəyəm üzü haqqa" İlham Zamanoğlunun oxucularla ilk görüşüdür. Kitabda şairin müxtəlif illərdə yazdığı şeirlər toplanıb. O, öz yaradıcılığını oxucularına toplum halında gec təqdim etməsinin də az fərqindədir:

**Oxucum, nəyi çox, nə az,**
**Bəlkə ürəyincə olmaz.**
**Varını verən utanmaz,**

**Hələ sözüm budu mənim.**

Bütün zamanlarda onun şeirləri zamanın dolaşıq oyunlarına üsyan olub. Dünyanın yaxşı olmayan oyunlarına şair müxalifliyini ifadə etməkdən heç zaman çəkinməyib. Çünki azad düşüncə həmişə mövcud olan yamanlıqlara qarşı dayanır:

**Çox da Adəm ilk adamla yaşıddı,**
**Hər daşımla, hər qalamla yaşıddı.**
**Həm qədimdi, həm balamla yaşıddı,**
**Bu dünyanın sabahından qorxuram.**

Dünyanın sabahından "qorxuram" deyən şair, əslində bu məqama nə cür gəlib çatdığımızı da öz poetik düşüncələri ilə araşdırır:

**İnam  ümid qoymuşdular,**
**Hər şeyi mərd qoymuşdular,**
**Gedəndə yurd qoymuşdular,**
**Biz qorumağa kişilər.**

İlham Zamanoğluya görə, bizə qorumağa əmanət edilmiş yurdun zaman-zaman yadlar tərəfindən yağmalanması düşmənin amansız olmasına dəlalət etmir. Burda daha incə məqamlar çözələnir. Şairliyi halal haqqı olan İlham Zamanoğlu azad düşüncələri onun canına   əbədilik höpdurmuş Yaradandan ümidini üzmür:

**Böldürənin, bölünənin adı bəlli,**
**Bölünməyin bircə acı dadı bəlli.**
**Bu millətin yağıları, yadı bəlli,**
**Qoru bizdən, qoru bizi, ulu Tanrım!**

Başına min oyunlar gətirilmiş dünyanın işdəklərindən baş açmayan, torpağı sadəcə iməkləmək üçün yer zənn edən körpəsi, gülü-çiçəyi olan

Nübarı indidən zalım dünyanın gərdişlərindən agah etmək istəyir:

**Böyüyəndə tez çıxacaq yadından,**
**Sevəcəksən yıxıldığın bu yeri.**
**Gözümüzü yuxulara çox verib,**
**Yatdığımız balıncların qu yeri.**

**Bu odası, o sarayı bizimki,**
**Ötən qışı, gələn yayı bizimki.**
**Yaşamağa bircə payı bizimki,**
**Bu dünyanın dörddən üçü su yeri.**

Kitabda toplanan şeirlərin bir qismi şairin təbiətlə, gəncləri, gəncliyi əlindən alınmış kəndlə, el-oba ilə canlı ünsiyyətinin tərənnümünə həsr edilib. İlhamın şeirlərində torpaq həmişə canlıdır:

**Torpağın əlində muştuluq payı,**
**Bu yaz qədəm qoyub cığıra gəlir.**
**Səsini içinə çəkən dağ çayı,**
**Təzədən çığıra-çığıra gəlir.**

İlham Zamanoğlunun sevgi şeirləri halal bir eşqin yaşantılarıdır: Bu yaşantılar, oxucu olaraq, bizlərə misralara dönmüş halda gəlib çatır. Düşüncələri, poeziyası özü kimi səmimi olan şairin sevgi duyğularını elə bu ovqatla da oxumalı olursan:

**Salıb bu yoxuşa, bu dağa məni,**
**Gətirmə tənəyə, qınağa məni.**
**Gözəllik önündə sınağa məni,**
**Nə gözəl çəkirsən çək, a bəxtəvər!**

Bu şeirlərin hər biri haqqında ayrıca danışmaq olar. Amma oxucunun da kitabı oxumaq haqqını əlindən almaq olmaz. İnanırıq ki, onlar İlham

Zamanoğlunun "Gedəcəyəm üzü haqqa" kitabı üçün darıxanlar çoxdur. Çünki onların sevdikləri şair halal bir yolun sahibidir:

**Hər şey bəlli özü Haqqa,**
**Ucatlmağa sözü Haqqa.**
**Gedəcəyəm üzü Haqqa,**
**Mələklərin çiynindəcə.**

O yolu İlham Zamanoğlu zatən gedir. Ona bu məqama ilham pərisi olan mələklərin çiynində çatacağına inamlıdır. Elə oxucu olaraq biz də… Çünki onun sözə köklənməsi bir ayrı aləmdir. Özünün dediyi kim, GƏLƏNDƏ BU İLHAM PƏRİSİ, İLHAM, NEÇƏ TƏZƏ-TƏZƏ SÖZƏ KÖKLƏNİR.

# QARA KAĞIZLARIN HÜCUMU

"Yeni xəbər qəzetinin 30 aprel 2005-ci il tarixli sayında Ayaz Vəfalının "Dörd yaşımda fikir çəkdim" poemasını oxudum. Bu poema haqqında düşüncələrimi qələmə alarkən yadıma bir məqam düşdü. Xeyli əvvəl televiziyada hansısa ədəbi verilişə sevimli şairimiz Musa Ələkbərlini dəvət etmişdilər. Səhv etmirəmsə, söhbət Böyük Vətən Müharibəsinə həsr olunmuş bədii əsərlərdən gedirdi. Musa Ələkbərli "Dörd yaşımda fikir çəkdim" adlı bir poemadan danışırdı.

M. Ələkbərlinin yüksək ədəbi zövqünə bələd olduğumdan söhbəti maraqla dinlədim. Amma verilişə yarımçıq baxdığımdan (əvvəlinə baxa bilməmişdim) müəllifinin kim olduğunu dəqiqləşdirməmişdim. Verilişə dəvət olunanlar poemanın ayrı-ayrı hissələri üzərində gəzişmələr edirdilər. Və indi bildim ki, M. Ələkbərli Ayaz Vəfalının məlum poeması haqqında danışırmış və haqlı olaraq bu poemanın müharibənin dəhşətlərini özündə çox ustalıqla əks etdirən əsərlər sırasında olduğunu bildirirdi.

Əvvəla bildiyim qədər poema iyirmi-otuz il əvvəl yazılıb. Ancaq mən bir oxucu olaraq ilk dəfədir ki, oxuyurdum. Son vaxtlar qəzet səhifələrində iri həcmli bədii yazını oxumaq bir az çətinləşib (bunun da obyektiv səbəbləri var. Hər hansı əxlaq düşkününün düşüncələrini də bəzən "ədəbiyyat" adına oxucuya sırıyırlar). Amma Ayaz Vəfalının bu

poemasını nədənsə elə ilk dəfədən maraqla oxumağa başladım.

Birincisi, mövzusuna görə. O müharibənin dəhşətlərini qələmə almağın mən indi də tərəfdarıyam. Keçmiş imperiyanın bir vaxtlar hamımızın Vətəni olduğuna indi niyə rişxəndlə yanaşaq… Rejimindən, quruluş formasından asılı olmayaraq Vətən Vətəndir. Aradan illər ötəndən sonra bir əsrdə ikinci dəfə öz müstəqilliyimizə qovuşduq. Guya müstəqil məmləkətimizdə indi hər şeymi yaxşıdır… İndi sevməyəkmi Azərbaycanı… İndi onu soyuq nəzərlərdən qorumayaqmı… Və bütün bunlara ədəbi güzgü tutmayaqmı…

"Dörd yaşımda fikir çəkdim" poemasının süjet xətti də maraqlıdır. Əsər elanlarla başlayır. Bu elanlarda hamı axtarır: kimsə qardaşını, kimsə bacısını, kimsə valideynlərini. İstənilən savaşda itki var, o müharibədə itki xüsusilə dəhşətli olub. Bu dəhşətlər poemada hüznlü bir dillə təsvir olunub:

**Çörək tapa bilmədim-**
**Qaldım ac.**
**Çəksin mən çəkənləri**
**Ehtiyac.**

Uşaqları vaxtından tez qayğılarla baş-başa qoyan, ahıllaşdıran müharibə əsərin müəllifini dörd yaşından sınağa çəkib:

**Anamın göz yaşları,**
**Əridərdi daşları.**
**İztiraba verdim sinə-**
**Azalsın ana dərdi;**
**Ağır kişi məclisinə,**

**Anam məni göndərdi!**

Vaxtından tez qismətinə ağsaqqallıq düşür qəhrəmanın. Xatirələri hafizəsində böyüdən A. Vəfalı sonralar onu şair olaraq bir daha yaşayıb. Poemanın hər fəslində ürəkparçalayan bir yaşantı, hər misrasında bir üzüntü var:

**Hələ axır ürəyimdən,**
**Anamın o göz yaşı.**
**Atamın tay-tuşuyla mən,**
**Oturardım yanaşı.**

Atası döyüşlərdə olan bir uşağın yaşantılarını şair bədii olduğu qədər də təsirli dillə təsvir edir.

**Nələr varmış başımda,**
**Hansı dərdə qalaydım.**
**Mən bu uşaq yaşında ,**
**Necə atam olaydım?..**

Müharibə qurtarmaqla ağrı-acılar bitmir. Ondan sonra ölkəni hər yana yağış kimi səpələnən QARA KAĞIZLAR işğal edir. Sanki indi də bu qara kağızlar hücuma keçir. Bu haqda hər birimiz yaşlılardan eşitmişik. Müharibədən ağır idi, o qara kağızların gətirdiyi həyəcanı yaşamaq. Döyüşlərin başa çatmasını gözləyənlərin indi də bu qara xəbərli məktublar qəsdinə dayanmışdı. Belə məqamda -itkin düşüb- xəbəri hələ bir az ümidverici idi:

**Kağızlar uçdu kəndə-**
**Köhnə, sarı varaqlı;**
**Kağızlar düşdü bəndə,**
**Qara xəbər soraqlı.**

Hərbi komissarlıqların önünə axışanlar bir-birindən nəsə xoş xəbər eşitmək istəyir. Üzücü

mənzərədir. Özgələrin taleyindən nə isə eşitmək olur, amma hamı özündən, özününkülərdən xəbərsizdir. Həqiqətən də belə idi. Bir qara xəbəri qonşuya demək olurdu, bu xəbərin yiyəsinə yox:

**İnsanlara baxın siz,**
**Nə qəribə səhnə var:**
**Özlərindən xəbərsiz,**
**Özgələrdən xəbərdar...**

Və beləcə hamı itkin düşənini axtarır. Ömrün sonunacan bu axtarış davam edir. "Dörd yaşımda fikir çəkdim" poemasında yaşantıları qələmə alınan atasını itirmiş uşağın anası da eyni həsrətlə ömrünü əridir.

**Nəfəs aldım ətriylə,**
**Anam mənə gül oldu.**
**Atamın həsrətiylə,**
**Yandı, yandı, kül oldu.**

Poema başdan-başa üzüntülü nota köklənib. Bu yaxşıdırmı, pisdirmi, demək bir az çətindir. Amma o da həqiqətdir ki, bu üzüntünü nəyləsə əvəz etsən, yamaq kimi görünər. Necə deyərlər, hər şey məqamında gözəldir. İtiyi itəni hansı xoş ovqatda görməliyikmiş… Çoxlarını ağız büzdüyü bu tipli əsərləri indi dərc etmək məqamıdır (Bu baxımdan "Yeni xəbər"in gördüyü işi yetərincə gərəkli sayıram). Şair poemanın sonunda bunu etiraf edir:

**Demə bunlar nə lazım,**
**Könlüm ələk-vələkdir...**
**Xeyir-dua ver, yazım,**
**Tarixlərə gərəkdir!..**

Əlifbamız latın qrafikasına keçəndən sonra

yeni nəsil üçün çox az iş görülüb. Yaxşı ki, bu boşluğu qəzetlər doldurmağa çalışır. Unutmayaq ki, onları yaxın tariximizdən xəbərsiz qalma təhlükəsi gözləyə bilər.

# GÜLLƏLƏNMİŞ "XALÇA"dan LƏNƏTLƏNMİŞ "QIFIL"a QƏDƏR

Haqqında danışmaq istədiyim bu kitabı təkcə Qarabağ savaşından bəhs etdiyinə görə də hərisliklə oxuyasıydım. Amma təkcə bu deyildi axı. Oxuduqca yazıçının poetik dilinə, təhkiyə üsuluna, insanı sarsıdan mənzərələri çəkmə bacarığına heyran qalmaya bilmirsən. İbrahim İbadoğlunun "Qıfıl"ından danışıram. O QIFILdan ki, açarı diqqətli oxucunun əlindədir.

Son vaxtlar oxuduğum nəsr əsərləri içərisində Seyran Səxavətin "Nekroloq", Elçin Hüseynbəylinin "Balıq adam", Əyyub Qiyasın "Qara işıq" əsərləri xüsusilə ləzzət eləyib. Bu yaxınlarda imzası özünün tənbəlliyindən oxuculara o qədər də bəlli olmayan (ədəbi ictimaiyyət nəzərdə tutulur. Çünki İbrahim İbadoğlu "Azərbaycan ordusu" qəzetinin redaktor müavini kimi, publisist kimi öz oxucularına malik bir qələm adamıdır) İbrahim İbadoğlunun "Qıfıl" kitabını oxuyandan sonra nəsə yazmağa ehtiyac duydum. Bu sadəcə yaranan həvəs deyildi. "Xalça" və "Qıfıl" əsərlərinin toplandığı bu gözəl kitab sözün əsl mənasında böyük bir yazıçının ədəbi ictimaiyyətdən gizləndiyini bir oxucu kimi mənə diqtə elədi (Məlumat üçün deyim ki, İ. İbadoğlu əv-

vəllər İbrahim YERGÖY imzası ilə gözəl şerlər yazırdı. Ara-çıra çap olunsa da, sonralar nəsrə keçdi).

Əvvəla, əsərlərin mövzusu barədə. Milli azadlıq hərəkatı başlayandan, torpaqlarımıza soyuq nəzərlər dikiləndən Qarabağ savaşını özündə əks etdirən tək-tək nəsr əsərləri yazılıb. Elə hesab edirəm ki, İbrahim İbadoğlunun "Qıfıl" kitabı bu boşluğu xeyli dərəcədə doldura biləcək. Nəsrin poetikasının nə olduğunu izləmək istəyənlər bu kitabı diqqətlə oxumalıdırlar. Əsərlərin heç birində sadəcə olaraq gözucu oxumaq üçün səhifə tapmaq mümkün deyil. Bir də ki, əsərlərin dili, çəkilən tablolar, ürək göynədən təsvirlər onsuz da ötəri oxumağa imkan verməyəcək: "Dağların ovcunda - qalın meşənin köksündə salınmış yurd can verərdi. Elə bil mahir ovçu öz bədbəxt şikarını qova-qova gizli tələyə- dərin dərəyə salmışdı. Alışıb yanan sakinsiz evlərin tüstüsü ərşə qalxırdı".

Povestdə hər bir məqam təsirlə qələmə alınıb. Nicat bəy sürgün olunmuş Kərbəlayı Fərruxdan gələn bir parça kağızı ölümlə çarpışdığı anda alır.Oxumağa təqəti çatmadığından məktub ovcuda keçinir: "Kərbəlayı Fərruxun yazdıqlarından heç kəs xəbər tuta bilmədi. Nicat bəy barmaqlarını ovcuna sıxmışdı. Əlinə batmış dırnaqlarının arasından hələ də qan süzülürdü. O balaca kağız parçası da hələ doymamışdı - Nicat bəyin qanını hələ də

sovururdu, hələ də öz canına çəkirdi. O balaca kağız parçasının iştahası camaatı da çaşdırmışdı".

"Xalça" sadəcə bir cehizlik xalçası deyil. Bu xalçada bütöv Azərbaycan yaşayır. Müharibənin və bütövlükdə taleyin ağrılı məqamlarını yaşamağa məhkum olunan Fatma qarı döyüşlərin viran qoyduğu kəndində, Bozdarla tək-tənha kəndə sahiblik edir. Onu mərmilərin üstünə yağdığı kəndi atıb getməyə qoymayan təkcə divardan asılan, taleyinin bütün ağrı-acıları üzərində əks olunan xalça deyil, bu xalçanın fonunda yazıçının böyük istedadla təsvir etdiyi Azərbaycandır. XALÇALARIN NAXIŞ KARVANI KÖÇ EDƏNƏ, arxasında Fatma qarını gizlədən xalça güllənənə qədər onun nəfəsi buralara həyan olur: "Xalça da yerində qalmadı. Sinəsini irəli verdi, irəli yeridi, elə bil. Saplağı qurumuş yarpaq kimi əsə-əsə yıxılmamaq üçün divara söykənən kimsəsiz qarıya qahmar çıxdı.

Əsl həqiqət təmənnasız gözəlliklə üz-üzə dayanmışdı. Onlar heyrətlə xalçaya baxırdılar. Müharibənin çopur sifətində həyat nişanəsi duyulmurdu, amma kükrəyib daşan qan gölündə intəhasız sevgi təşnəsinə çevrilmiş bu balaca ada mərmilərə can verməmişdi".

Torpaq itkisinin bir ucu da ölüb yaşamağı bacarmadığımızdan deyilmi? İbrahim İbadoğlu "Xalça" povestinin qəhrəmanının şəxsində ölüb

yaşamağın nə olduğunu poetik bir dillə təsvir edir.

Əsərin dili adamı heyran qoyur: "Ancaq bütün varlığıyla inadkarcasına öz durğun keçmişinə sığınmış bu iddialı komanı müharibənin od-alovu da xəyallarından ayıra bilməmişdi. İndi o, tənha, kimsəsiz sahibini isti ağuşuna alıb kəndin ikimərtəbəli, işıqlı evlərinə acıq verə-verə arxayın-arxayın mürgüləyirdi. Yurdun günəşi-ayı da, torpağı-suyu da, sahibinin sevgi dolu hərarətli nəfəsi də - hər şey, hər şey onunku idi".

Kitabdakı ikinci əsər oxuduqca dadından doyulmayan "Qıfıl"dır. NAXIŞLARIN KÖÇ KARVANI YOLA düzələndən sonra da yazıçı oxucunu o aləmdən ayırmaq istəmədiyindən QIFILın tilsiminə salır. İkinci əsəri birincinin davamı kimi də oxumaq olar. Oxumaq olar, amma davamı deyil, ayrı əsərdir. Sadəcə burada da hər şey - birincisi DƏRD eynidir. Əgər "Xalça"da viran qalmış kəndin, sonuncu sakini Fatma qarının xalçalı taleyi qələmə alınmışdısa, "Qıfıl"da yağmalanmış talelərin durumu ustalıqla təsvir olunur.

Bilərəkdən bu əsər haqqında söz açmıram. Çox vaxt bir əsər haqqında ətraflı məlumat veriləndən sonra oxumaq istəyinin azaldığının şahidi olmuşuq. Mövzu yenə də Qarabağ savaşıdır. Bu mövzuya bir qayda olaraq sadiq qalmağı İbrahim İbadoğlunun həm hərbçi kimi döyüşlərin ağrı-acısını yaxından duymağında, həm də onun vətənpər-

vərliyindədir.

Sonda üzümü diqqətli oxuculara tutmaq istəyirəm. Bu kitabı tapın oxuyun.Ən azından torpaqlarımız düşmən tapdağına düşəndən bəlkə də bu qədər dəyərli əsər oxumamısınız. GÜLLƏLƏNMİŞ "XALÇA", LƏNƏTLƏNMİŞ "QIFIL" sizlərə doyumluq təsir bağışlayacaq. Elə kitabdakı əsərlər haqqında geniş danışmamağımın bir səbəbi də budur. İbrahim İbadoğlunun yenicə çapdan çıxmış kitabını oxusanız, uduzmazsınız.

# BU DÜNYADA BİRCƏ HALAL ADAM VARSA, O DA YOXDUR

Şübhən varsa, İbrahim İlyaslının şerlərində ara bunu:

**Hardasan, ay haqqa-zaval,**
**Səninkidi bu cah-calal.**
**Bu dünyada bircə halal,**
**Adam varsa, o da yoxdur.**

deyən şair SÜKUTUNDAN ASILMAĞA BİR KOMA, BİR ODA AXTARIR. Baş götürüb getməyə kimsəsiz ada gəzir. Çünki şair qənaətində haqlıdır ki, DÜNYAYA KEFƏ GƏLMİRİK, BİR AZ DA GÖZ YAŞIN OLSUN. kimsəsizlikdə dada yetən göz yaşı. Çərxi-fələyin gərdişindən az-çox hali olanlar İbrahim İlyaslının

**Dünyanın ən böyük işi,**
**Bələkdə körpədən keçir-**

fikri ilə razılaşmaya bilməzlər.

…Bir neçə ildir ki, Sumqayıtda Əli Kərim adına Poeziya ocağında neçə-neçə gənc yazarları cəm eləyən şair İbrahim İlyaslının "Ağrıdağ" nəşriyyatında çapdan çıxan "Hamı bir körpüdən keçir" adlı şerlər kitabını oxuyandan sonra HAMININ BİR KÖRPÜDƏN KEÇDİYİNƏ şübhə ilə yanaşmazsan. Poeziya klubuna rəhbərlik etdiyi müddətdə neçə-neçə gənc şair və yazıçının kitabının nəşrin-

də müstəsna xidmətləri olan İbrahim nəhayət ki, özünə də bir gün ağlamağa vaxt tapdı. Şəhər ədəbi mühitinin formalaşmasında böyük rolu olan şairin özündə bəlkə də ilk kitabın sevinci deyilən hiss qalmayıb. Ancaq mən əminəm ki, onu qəzet-jurnal səhifələrindən sevən oxucuları artıq buna sevinibdir.

**İl olunca gün var, ay var,**
**Hər şeydən hamıya pay var.**
**Bu dünyada bircə çay var,**
**Hamı bir körpüdən keçir.**

İbrahim İlyaslı Akif Səmədin ön sözdə yazdığı kimi söz üçün heç kəsin qapısına borca gedən şair deyil. Şerlərinin birində özü haqqında yazır:

**İnadımdan aşağıyam,**
**İnamımın işığıyam.**
**Mən dərdimin aşığıyam,**
**Məni oxudan oxudur.**

Sazlı-sözlü bir ocaqda dünyaya göz açan İbrahim elə ömrünü o sazın, o sözün işığında yaşıyır. BİR AZ BU AĞACA, BİR AZ O DAŞA, BİR AZ BU TORPAĞA OXŞAYIRAM MƏN -deyən şair KƏLMƏ-KƏLMƏ əriməyini, SƏTİR-SƏTİR yaşadığını da etiraf edir:

**Ahımdan qaya laxlayır,**
**Halıma quşlar ağlayır.**
**Məni bir ALLAH saxlayır,**

**Bir də səbr, yaşayıram.**

İbrahim İlyaslının "Hamı bir körpüdən keçir"- kitabı ciddi təhlilə ehtiyacı olan kitabdır. Yəni ki, tənqidçilər onun sətir-sətir, misra-misra yaşadığı anları nə vaxtsa çözələyəcəklər. Mən sadəcə olaraq bir Allah adamının gecikmiş sevincinə İbrahim sevərlərin adından qoşulmaq istədim. Haqq axtara-axtara hərdən nahaqqa dirənən, ağrılı-acılı şair ömrü yaşayan İbrahimin poetik həqiqətləri bir kitabça şəklində oxucuların ixtiyrındadır:

**Bu bazardı, seç, nə yoxdur?!**
**Bu ömürdü - köç nə yoxdur?!**
**Haqq deyilən heç nə yoxdur,**
**Ancaq dəyər axtarmağa.**

Dəyər…

# MƏNDƏN GİZLİN AĞLAMISAN DEYƏSƏN

…Keçən il də Faiq Balabəylinin ad günündə mətbuatda təbrik yazısını mən yazmışdım, onda "dörd divar" bizdən o yanda idi. Özü də bilirdi ki, orada nəyin günahını çəkirdi:

**Sənsizlikdən darıxıb,**
**Dərindən ah çəkirəm.**
**Mən şer yazmıram ki,**
**Sözlə günah çəkirəm.**

Bu il də mən yazıram. Yoruldum-demək istəmirəm, yanlış anlamayın. Onda yazmaq daha rahat idi. Demirəm ki, yenə qayıtsın ora, rahatca təbrik edək.

Amma… Hətta günahkar olub cəzasını çəksəydi belə, çöldə bir kimsənin haqqı çatmırdı ki, onu insani hüquqlardan məhrum etsin. Qırx beş illik ömrünün iyirmi beş ilini həsr etdiyi dənizçi-şairi xidmət göstərdiyi hər iki sahədən didərgin saldılar. Özü də təkcə dənizçi olmağı yetmirdi. Dənizi ədəbiyyata gətirənlərdən birinin məhz Faiq Balabəyli olduğu yaddan çıxırdı-həm DƏNİZdəki, həm də ƏDƏBİYYATdakı yönətmənlərin yadından… Niyəsini özü hamıdan yaxşı bilir. Bilal Alarlının təbirincə desək, dövrümüzün zindan ədəbiyyatını yaradanlardan biri kimi, Faiq Balabəyli öz halal haqqına qovuşmalıdır.

Onun halal haqqı bir az da qəzetdəki fəaliyyətindən keçir. Onun qəzetindən danışan kimi, nədənsə çoxunun yadına Faiqin məhbəsə atılmağı düşür. Yəni, dolayısıyla demək istəyirlər ki qəzeti onun zindanlara atılmasına qədər yol gəldi. Deyək ki, burası bəlli. Amma… Nədənsə unudulur ki, adını "tanınmayan", "aztirajlı" qoyduqları bu qəzet ("Yeni xəbər") İspaniyanın "Yutlandes Posten"i ilə döyüşürdü. VƏHŞİ QƏRBİN ŞƏRQƏ HÜCUMUnun qabağına sinəsini vermişdi. İsveçrədə "İlin qəzeti" nominasiyasının qalibi olan (yol xərci tapa bilmədiyindən gedib hələ mükafatını ala bilməyən), səsi gedib "Vaşinqton post"a çatan qəzetin harayı qəflət yuxusunda olan bizimkiləri oyada bilməmişdi onda. Əvəzində şərlənib zindana salındı və ancaq orda anladı ki, böyük sevgilərin hərdən böyük cəzası da olur:

**Yağış isladıb yolu,**
**Yoxsa sənin göz yaşın.**
**Məni sən tək ağlamaz,**
**Nə bacım, nə qardaşım**

Zamanın ironiyasına bax ki, dinimizin, inancımızın müdafiəsinə qalxan bir qəzetin üstünə səlib yürüşü elədik özümüz. O cür münasibət davamlı olaraq indiki səviyyəyə gətirib çıxarmalı idi. Əgər onda Məhəmməd Peyğəmbərin karitkaturasını dərc edən təkcə "Yutlandes Posten" idisə, indi bu "posten"lərin sayı beşə çatıb. Sabah desələr ki, bu namussuz hərəkata beş ölkə qoşulub, - təəccüblənmərəm. Gör bircə nəfər səsini çıxarırmı... Qoç döyüşü lazımdır axı… Bəlkə indi yada düşə Faiq

Balabəylinin "Yeni xəbəri". Çünki zaman belələrinin oldu, məkan yox:

**Burda oğrular doğru,**
**Doğrular oğrudur.**
**Buranın hökmü**
**oranın hökmündən**
**qəddar və ədalətlidir.**
**... Burda darıxmaq olmaz.**
**Həm də darıxmamaq.**

Danmaq olmaz, Faiqi qəbul etməyənlər qəbul edənlərdən xeyli çoxdur. Mən bunu onunla üzdə xoş görüşənlərin davranışlarında çox hiss etmişəm. Müxtəlif səbəblər də axtarmaq olar. Amma ortada olan bir halalca səbəb var ki, ona ağız büzənlər Faiq Balabəyli yaradıcılığından tamamilə xəbərsizdirlər. Və yaxud nə vaxtsa oxuduqları, amma yaddaşlarına həkk olunmayan bir şerinin onlarda yaratdığı ovqata köklənib qalıblar.

O da mümkündür ki, Faiqin yaşam tərzində kimlərisə, nə isə qane etməyib (Bəzi hallarda heç məni də… Hələ deyim ki, səbəbini özüm üçün aydınlaşdıra bilmədiyim inciklyim də var). Amma bütün bunların Faiqin yaradıcılığına nə aidiyyatı var ki… O, daha çox bu haqqını ala bilməyib. Qəzetinin səhifələrini istedadlı qələm dostlarına peşkəş edən Faiq, heç bir əlamətdar günündə həmin o istedadlı dostların yadına düşmür (Əvəz Zeynallını çıxmaq şərtilə. Adam Faiqi məhbəsli günlərində gündəmdən düşməyə qoymadı). Bəlkə burda bir az ifrata varmaqlıq da var.  Fakt ki, ortadadır.

Hətta mən Faiqin doğma yazarlar diyarı olan

Cəlilabadlı həmkarlarının hazırladıqları icmallarda, bəzi mətbu çıxışlarında onun imzasını xəsisliklə hallandırdıqlarını hiss etmişəm. Bir daha xatırlayıram ki, burda başqa səbəblər axtarmaq yersizdir, bunlar ancaq mütaliəsizlikdən irəli gələ bilər. Sözümü qəribliyə salmaq istəyənlər, heç olmazsa, son vaxtlar mətbuatda dərc olunan şerilərini oxusunlar. Elə iyirmi il əvvəl yazdıqlarını da oxuya bilərlər:

**Bir quru nəfəsdi, o da vaxt gələr,**
**Görərsən budu ha getdi, gəlmədi.**
**Mənim xoşbəxtliyim sənin dilində,**
**Havaya deyilmiş quru kəlmədi.**

Azər adlı bir dostumuz deyir ki, Faiq qiymətini almayan uğurlu şairdir. Qoy elə onun qəzet yazılarını qavramayanların acığına qəzetçiliyin daşını atsın. Bunu edə bilər, şairliyini ki, ata bilməz.

… Bilir hər şeyi. Adam sevər yerindən vurulanda sarsıntıdan gec ayılır, bəzən də heç ayılmır. Uşaq deyil ki, özü hər şeyin fərqindədir, həyatı və yazılarıyla:

**Görübən gəlirəm mən bu dünyanı,**
**Hər şeyi yerinə öncə qoymuşam.**
**Əllərim üstündə yeriyirəm ta,**
**Yorğun ayağımı dincə qoymuşam.**

Bilir ki, tuşlanan oxlardan ürəyi qorumaq mümkün olsa da, onu bir soyuq baxışdan, biganə duyğulardan qorumaq çətindir:

**Bilinmir varlığın, bilinmir yoxun,**
**Sənin tək çəkilib gözümdən yuxum.**
**Gördüm ki, sinəmə tuşlanıb oxun,**

**Onçün ürəyimi küncə qoymuşam.**
Və bir də onu bilir ki:
**Təməli qoyulur ayrılıqların.**
**Hələ çiçəklərin ləçəyi nəmli,**
**Hələ buludların gözləri yaşlı.**
**Günləri qabaqda gözləyir bizi,**
**Mən yaxşı bilirəm darıxmaq nədir,**
**Mən yaxşı bilirəm ayrılıq nədir.**

Özüm də sevmirəm ad günlərini qeyd etməyi, elə bilirəm ki, tanışların da əksəriyyəti mən qənaətlidir. Nədənsə, belə düşünürəm (mümkündür ki, mənim düşüncəm yanlış olsun). Amma Faiq Babəylinin ad günündə, özü də qırx beşin tamamında, ürəyimdən nəsə yazmaq keçdi. Gərək hər şeyi vaxtında deyəsən. Yadıma Faiqin iyirmi beş il əvvəl yazdığı misraları düşdü:

**Bircəciyim, de sözünü, duruxma,**
**Ömür keçir gözləyəmməz yaş durub.**
**Məndən gizlin ağlamısan deyəsən,**
**Qurumayıb, yanağında yaş-durub.**

Ad günü təbriki yazmaq istəyirdim ha…

# BİR TİKƏ DƏ BÖLÜNMƏYİB, ÜRƏYİMDƏ VƏTƏN MƏNİM...

Abrına qısılıb SÖZə tapınanlardan biri kimi Qurban Cəbrayılla tanışlıq hər hansı halda (həm sözünə, həm də özünə görə) maraqlıdır. Mən hər ikisi ilə küll halında eyni vaxtda tanış olmuşam. Və qürur hissi duymağımda haqlıyam. Bu haqqı mənə Qurbanın sözü (həm  də özü) verib. "Azıb gəlmişəm dünyaya" desə də əslində məqamında gəlib. Mədəni həyatımızın çat verdiyi bir zamanda beləlärinin gəlişi zərurətdir.  Onun bu yaxınlarda çapdan çıxmış "Azıb gəlmişəm dünyaya" kitabı çox şey deyir.

**Gah yağış kimi enərəm,**
**Gah çeşmə kimi dinərəm.**
**Yenə torpağa dönərəm,**
**Sızıb gəlmişəm dünyaya.**

Qurbanın kitabında  bir nisgil də yuva salıb. Anasızlıq onu dünyanın bütün dərdlərindən əzablı olan bir qayğı ilə yükləyib. Analı dünyasının qayıdışına əmin olmasa da, ilıq misralarla baş-başa qoyur oxucunu.

**Səninlə itirdik ən qiymətli ləl,**
**Ay ana, talanmış yurd-yuvama gəl.**
**Başımda həniri qalan doğma əl,**
**Ölümün telini hörüb, qayıtmaz.**

Və bilir ki, bu fani dünyada onu hər ağrı-acı-

dan, şərdən-xatadan qoruya biləcək ANA ruhu var:

**Hallalıq zinətsə həyat tacıma,**
**Ötüşən illərə Qurban, acıma.**
**Çoxdandı sığala həsrət saçıma,**
**Anamın əlləri dəysin, oyanım.**

Bəzən yaxşı sözləri yaxşı olmayanlara da aid etdiyimizdən o ifadələri urvatdan salmışıq. O qədər torpaq adına mərsiyə deyib, sonradan da onunla bazar dilində danışanları görmüşük. Sinəsi parçalanmış yurda üstəlik bir söz yarası da vurmaq nəyə lazım... SOYUQ DÜŞMƏN BAXIŞLARINA TUŞ GƏLƏN TORPAĞIMIZIN ağrılarından yazanda gərək heç olmasa Qurban Cəbrayılın yazdıqlarını oxumuş olasan. Onda görərsən ki, çoxları kimi yalançı harayla yox, ağrını ağrı notları üstündə kökləyən şairin ürəyində VƏTƏN bütövdür. Balaca bir topluda bu böyük ağrını bizə misralarla çatdırmağı bacarıb, özü də özünəməxsus tərzdə:

**Qamətini həsrət əyib,**
**Sinəsinə min ox dəyib.**
**Bir tikə də bölünməyib,**
**Ürəyimdə Vətən mənim.**

Heç görün, zərrə qədər də olsa yersiz hayqırtısı, pafosu varmı. Əsir qızlarımızın taleyini Qurban kimi yazanda ağrılarımızın çəkisini bilirik. Qışqırmaqla əslində biz hər şeyi unuda bilirik. Bu qan yerdə qalmaz-deyə-deyə- yerdə qoyuruq bu qanı:

**Xatirə keçmişə körpü, danışaq,**

**Şuşanı, Laçını ondan soruşaq.**
**Kişilər səfinə necə qarışaq,**
**Yanında üzümüz qara, əsir qız!**

Elə bu səbəbdəndir ki, şairin poeziyasında mizanı pozulmuş bu boyda dünyanın "evsiz-eşiksiz" dərdini görə bilirik. Elə buna görədir ki, bunca çalxalanmaya dəyməyən dünya öz evində ola-ola ayaq üstədir:

**Yolu üstdə silah, qala,**
**Dönər yoldan sağa, sola.**
**Öz evində ola-ola,**
**Dünya ayaq üstdə qalıb.**

Dünən də belə idi, indi də belədir. Və yəqin ki, nəyi niyə elədiyimizi anlayana kimi zaman haqlayır izi. Hələ ki, dünyanın yaxşılığı, igidliyi başa düşüb qiymətləndirməyi bacarmayan vaxtıdır. Belə məqamda sözdən başqa kimsəsi olmayanlar elə söznən də müdafiəyə qalxırlar:

**Özünü böyüdüb haqq eyləyənlər,**
**Vaxt gələr, tarixin önündə inlər.**
**Oğlunu, qızını gülləyənlər,**
**İndi də nəvəni tuşlayır, babam.**

"Azıb gəlmişəm dünyaya" kitabı haqqında ilk təəssüratlarım idi bunlar. Daha doğrusu təəssüratlarım daha çox idi. Sadəcə olaraq, mənim düşüncəmə görə, hər hansı kitab haqqında çox yazmaq oxucuda müəyyən qədər təsəvvür yaratdığından onda oxumaq hissini öldürür. Dəfələrlə sınaqdan

çıxıb.

Qurban yaxşı bilir ki, nəyin yolunda ömrünü fəda edir. Bir şerində dediyi kimi:

**Mənzilim uzaqdır, tənhalıq ağır,**
**Arxamca alqışlar, qarğışlar yağır.**
**Yolumu bir ordu kəssin, sən çağır-**
**Gəlməyə nə var ki? Gücüm çatacaq.**

İnanırıq ki, Qurban Cəbrayılın gücü çatacaq. Gücü çatacaq ki, keşiyində dayandığı sözü amansız hücumlardan qorusun.

# FƏXRİ MÜSLÜMÜN YAŞANTILARI

Hər təzə kitab yeni düşüncə, yeni yaşantı ilə görüşdür. İndiki iqtisadi çətinlik dövründə onsuz da dözülməz güzəran sahibi olan qələm adamlarının kitab çap etdirə bilməsi böyük bir işdir. Fəxri Müslümün "Koroğlunun Şınıx səfəri" kitabı da məndə beləcə bir təəssürat yaratdı. Onsuz da nə vaxtsa tənqidçilər, tədqiqatçılar onun yaraıcılığı haqqında öz sözlərini deyəcəklər. Hər halda deyəcəklərinə ümidliyik (Baxmayaraq ki, bu, bir təxmindir. Heç kimə sirr deyil ki, bir sıra tənqidçilərimizin fəaliyyətində tanışlıq, münasibət faktı əsas rol oynayır. Nədənsə yaddan çıxarılır ki, əsas münasibət şəxsi müstəvidən çıxmalı, ortadakı bədii əsərə istiqamətlənməlidir).

Kitab haqqında bələdçiliyi də müəllif özü edir. Kitabına yazdığı ön sözdə bildirir: "Bir yaz ağzı alça ağaclarının tumurcuqları çiçək açanda, Qaban-Qoç bürcündə Gədəbəyin Şınıx mahalında Düz-Rəsullu köyündə dünyanın, özüm də anlamadığım işığına gəldim, işıqlanmaq, ağarmaq istədim". Maraqlı yaşantılardır. Heç də hamı əhatəsində olduğu qeyri-adiliyi duya, duysa da onun sorağına düşməyə meylli deyil. Sözsüz ki, bu istək qələm adamlarında daha çox olur. İllah da dünya işığına yüyürməyin mahiyyətinə varmaq adi istək ola bilməz. Fəxri Müslüm bu BÖYÜK İSTƏK naminə sarıldığı qələmlə şerdə də, nəsrdə də özünün duyduğu həqiqətləri elə özünəməxsus da bizlərə çatdıra bilir. İŞIQLANMAQ istədim deməyi də təsadüf

deyildi. Bu bir həyat həqiqəti idi, zərurət idi. Çünki bir il əvvəl çap olunan "Şınıx elindən salam olsun" kitabı ilə İŞIQLANA bilmişdi:

**Dünya əllərimin cizgiləridir,**
**Xeyri, bərəkəti görünür burda.**
**Dünya-bəbəyimin uzaq nöqtəsi,**
**Yüküylə çiynimə dirənir burda.**

Bu günlərdə "Avropa" nəşriyyatında çap olunan "Koroğlunun Şınıx səfəri" kitabındakı işıq isə nəsrin işığıdır. Özü yazdığı kimi yaşantılarının bir hissəsidir. Kitabda Fəxri Müslümün "Son yaylaq və yaxud Talıb kişinin alaçığı", "Qoyun əhvalatı", "Köç havası", "Ağrı", "Şillə", "Xındı" və s. hekayələri, "Koroğlunun şınıx səfəri" dastanı, "Ocaq və qan" pyesi, bayatılaşan dünyamız haqqında qeydləri, eləcə də bir çox şair və yazıçılarımız haqqında müxtəlif vaxtlarda yazılmış publisistik qeydləri toplanıb.

Əksər hekayələrində, xüsusilə "Şillə" hekayəsində işığa doğru yaşam tərzinin nişanələri bir daha özünü bürüzə verir: "Ancaq bizim hər ikimiz bu payız sevincinin içində sabahın dəyirman daşı kimi fırlanan işıqlı günlərini görürdük". Qəhrəmanın gələcək dünyasının işıqlanmasında İslam müəllimin şilləsi bələdçi rolunu oynayır. Hekayədə kənd həyatı, kənd uşaqlarının saf düşüncələri olduğu kimi təsvir olunur. "Xındı" hekayəsində təsvir olunan hadisələr isə "Şillə" hekayəsində cərəyan edənlərin əks xarakterli davamını xatırladır. Hadisələr təxminən demək olar ki, bütün kənd məktəblərində cərəyan eynilə cərəyan edib. Kimdənsə qi-

sas almaq istəyən bir şagird digərini evlərinin həndəvərindən keçən yolda yaxalamaq istəyib. Hekayənin qəhrəmanı Xındı da Altunu beləcə yaxalamağı arzulayırdı. Və Altuna da elə gəlirdi ki, nənəsigilə gedən bütün yollar Xındıgilin evinin yanından keçir, dünyanın başqa yollaprı yoxdur. Amma "düşmən"inin atası ona nənəsigilə gedəndə alt tərəfdəki yoldan istifadə etməyi məsləhət görür. Beləcə hər şey davam edir. Xındı üst yolda gözləyir, Altun alt yoldan keçib gedir.

Müəyyən qədər mübahisələr "Koroğlunun Şınıx səfəri" hekayə-dastanı ətrafında yarana bilər. On doqquzuncu əsrdə yaşayıb-yaratmış bir haqq aşığını birdən-birə iki əsr ondan əvvəlki hadisələrə, özü də əfsanələşmiş bir dövrə gətirmək, Halaypozanın sevgilisinə əsrimizin ən sevilən adlarından olan Aytac adı qoymaq tarixi uyğunsuzluq yaradır. Amma nəzərə alanda ki, bu toplanmış folklor nümunəsi-dastan deyil, sadəcə hekayədir, təxəyyülə haqq qazandırmaq olar. Çünki hekayədə ümumiyyətlə Koroğlu hərəkatına yeni bir baxış var. Koroğlu özü də vaxtilə türk paşalarına qarşı mübarizəsini əsl mübarizə adlandırmır. Əsl mübarizə qan qardaşlarına qarşı aparılmamalı idi…

Zövqlərin parametrlərinin müxtəlif olduğunu nəzərə alsaq belə, oxunmalı kitabdır. Yaşantıların şerlə ya nəsrlə ifadə olunması yazardan asılı olmayan amildir. Əsas odur ki, Fəxri Müslüm onları ədəbi dillə ifadə etməyi bacarır.

# QALDIR ƏLİNİ GÖYLƏRƏ, TANRINI QUCAQLA, ŞAHİN!

Sözün düzü, mütaliə sarıdan problemim olmasa da, Əhmədağa Şahinin yaradıcılığını tam dolğunluğu ilə izləyə bilməmişəm. Son illər nəşr olunan kitabların da taleyi belədir ki, gərək müəllif özü kitablarının oxucusunu tapsın. Mərkəzləşmiş qaydada nəşrlərin yayılması yaxın keçmişi xatırladan yuxudur. Nə isə. Bu il Əhmədağa Şahinin "Şur" nəşriyyatında çapdan çıxan "Vicdanları oyatmağın vaxtıdır" adlı kitabını elə həmin nəşriyyatda müəllif özü bağışladı və mən də həmişə olduğu kimi ərincəklik eləmədən oxudum. Oxudum və bir daha əmin oldum ki, bir vaxtlar gəldiyim qənaət həqiqət imiş. Elə bil bir sıra qələm adamları biləRəkdən unutdurulur. Əhmədağa Şahin də qədri bilinməyənlərin sırasında imiş:

**Dərdlərim hay salıb oxu deyirdi,**
**Bu bir həqiqətdir, yuxu deyildi.**
**Sənə dönəcəyəm çoxu deyirdi,**
**Al Allah, bu dərdin əlindən məni.**

Dünyanın ən azad adamı olan ŞAİRİN AZADLIĞI satılırsa, onda qələmlə üsyan etməkdən özgə nə qalır ki? Azadlığı satılan şair məhbəslərə atılır:

**Bu tikanlı məftillər də,**
**Dözməyir mən dözən dərdə,**
**Mənim dəmir qəfəslərdə,**

**Satılırdı azadlığım.**

Bununla da hər şey bitmir. ALQI-SATQI hələ də davam edir. Bayaq çöldəki azadlıq satılıb zindana şair gətirilirdisə, indi də bu azadlığı içəridən çölə daşımaq istəyirlər. Fəqət hər iki halda AZADLIQ satılır. Əhmədağa Şahin azadlıqları istismar olunanların faciəsini ustalıqla təsvir edir.

**Azadlıq satılır,**
**İki min dollara.**
**Bu aiddi yalnız,**
**Zindanda olanlara.**

Azad düşüncəyə vərdiş etmişlər buna nail olmaq üçün məhbəslərə atılmağı da özlərinə rəva görə bilərlər.

**Pis adamlardan**
**qaçıb zindana girdim.**
**Zindanda da**
**onları gördüm.**
**Yaxşılıq heç zaman**
**dəymir hədəfə,**
**Mənən öldüm**
**ikinci dəfə.**

Söz adamını səciyyələndirən və başqalarından fərqləndirən cəhətlərdən biri də onun dərdlə, ağrı-acı ilə dil tapa bilməsi, həyat sönən yerdə də bir yaşantı nişanəsi tapmasıdır. Əhmədağa Şahin bu ovqatın lap yaxından müşahidəçisi olduğundan onun düşüncələri daha təsirlidir:

**Qəm yemə, bu zindan, məhbəs bəsimdi,**
**Şer yazmaq üçün qəfəs bəsimdi.**
**Hələ Allah verən nəfəs bəsimdi,**

**Haqqa, ədalətə çatmırsa səsim,**
**Yoxdur azadlığa çıxmaq həvəsim.**

Zülmə, zalıma son verənləri tanımalıyıq. Əslində zülmə əyilməyib, sonradan qələmi ilə mübarizəyə girişənlərin həyatı örnək olmalıdır. Eşitdiklərimdən, bildiklərimdən yadımda qalan odur ki, bir zamanlar Əhmədağa Şahinin ətrafı haylı-küylü dostlarla zəngin olub. Amma nə yazıqlar ki, o, dilbilməz "ədalət qoruyucular"ının girdabına düşəndən sonra haylı-küylü dostların sorağı kəsilib:

**Bu ev kimsəsizdi, bu ev qəribdi,**
**Hələ çox itirib dostları bu ev.**
**Bu evə doğmalar pənah gətirib,**
**Bölüb çörəyini tən yarı, bu ev.**

İllərlə sükutla yoldaşlıq edən evdən hənirti tamam kəsilib:

**Bu ev susdurulub on ildi, vallah,**
**Dost-tanış çox gəlib, keçib bu evdən.**
**Necə mən dərdimi yazmayım, Allah,**
**Qapımın iti də köçüb bu evdən.**

Görünür "sadiq dostları" ondan birdəfəlik əllərini üzüblərmiş. Hər halda "Vicdanları oyatmağın vaxtıdır" adlı kitabı belə deyir. Amma bir şey unudulub ki, azadlığı əlindən alınan şair daha üsyankar olur, onu tanımaq istəməyənlərə özünü tanıda bilir:

**Zülümü gözümlə görüb gəlmişəm,**
**Ölümün məzarın hörüb gəlmişəm.**
**Neçə yol dirilib-ölüb gəlmişəm,**
**Bu mənəm, tanı məni.**

Şair Gəray Göyyurda ithaf etdiyi bir şerində

Əhmədağa Şahin sərrast məntiq yürüdür. Əslinə qalsa elə üz tutub şer ünvanladığı şair dostu Gəray Göyyurd da bu zilləti başqa bir donda görmüş adamdır. Həqiqətən də birisinin zindana atılmağı ilə birisinin çörəklə, yaşayışla imtahana çəkilməyi eyni dərd deyilmi (Hələ o bir başqa söhbətdir ki, GÖZ YAŞINDAN QURUYACAQ, ALLAH NƏMDİ BU DÜNYA deyən Gərayın misralarına sahib çıxmaq, Əhmədağa Şahin demiş, şairi susdurmaq cəhdidir):

**Şair ürəyinin harayına bax,**
**Qırılan qəlbimin sarı simidi.**
**Şairi susdurub qələmin almaq,**
**Şairi zindana salmaq kimidi.**

Əslində kitabı oxuyub başa çatdıqdan sonra məhbəsdəki şair taleyinə və şairin məhbəsdəkilərin taleyinə baxışına yiyələnirsən.

**Şahin canın qurban verər son anda,**
**Haqsızlıqla barışmayan ürəkdi!**
**Haqqam deyən şairin bu zamanda,**
**Nəsimi tək soyulması gərəkdir!**

"Ədalət carçısıyam" adlı şeri Azərbaycan haqqında, əslində Azərbaycanı haqqın girdabından qoparmaq istəyənlər haqqında elegiyadır.

**Arzuları, istəkləri,**
**Milyon olan məhkum vardır.**
**Ah-naləsi tutmur yeri,**
**Azadlıqda məhkumlardır.**

Azadlıqda məhkum ömrü yaşayanların taleyi ilə məhkumluqda azadlıq eşqi ilə yaşayanların taleyi arasında qəribə bir yaxınlıq var. Bunu ən tez

şair duya bilərdi. Çünki ağızların qıfıllandığı bir yerdə ötmək istəyən dillərin dərdini duymaq çətin deyil:

**Göz gördükcə, ürək yanır,**
**Gəda özün kişi sanır.**
**Ağız burda qıfıllanır,**
**Dilimdən xəbərin varmı?**

Tükənməz ağrılrın burulğanında taleyi və poeziyası ilə çırpınan Əhmədağa Şahin, azadlığı satılsa da, taleyi haqsızların əlində oyuncağa çevrilsə də, əyilmir. Hər dərddən bir çıxış yolu olduğu kimi, onu da yaşadan, ağrılara təslim olmağa imkan verməyən bir həqiqət də var. O da doğmalarının onu GÖZLƏMƏK həqiqətidir. Özü də kitabdakı şerlərində bu həqiqəti bir daha təsdiqləyir. Bu həm də Əhmədağa Şahinin həqiqətidir. Əgər yolunu gözləyən, həsrətindən şam kimi əriyənlər varsa, deməli hələ bu nahaq dünyanın sonu deyil:

**Hara boylanıram, hara baxıram,**
**Gəlib yolum üstə dayanırsınız.**
**Mənə elə gədir, mən əriyirəm,**
**Mənə elə gəlir, siz yanırsınız.**

Haqqın, ədalətin carçısı olmaq heç də həmişə xoş günlərin izi ilə aparmır adamı. Əhmədağa Şahin həm yaradıcılığında, həm real yaşantılarında haqqın tərəfdarı olduğundan məhbəs həyatı belə yaşamaqdan çəkinməyib. "Vicdanları oyatmağın vaxtıdır" adlı kitabı başdan-başa ZİNDANNAMƏdir desək, yanılmarıq:

**Çox itirdin ilini sən,**
**Saxlamadın dilini sən.**

**İndi könül gülünü sən,**
**Bu məhbəsdə qoxla, Şahin!**

İstənilən anda YARADICI ADAMın tapındığı bir dərgah var- Haqqın dərgahı. Əhmədağa Şahin ən son məqamda ona ilham verən Tanrıya üz tutur:

**Öz hayına qalıb hərə,**
**Ağız açma sən boş yerə.**
**Qaldır əlini göylərə.**
**Tanrını qucaqla, Şahin!**

Bayaq ZİNDANNAMƏ ifadəsini elə-belə işlətmədim. Kitabda haqsız əzilənlərin taleyini əks etdirən şerlərin son akkordu kimi "Bir cinayət dünyasında" adlı poema yer alıb. Kiçik hissələrdən ibarət olan poemada o qədər ürək sökən məqamlar var ki… Şairin gəldiyi qənaət isə qətidir:

**Cinayət dünyası adlanır bura,**
**Hərənin bir cürə görkəmi vardır.**
**Şəxsi qovluğuna günahsızın da,**
**Bir söz yazılıbdır: Cinayətkardır.**

Bir qəzet yazısında bu kitabı tam əhatə etmək sadəcə mümkünsüzdür. Bunu Əhmədağa Şahin də bilir, oxucular da. Amma Əhmədağa Şahinin bildiyi və yazdığı bir sıra həqiqətlər var ki, onu çoxumuz bilmirik. Elə buna görə də oxunmalıdır onun əsərləri.

# QAÇMAĞI ÖYRƏNDİM YERİŞDƏN QABAQ

…Belə insanların həm yaşamı, həm də yaradıcılığı ağır mərhələlər keçməyə məhkumdur. Buna bir daha əmin olmaq üçün əsrin yarısını arxada qoyan gözəl şair dostumuz Dayandur Sevginin "50-dən o yana yollar yoxuşdu" kitabını oxumaq kifayət edir. Oxuduqca inanırsan ki, heç də 50-dən bu yana da onun yolları eniş olmayıb. Çiynində dağ yükü varsa, enişi də yoxuş bilirsən.

Bir qələm adamının taleyini onun əsərləri qədər heç nə təsvir edə bilməz. Hər halda mən sevdiyim sənətkarların əsərlərində təsvir olunan taleyinə inamlıyam. Elə Dayandur Sevgin də hazırkı yaşam və düşüncə tərzi ilə bunu diqtə eləməkdədir:

**Nə var ki, salmağa mərdi kəməndə,**
**Ədalətin gözü yuxudadırsa.**
**Allahın kölgəsi sayılan bəndə,**
**Allahın özündən qorxuludursa,**
**Mən insandan qorxum, ya səndən, Allah?**

Dayandurun bütün yaradıcılığında və xüsusilə bu kitabında zamanın bunca zalımlaşması, insanın insana baxış bucağının dəyişməsi əsas düşüncə obyektidir. Dünyanın ən ali varlığı olan insan üçün hər şey adiləşib, insanda vəhşət doğuran

ölüm belə… Bunun ən yaxşı ifadə formasını Dayandur Sevgin tapır və poetik fikrini qətiləşdirir:

**Elə adiləşib ölüm, İlahi,**
**Daha qorxutmayır edam adamı.**

Şairin təbirincə bu məqama gəlmək üçün dünya adiləşincəyə kimi uzun bir yol keçib. Özü də insanların çiynində, hərəsi dünyanı bir istiqamətə çəkən insanların. Bir də o insanların ki, "sahibizərdə kərəm yoxdur, kərəm əhlində zər" düsturuna rəvac verdilər və beləcə çeşidləndilər:

**Tac əhli olmayan bil, taca çatmaz,**
**Min bir hikmət söylə, söz aca çatmaz.**
**Hər saya gələnlər sayğaca çatmaz,**
**Var ceviz adamı, badam adamı.**

Başının üçtündə Allahı dananlar mühitinin yaradılması bəşərin faciələrindən biridir. Bu mühiti yaratmaq istəyənlər də hər gün bizimlə yanaşı addımlayanlar arasındadırlar. Şairin təbirincə desək, belələri yanında inləyənləri, tökülən qanları görə bilməz:

**Qarşıya baxırsan, yanı görmürsən,**
**İnləyən, can verən canı görmürsən.**
**Başına süzülən qanı görmürsən,**
**Mer-meyvə gəzirsən dar ağacında.**

Başqa bir şair dostumuz Bilar Alarlının sözüdür ki, mən o adamların haqqında yazıram ki, onların haqqında hamı susur. Çox sərrast deyilibdir. Nədəndirsə haqqında yazılmalı olarlardan kimsə danışmır. Dayandur Sevgin yaradıcılığı da uzun illər tədqiqat obyekti olmaqdan kənarda qalıb. Bu

prizmadan yanaşanda hörmətli Vaqif Yusifliyə, Fariz Çobanoğluna, Sona Vəliyevaya, Təyyar Salamoğluna, Sahib Abdullayevə və Rəhim Zalova ürəkdən ÇOX SAĞ OL düşür. Sağ olsunlar ki, Dayandur Sevginin yaradıcılığına diqqət çəkiblər (Dayandur Sevginin "50-dən o yana yollar yoxuşdu" kitabında o yazılar da yer alıb).

Əvvəlki kitablarında olduğu kimi, şairin son kitabında haqsızlığa qarşı bir üsyan var. Sözsüz ki şair üsyanıdır bu. Zaman-zaman belə olub. Həmişə cəmiyyətdəki haqsızlığa qarşı mübarizədə şairlər ön cərgədə olublar. "Dərənin dərdi", əslində, hamımızın yeri gəldi-gəlmədi dilə gətirdiyimiz gileylərin, baş alıb gedən haqsızlığa qarşı dözümsüzlüyün poetik ifadəsidir:

**Dərənin köksündən dikəldi, qalxdı,**
**Kəsdi yolu-izi, bəndi-bərəni.**
**Göydə şimşəklərə qarışdı başı,**
**Görmədi ayağı altda dərəni.**

Dünyanın mizanını pozan, haqqı nahaqqın ayağına verən elə bu görməməməzlik deyilmi… Ayaqlar altında qalan dərə başı göylərə dəyən dağı zirvələrə daşıdığından enişdə qalıb. Bu həqiqəti kim dana bilər ki… Azmı görmüşük çıxdığı çanağı bəyənməyənləri... Bunlar cavabı bəlli olan suallardır. Çox vaxt da bəlli olanları dilə gətirmək yasaqlanıb. Amma şair Dayandur Sevgin bunun bədii həllini çox ustalıqla tapıb. Özünün yaşantılarında da dərə olmaq əzabını az görməyib, bunları dilə

gətirməsə də. Poeziyanın gücü də elə bundadır.

Şirin əzablı taleyi ilə, əslində özünün kim olduğunu Dayandur Sevgin yaxşı bilir. Mərdi qova-qova namərd edən dünyada, şərə qarşı mübarizədə əlindən qələmə sarılmaqndan başqa bir iş gəlməyən şair kirpiyi ilə od götürür:

**Bir namərdə əyiləndə mərd olan,**
**Budur mənə bu dünyada dərd olan.**
**Şər əlində aciz qalıb dörd olan,**
**Kirpiyindən qan-yaş daman gözəm mən.**

Adına "ömür" deyilənin tələsik addımların atılmağında keçən bir kəsimi Dayandurun şeirlərində çox ibratəmiz əks-səda verir. O, taleyindəki dolanbac və məşəqqətli yolların, istər-istəməz, onu  min-bir çətinliklərlə üz-üzə qoyacağını sanki əzəldən bilirmiş. Və o heç bir işinin asta hərəkətlə alınmayacağının fərqindəymiş. Və beləcə zaman ona vədəsindən qabaq qaçmağı öyrətdi. Özünün etiraf etdiyi kimi:

**Mən elə tələsdim hər işə, qardaş,**
**Qaçmağı öyrəndim yerişdən qabaq.**

"50-dən o yana yollar yoxuşdu" adlı hələlik sonuncu kitabında toplanan sevgi şeirləri də yaşanmış bir taleyin sevda yolunda çəkdikləridir. Amansız taleyi hər sahədə olduğu kimi, bunda da ləngiyir. Şair onu zamanında heç kəsin duymayacağını yaxşı bilir:

**Hələ ki, ömr elə sən gülə-gülə,**
**Hələ yetişməyib sənə bəd xəbər.**
**Əzizim, taleyim yazılıb belə,**

**Mən diri bədbəxtəm, ölü bəxtəvər,**
**Məni sevəcəksən öləndən sonra.**

Özüm bilərəkdən sevgi şeirlərindən az danışdım. Çünki taleyi sevgiyə bələnmişlərin bütün düşüncələri sevgi ilə yoğrulub. Bu sevgi deyilən nədirsə, onu Dayandurun bütün pıçıltılarında duymaq olar.

Nədənsə bu məqamda mənə həmişə maraqlı görünən Dayandur Sevginin adı və soyadı haqqında nəsə demək istədim. Amma məndən əvvəl demişdilər. Fariz Çobanoğlu "Yaman olur ayrılıq dərdi" yazısında şairin adı ilə bağlı öz fikirlərinə istinad edir: "İmişli rayonunun gözdən-könüldən uzaq, rayon mərkəzindən 60 km aralıda yerləşən Ağamalılar kəndində beş qızdan sonra doğulmuşam. Ona görə də adımı Dayandur qoyublar. İlk tanış olduğum kəsə adım barədə məlumat verməli oluram". Hamıya ilk tanışlıqda adının mənası haqqında danışdığını bildirən şair qardaşımız nədənsə mənə bu haqda heç nə deməyib. Və mən də bunu soruşmağa heç vaxt cəhd etməmişəm. Amma indi düşünürəm şair yaxşı ki, DAYANdı, DURdu. Poeziyanın şirin və əzablı yolunda dayanıb-durmaq üçün onun şair ilhamı yetdi.

Azman tənqidçimiz Vaqif Yusifli kitaba yazdığı "Əlli yaşın hekayəti" adlı ÖN SÖZdə çox maraqlı məqamlara diqqət çəkir: "Dayandur özünə "Sevgin" təxəllüsü götürüb, bunu niyə belə eyləyib deyə bilmərəm, amma bu təxəllüsdə SEVGİ sözü

var. Və mən Dayandurun sevgi şeirlərini oxuyandan sonra bu təxəllüsü təbii qəbul elədim". Hörmətli tənqidçimizin dəqiqliyi ilə ifadə olunmuş fikrinə heç nə əlavə eləmək mümkün deyil.

Dayandur Sevginin 50-si də 100-ə doğru can atmaqdaykən bu yazını yazdım. Özünün dediyi kimi:

**Sıfırdan başlanır, sıfırdan həyat,**
**Sıfırdan gedirik milyona doğru.**
**Zirvəyə yol gəzir hamı, zirvəyə,**
**Yüz minə can atır, bir ona doğru.**

Məqsədim isə isə yubiley təbriki yazmaq yox, sadəcə kitabı haqqında oxucu olaraq düşüncələrimi bölüşmək idi. Bir an düşündüm ki, "Kaspi" qəzetinin ədəbiyyat səhifəsini Dayandur Sevgin yox, elə mən özüm hazırlayıram. İllərdir ki, o, bizlərə səxavətlə xidmət edir, indi növbə bizimdir...

# ÖLÜMÜNDƏN QAÇA-QAÇA, HAMI ÖLÜMƏ TƏLƏSİR

Son vaxtlar oxuduğum kitabların bəziləri haqqında fikirlərimi oxucularla bölüşmək zərurəti duyuram və düşüncələrimi mətbuatda onlarla paylaşıram. Sevinc Mürvətqızının "Sən sevgidən yuxarısan" kitabı da bu qəbildən oldu.

Prezident təqaüdçüsü, Azərbaycan Yazıçılar Birliyinin üzvü Sevinc Mürvətqızı 2008-ci ildə "Vektor" Beynəlxalq Elm Mərkəzinin Şahmar Əkbərzadə adına Beynəlxalq ədəbiyyat mükafatının laureatı olmuşdur. Sayğılı Elçin İsgəndərzadənin qayğısı ilə bu mükafatın laureatı olanların kitabı "Vektor" Nəşrlər Evində işıq üzü görür. Sevinc Mürvətqızının "Sən sevgidən yuxarısan" kitabı da bu seriyadan oxuculara təqdim olundu.

Tanınmış tənqidçi Əsəd Cahangirin redaktorluğu ilə hazırlanan kitaba Azərbaycan Yazıçılar Birliyinin katibi, "525-ci qəzeti"in baş redaktoru Rəşad Məcid "Mən Sevincə inanıram" adlı ön söz yazıb: "İnanıram ki, Sevincin ilk kitabını oxuyanlar qətiyyən təəssüflənməyəcəklər, sonadək maraqla oxuyacaqlar, onun maraqlı duyğular aləminə daxil olacaqlar". Və mən də beləcə Sevinc xanımın kitabını birnəfəsə, sonsuz maraqla oxudum. Oxuduqca Rəşad bəyin dediklərinə bir daha əmin oldum:

**Yüz yol haqqı deyəmmədim,**
**Yüz faiz bildiyim yerdə.**
**Ağlatmısan neçə kərə,**
**Ürəkdən güldüyüm yerdə.**

İnsanın ömrü yaşantılardan - yaşadıqlarından və müşahidə etdiklərindən ibarət bir zaman kəsiyidir. Bu dönəmdə olanlar qələmlə sözə, fərçayla tabloya, notla səsə və s. çevrilir. Kitabının təsirindən hələ də ayrıla bilmədiyim Sevinc Mürvətqızı yaşadıqlarını sözə çevirəndə insan amilini həmişə ön sıraya çəkir. Özü də daha çox haqqı tapdanan, zamanın çarmıxa çəkdiyi insan faktorunu:

**Bezdirdi şipşirin yalanlar onu,**
**Utansın bu günə salanlar onu.**
**Görən qınamaz ki, qalanlar onu,**
**Bir kişi sazını satırdı yolda.**

Bunları duymaq, anlamaq üçün böyüyür insan. Bəlkə də Sevincin müşahidə etdikləri illərin arxasında qalanlar idi. Sadəcə olaraq o zaman gördüklərinin mahiyyəti illər ötdükcə dəyişirdi. Anlamaq zamanı gələndə ətrafda cərəyan edənlərin hamısı yeni mahiyyət kəsb edir. İllah da ki, bu məqama gələn şair ola:

**Böyüməyi sirr bilirdim, sirr deyil,**
**"Böyük olmaq" böyüməklə bir deyil.**

Bu Sevinc Müravətqızının haqlı həqiqədir. Həqiqətdir ki, "Bəşərin ən adi fərdi ilə, Dünyanın ən böyük dərdi ilə, İnsan xoşbəxt ola bilər".

Dünyanın işdəklərinə Sevinc Mürvətqızının özünəməxsus yanaşma tərzi var, -həm insan kimi, həm də, sözsüz ki, bir şair olaraq. Bu yanaşmada

haqqın-nahaqqın nə olduğunu anlamayan, ətrafında baş verənlərə ancaq ağlamaqla cavab verən körpənin yaşantıları da əksini tapmaqdadır. Körpədən bağışlanmağını diləməyən haqqın tərəfdarı olan bir insan, bu düyğuları bizimlə bölüşən isə oxucu sevgimizi qazanmış bir şairdir. O, ətrafında baş verənlərə misraları ilə üsyan etməyi bacarır:

**Məni bağışlama, ağlayan körpə,**
**Qoy abrıma kor olum,**
**sənin nə çəkdiyini bilim.**

Sonda gəlinən qənaət budur ki, şairin təbirincə desək, "Gurlayan silahların səsini kəsmək əvəzinə, sənin ananın imdad diləyən harayını kəsdik". Amma əhlət daşının hamının qənşərində və başında göründüyü bir məqamın olduğunu da yaddan çıxarmamağı tövsiyə edir:

**Can verirdi qoca gürzə,**
**Meydanda özü olanda-**
**Elə bilirdi ölməzdi.**
**Nə zamansa can alanda,**
**Can verəsidi, bilməzdi...**

Bu bilməməzliyin əsas səbəbi isə dünyaya GÖZ adlı pəncərəmizdən baxanda içəridəki ilə çöldəki BİZin bir-birinə uyuşmadığını görə bilməməyimizdir. Nolsun ki, gözümüz önündən yaxşı görüntülər gəlib-keçir. Bir də bu görüntülərə gözdən baxmaqla deyil, gözə baxmaqla diqqət vermək lazımdır. "Dünya bir pəncərədir" deyiminə asi çıxmayan müəllif pəncərədən də geri baxmağı haqlı olaraq tövsiyə edir:

**Gözümüz pəncərə,**

**Dayanıb önündə baxırıq-**
**Hər şeyə, hər kəsə, hər yerə...**

Baxırıq… Və sadəcə baxırıq. "Çöldəki BİZ başqadır, pəncərədən içəri baxaq, İçəridəki "Biz"i görmək üçün". Əsas məsələ də budur. İçəridəki "Biz"i görürükmü və yaxud görürüksə onu olduğu kimi dəyərləndirə bilirikmi… Bəlkə də buna görə S. Mürvətqızı

**Görən Tanrı öz yanına çəkdimi,**
**Doğru-düzgün yazanını dünyanın.**
**Halaypozan iblisləri qıy vurub,**
**Qaynatdılar qazanını dünyanın,**

- deyir

Könlünü ədəbiyyata, sözə vermiş insanların əksəriyyətinin yaşam tərzinə çevrilir bədii yaradıcılıq. Sevinc də onların arasında. Fikirlərini sevdiyi oxucuları ilə bölüşmək üçün "525-ci qəzet" kimi tribunası olsa da, əslində bu kitabın işıq üzü görməsini oxucu sifarişi kimi də dəyərləndirmək olar. O, çox yaxşı bilir ki, bu dünyada canında əbədiyaşar nəsə olmayan hər şey ötəndir. Öləri toxumdan nəsə pərvəriş tapa bilməz. Sözün əbədiyaşar pilləsində qərar tutması üçün, ən azından Sevinc Mürvətqızı kimi onun acı olmalısan. Özünün dediyi kimi:

**Mən yaza bilməsəm yaşayammaram,**
**Bu - qəlbin doyulmaz ehtiyacıdır.**
**Neyləyək, dünyada biri var-dövlət,**
**Biri də mənimtək şeir acıdır.**

Amma bu dünyada onun kimi ŞEİRİN ACI olanlar yetərincədirmi… Yetərincə olanlar dünya-

nın qanına susayanlar, onun dərisini soymağa hazır olanlardır:

**Dağılacaq tamahının ucundan,**
**Ac qurdların topasıdır bu dünya.**

Bu dünyanın indiyə kimi açılan və açılmayan mahiyyəti barədə o qədər yozumlar var ki. Dünya bir olsa da hərə onu duyduğu və ifadə eyləyə bildiyi qədər tanıyır, sevə bildiyi qədər sevir. Sevinc Mürvətqızının yaşantılarındakı və düşüncələrindəki dünya olduqca fərqlidir. Mümkündür ki, bu yaşantıları bölüşənlər olsun, amma bu düşüncələri ifadə etməkdə hərənin öz yeri var:

**O dünya Tanrının ən gözəl şeridir,**
**Bu dünya isə həmin şeir yazılan vərəqin**
**cızma-qara yeridir.**

Nədənsə bu misraları oxuyanda yadıma Beyləqan rayonunda yaşayan, son vaxtlar mətbuatda maraqlı şeirləri ilə çıxış edən Elməddin adlı gənc şairin misraları düşdü:

**Bu dünya bizimçün dərs otağıdır,**
**O dünya bizimçün imtahan zalı.**

Yaşantılar təxminən eyni olsa da, şair olaraq qələmə aldıqları fərqlidir. Dünyanın gərdişlərinə Sevinc kimi qeyri-adi prizmadan baxan və hərəsi özünəməxsus formada ifadə edən gənc qələm adamların varlığı adamda qürur hissi doğurur. Düşüncə tərzi, ifadə forması yeni olan hər şey oxucunu düşünməyə vadar edir. Necə ki, Sevinc Mürvətqızının "Sən sevgidən yuxarısan" kitabını oxuyanda, az qala hər səhifədə səni düşündürür:

**Əsl şair qələmindən,**

**Düşən söz toxum kimidir.**
**Bir şairin misraları,**
**Doğmaca qohum kimidir.**

Bütün bunlar sonda Sevincin haqlı qənaətinə gətirib çıxarır. Həqiqətən də ÖLÜMÜNDƏN QAÇA-QAÇA, HAMI ÖLÜMƏ TƏLƏSİR.

Kitabdakı sevgi şeirləri sevgini sevgidən yuxarıda bilənlər üçündür. Dünyanın varlığını qoruyub saxlayan bu böyük duyğunun yaşatdıqları da S. Mürvətqızının qələmində fərqli səslənir:

**Üzü Tanrıya sarısan,**
**Sudan saf, aydan arısan.**
**Sən sevgidən yuxarısan.**
**Mən səni sevə bilmərəm.**

"Sən sevgidən yuxarısan" kitabında Sevinc Mürvətqızının bir neçə hekayəsi də yer alıb. Bu, ayrıca bir söhbətin mövzusudur.

Sevincin yaradıcılığı haqqında ünlü qələm adamlarının dediyi fikirlər onun haqqında dolğun təəssürat yaradır. Kimlər bu kitabın sevincini müəlliflə bölüşməyir ki… Fikrət Sadıq, Bəhmən Vətənoğlu, Əsəd Cahangir, Əli Əmirli, Tofiq Abdin, Səlim Babullaoğlu, Qərib Mehdi, Firəngiz İdrisqızı, Fərqanə Mehdiyeva və bu sətirlərin müəllifi.

# ŞUŞAYA GEDƏ BİLMƏDİ...

## ... HAQQIN DƏRGAHINA GETDİ Akif SƏMƏD

… Saznan-söznən birgə doğulmuşdu, elə sazlı-sözlü bir tədbirdə də dostlarının əhatəsindəcə haqq dərgahına qovuşdu. Haqq dünyası Akif Səməd kimi haqq adamlarınındı. İNCƏ GÜNAHKARI (ifadə Bəsti Əlibəylinindir) yenidən İncə dərəsinə qayıtdı, torpaqla nəfəs-nəfəsə dayandı. İncə dərəsini dillərdə dastan eləyənlərdən biriydi Akif Səməd. Hərdən zarafatla deyirdi ki, dünyanın yaranışı İncə dərəsindən başlayıb. Adəmlə Həvva da İncəli olublar. Nə isə…

**Uduzduq nədə, bilirəm,**
**Bilirəm dədə, bilirəm,**
**Evimə gedə bilirəm,**
**Şuşaya gedə bilmirəm-** deyirdi Akif Səməd.

İndi heç evinə də gedə bilmir. Getdiyi yer haqqın dərgahıdı. Həmişə səcdə etdiyi dərgah.

**Əmindi, dayındı, mənəm,**
**Qulaqları sağır, bala!**
**Hər səhər evdən çıxanda,**
**Şuşa deyib, bağır bala**!-deyirdi. İndi balaları Atilay, Gülənay, Çilənay, Ulucay hər səhər bir də ATA deyib hönkürəcəklər.

Bir müddət çox sıx görüşürdük. Allahverdi Dərd, Elbariz Məmmədli, Akif Səməd və mən. Niyə bir zaman deyirəm. Son vaxtlar bir az da incik

düşmüşdü bizdən-səbəbini doğru-dürüst bilməsək də. "Xoş gördük Akif Səməd, ağır taxtalı kişi" xüsusi buraxılışını mənim hazırlamağımı özü istəmişdi. Razı qalmışdı işimdən. Yenə nə isə…

**Doğru-düzünə yaşasan,**
**Halal sözünə yaşasan.**
**Ömrü özünə yaşasan,**
**Qardaş, ölüm nəmənədi**-deyirdi. Elə dediyi kimi də qarşıladı onu. İbrahim İlyaslı o məşum xəbəri telefonda deyəndə də, İlham Qəhrəmanın hönkürtüsü balalarının hönkürtüsünə qarışanda da, İlqar İlkin telefonda yanıqlı ah çəkəndə də, Elnur Astanbəyli cənazəni aparan maşinda ona yol yoldaşlığı edəndə də, gecə Elbariz Məmmədli bihal olanda da Akif ölümü qarşılayırdı.

Bir də deyirdi ki:

**Bütün yollar dolanıban dünyanı,**
**Kəndə dönür, kəndə dönür, arxadaş.**

Düz demirdi ki? Özü də 45 yaşı qarşılamağa döndü İncə dərəsinə.

Yerin behişt olsun, Akif Səməd.

# ŞƏLALƏNİN QUZU KƏSİM DİLİNƏ...

… Ona görə ki, BU DAŞLARIN ÜRƏYİNİ ÜZMƏSİN. Görürsənmi, GÜNƏŞ QALXIB GƏDİKLƏRİN BELİNƏ, ÇİÇƏKLƏRİN GÖZ ÇIXARDIR DÜYMƏSİ. Sahib Aslanzadənin ALNINA YAZILAN YAZIsında belə SÖZlü məqamlar ürəyin istəyən qədərdir… Sadəcə olaraq bu şairin pünhan qalmış taleyini danışan bu kitabı səbrlə vərəqləmək bəs edər ki, bunlara şahid olasan.

…. Olsun ki, Sahib Aslanzadənin imzasını yeni nəsil tanımasın. Amma biz yaşıdları onun iyirmi il əvvəl ölkənin aparıcı mətbuat orqanlarında dərc olunan şerlərini xatırlamaya bilmirik:

**Günəş qalxıb gədiklərin belinə,**
**Çiçəklərin göz çıxardır düyməsi.**
**Şəlalənin quzu kəsim dilinə**
**Bu daşların ürəyini üzməsin.**

Zamanın gərdişi onu doğma Şəmkirdən qürbətə apardı. Amma ürəyində böyük bir VƏTƏN sevgisi ilə. Dünyanın işdəkləri onu həmişə düşündürüb. Şerə bir namus işi kimi baxan Sahib Aslanzadə bu bivəfa dünya ilə yeri gələndə döş-döşə dayanmaqdan da çəkinməyib:

**Dünyanın işləri dizimin üstdə,**
**Dünyanın üstünə çətir tutmuşam.**
**Bir sevinc qısılıb gözümün üstdə,**
**Çoxdandı bir ilıq sətir tutmuşam-**
**Bir rədif göynəyir,**

**Əlim boş deyil.**

Baxmayaraq ki, vaxtilə onun TANIDIĞI DÜNYA belə olmayıb:

**Mən tanıdığım dünya -**
**Şüşə kimidi.**
**Məni də şüşə sanacaq,**
**Sınsa,**
**Ürəyindən sınacaq.**

Kitabda son on beş ildə yazılmış şerə rast gəlmək mümkün deyil. Ən azı ona görə ki, bu müddətdə o, yazmayıb. Ya bəlkə də yazıb, sadəcə özü belə deyir. Amma- mən artıq şerdən getmişəm- deyir. Ədəbiyyata gələnlərin getməyini müəllif yox, qəlblərdə yer tapdığı oxucu, ədəbi dəyərlər müəyyən edir. Bir də ki, gedənlərin bir təlatümlə qayıtmağı da var. Sahib istəsə də, istəməsə də belə bir qayıdışa məhkum olanlardandır. İyirmi ildən sonra ilk kitabı ilə qayıdırsa, demək nəsə gözləmək olar.

# O TAY DA UZAQDIR, BU TAY DA UZAQ

İndi haradadır, nə iş görür, düzünü özündən savayı bir kimsə bilməz. Onu görənlər də soruşanda elə -yerlə-göyün arasındayam, deyir. Latın qrafikalı əlifbaya keçid olandan sonra demək olar ki, çap olunmayıb. Bir dəfə "Azərbaycan" jurnalı ona səxavətlə yer ayırmışdı. Bircə dəfə də bəndəniz onun şerlərini "Yeni Azərbaycan"ın ədəbiyyat əlavəsinə vermişdi.Nədənsə belərinin qədrini nə özləri bilir vaxtında, nə də biz:

**Səma bulud-bulud, yer xəzəl-xəzəl,**
**Təbiət dəyişib təbiətinin.**
**Hər ağac deyirsən qocalan gözəl,**
**Budaqlar nənəmin qolları kimi.**

Vaxtilə özündən eşitmişəm bu misraları. Deyəsən sonralar dərc olunmuşdu mətbuatda. Mənim indi təqdim etdiyim şerlər də bir vaxtlar uşaq yaddaşımda əbədi həkk olunanlardır.

Deyirəm bəlkə özünü özünün yadına saldıq. Elə bil bir zamanlar hayqıran o deyildi:

**Mən zamanın gürşad seli,**
**Arzuların gur səsiyəm.**
**Yerin-göyün od hənirli,**
**Prometey nəfəsiyəm.**
**Tələbəyəm, hələ mehəm...**

Minlərlə tələbənin dilində əzbər, bir vaxtlar radio və televiziyada tələbəlik illəri ilə bağlı bütün verilişlərin açarı olan bu misralar Şamxal Rüstəmindir.

**Nə adla minmişdik bu qayığa biz,**
**Niyə düşünmədik bir azca qabaq.**
**Yenə dəli olub bu dəli dəniz,**
**O tay da uzaqdır, bu tay da uzaq.**

İndi Şamxal Rüstəmi tapmaq üçün o tayla bu tayın arasında qalmalısan. Özünə bicanəlik böyük bəladır. Hələ deyim ki, bundan istifadə edənlər də var. Sevimli xalq artisti Flora Kərimovanın ifasında səslənən, sözləri Şamxal Rüstəmin olan "Belə qəmli dayanma" mahnısını bir dəfə müğənni Könül Kərimova səsləndirəndə sözlərinin başqa müəllifə aid olduğunu deyir. Deyir, desin də… Manana isə heç vaxt bilməyəcək ki, oxuduğu "Gözləyirəm yolunu" mahnısının sözləri də Şamxala aiddir. Nə olsun... Guya diqqətli oxucu bilmir kimindir bu misralar.

# BİRCƏ QOM BƏNÖVŞƏ XƏTRİNƏ

O zamanların nəyi yadda qalıbsa, əzizdir. Keçən əsrin doxsanıncı illərində ədəbi məclislərin yaratdığı ab-havanı nəzərdə tuturam. Başı indi, İbrahim İlyaslı demiş, dünya dolanmasına qarışan o zamankı gənc şair və yazıçılar yavaş-yavaş ömrün dolanbac yollarını adlayıb müəyyən bir pilləyə gəlib çatdıldar. Həmin unudulmazlardan biri olan, ad günü ilə əlaqədar haqqında bu yazını başladığım Yeganə Əmiraslanovanın misraları lap yerinə düşür:

**Günlərimi yaza-yaza qocaldım,**
**Bu günümə dünənimdən bac aldım.**
**Mən dərdimlə zirvələrə ucaldım,**
**Bundan belə ucalıqda gözüm yox.**
**Nənəm mənə öz ömrünü dilədi,**
**Bilmədi ki, qocalıqda gözüm yox.**

Yeganə şair Əli Vəkilin "İnşaatçılar" Mədəniyyət Evində formalaşdırdığı ədəbi məclisin üzvlərindən biridir. Jurnalist kimi, ictimai xadim kimi onun fəaliyyəti ölkə ictimaiyyətinə yaxşı məlumdur. Bunlarla işim yox. Mənim üçün maraqlı olanı Yeganə Əmiraslanova imzalı bir şairin, demək olar ki, ədəbi mühitdə görünməməsidir. Axı, hər şeydən əvvəl, Yeganə şair ömrü yaşayır. Bu ömrün oxuculardan gizli qalan o qədər gözəl məqamları

var ki… Kim bilir, bəlkə də ədəbi mühitdə baş alıb gedən xaosdan qorumaq istədi öz yaşantılarını. Amma bunlar da onun şair olaraq gizlənməsinə əsas vermir. Axı, onun şeirləri bir zamanlar adını çəkdiyim ədəbi məclisdə səslənəndə gələcəyin bir istedadlı şairinin var olacağı eşqindəydik. Bəlkə də öz poeziyasına qarşı belə biganəliyin cavabını elə özünün yazılarında axtarıb tapmaq olar:

**Arzularım ümid paya sarılıb,**
**Ağ istəyin ömrü-günü qaralıb.**
**Buz ürəyim yenə gedib qar alıb,**
**Buz ürəklə necə çıxım yaza mən,**
**Nə yaxşı ki, düz ürəyim düz qalıb,**
**Düz ürəklə gərək çıxım yaza mən.**

Bəlkə də elə düz ürəklə yaşamaq istəyidir belələrini zamanın çirkablarından qoruyan - həm özünü, həm poeziyasını. Çünki belələrinin dünyadan umduqları bütövlükdür, tamlıqdır. Əslində, bu, Yeganənin şair olaraq gəldiyi qənaət, tapındığı həqiqətdir. Onlar ancaq bir sevginin həsrətlisi, bir sevincin acı olurlar.

**Bir sevincin acıyam…**
**Xəyalım o sevincin**
**Öz xəyal dünyasında**
**Fırlanar hey başına.**
**Axtarar gecə-gündüz,**
**Axtarar ürəyində yüz kədərin qübarı,**
**Cavan yaşından keçər, çatar qoca yaşına,**
**Yenə axtarar, durmaz,**

**Bir kimsədən soruşmaz.**
**Qorxar ki, oz qəlbinə yad olar o sevinc də...**
**Ömründən qaçaq düşən**
**özgə sevinclər kimi,**
**Ayrı,yad bir ürəyə ad olar o sevinc də...**

Yeganə Əmiraslanovanın şeirlərində bir lakoniklik və eyni zamanda tamlıq var. Özünün dediyi kimi, yazanda yazdığının hansı formada, hansı vəzndə, hansı ölçüdə olacağını qətiyyən hiss etmir. Şeirin bitdiyini intuitiv olaraq duyur. Şeirlərinin vərəqlərə yazılmasında bir səliqəsizlik, onların saxlanmasında bir biganəlik olmasına baxmayaraq, şeirlərin özlərində bir kamillik var:

**İçəcəm dənizi gözlərimlə,**
**Son damlasına qədər.**
**İçəcəm... Sonra...**
**Sonra başımı götürüb**
**Bu dünyadan köçəcəm.**

Yeganə Əmiraslanova, sözün yaxşı mənasında, şeir hərisidir. Bircə duyğulu misra da diqqətindən yayınmır. Amma özünün iyirmi il ərzində yazdığı şeirləri bir yerə toplasan, balaca bir kitabça olar. Bu, onun əsil şair taleyinin göstəricilərindən biridir. Çünki şeirin bir ürək-könül işi olduğunu yaxşı bilir :

**Bu qismətin üzü şaxta, qar gördü,**
**Hər nə geydi vücuduna, dar gördü.**
**Yuxusunda vüsal daddı bir qucaq,**
**Ayılanda üzü dönük yar gördü.**

Ayılanda üzüdönüklüyün məngənəsinə düşən hər kəs qisas hissinə baş vurar. Amma şairin böyüklüyü ondadır ki,  Yaradan ona dünyanın zillətini çəkdirənini də sevmək şansı verir. Bu, artıq Yeganə Əmiraslanovanın yaşantılarındakı həqiqətin yaradıcılığındakı əksidir. Çünki sevgi deyilənin əzabı bəzən vüsalından da şirin olur. Bunlar daxilən zəngin olanların duyğularıdır. Hər halda Yeganə bizi buna inandıra bilir:

**Bircə qom bənovşə ətrinə,**
**Bircə qom bənovşə xətrinə,**
**Nazımı çəkməyən**
**dünyadan keçərəm,**
**Bircə qom bənövşə ətirli,**
**Dünyama köçərəm.**
**Ölürsəm...**
**üstümə bircə qom bənovşə gətirin,**
**Son arzum...**
**"Bəxtəvər" gözəlin**
**mərmərdən başdaşı deyil,**
**Məzarım üstündə**
**bircə qom bənövşə bitirin.**
**Bax, məni beləcə**
**Bircə qom bənövşə ətirli dünyama ötürün.**

Bir qələm adamının yaşantılarını bundan gözəl ifadə etmək olarmı… İnsanı yaradan və yaşadan duyğuların bundan gözəl harmoniyası ola bilərmi…

Yaradıcı adamın qadın olmasının şirin əzab-

ları da var. Tanrının ona bəxş etdiyi övlad payları-na ana sevgisi ilə yanaşı bu sevgini ifadə edən şa-ir düşüncəsi də gərəkdir:

**Adı şirin, müqəddəs,**
**Özü işıqdı, nurdu.**
**Elə ki, əl elədim,**
**Gəlib önümdə durdu,**
**Əllərini qaldırıb,**
**Çatmaq istədi Aya.**
**Mən də üzü Tanrıya,**
**Şükr elədim bu paya.**

… Bir qom bənövşə xətrinə dünyanın işdək-lərinə üsyan edən şairəyə ad günündə bir qom bə-növşə əvəzi olaraq yazdım bu yazını. Düşüncələri-nə bələd olduğumdan bu hədiyyənin onun üçün də qiymətli olacağının fərqindəyəm. Ən azından özüm bir daxili rahatlıq tapdığım üçün.

# DƏRDİM NAXIŞ-NAXIŞ, DÜZÜM-DÜZÜMDÜR...

İbrahim İlyaslıdan eşitdim Zirəddin Qafarlının 55 yaşa gəlib çatdığını. Yaşı 55-ə indi çatsa da, mənə elə gəlir ki, onu həmişə beləcə ahıl görkəmdə, yetkin düşüncədə görmüşəm. Üstəlik də bu yaşda, bu ilhamda olan şairin edə biləcəyi nə vardısa Zirəddin etdi.

Yubileyi ilə bağlı çapa hazırladığı yeni kitabında yazılacaq DOST SÖZlərinin arasında mənim də qeydlərimin olmasını özü istəyibmiş. Mən dost kimi yox, Zirəddinin bir oxucusu olaraq yazıram bu qeydləri. Hərdən düşünürəm ki, mən Zirəddinə dost kimi daha yaxınam, yoxsa oxucu kimi. Hər dəfə də bunu düşünəndə də üstünlüyü oxucuya verirəm.

Zirəddin Qafarlını məni kimi sevən oxucular çoxdur. Məni kimi,-deməyim bir az qeyri-təvazökar səslənməsin… Onun xalq yaradıcılığından qaynaqlanan və damcı-damcı süzülüb gələn poeziyasını sevməyə başladığım müddət iyirmi beş ili keçir. O zaman müddətində oxuduğum şeirlərindən bir çox misralar hələ də yaddaşımdadır:

**Özün sağalmayan yara veribsən,**
**Gedib axtarırsan sağlar içində.**

Zirəddin Qafarlının yaşam tərzindən və yaradıcılığından böyük bir ağrı keçir. Hərdən adam həsəd də aparır, onun bu qədər dərdin içindən sıyrılıb çıxmasına. Özü də mərdi-mərdanə… Tanrının yazdığına asi olmayan Zirəddin ilahinin hökmüylə

gələn ağrıları sevərək yaşatmağı bacaran bir şairdi:

**Dərdim naxış-naxış, düzüm-düzümdür,**
**Üz-üzə durmuşam bəlalarımla.**
**Atasız böyüyən canım üzüldü,**
**Anasız böyüyən balalarımla.**

Amma bu qədər ağrılı bir taleyi heç vaxt Ziröddini sevgi dolu dünyasından ayıra bilməyib:

**Sənsiz ömür sürmək qəm-qüssədir ki,**
**O bağ da, bağça da yerindədir ki.**
**Gözümün üstündə yerin nədir ki,**
**Mənim gözlərimin yeri sənindir.**

Bəlkə də onu bizlərə sevdirən budur.

# "ÇAĞDAŞ AZƏRBAYCAN ŞEİRİ" YENİDƏN DGTYB-nin TƏQDİMATINDA

## Türkiyədə bu seriyadan II kitab işıq üzü gördü

Zamanın amansız dönəmində, iqtisadi münasibətlərin dünyanı, sözün əsl mənasında, caynağında inlətdiyi bir məqamda müqəddəs sözün, poeziyanın keşiyini çəkənlərin heç də hələ sınmadığını görəndə sevinirsən. Nə yaxşı ki, dünya belələrindən xali deyil, - deyə düşünürsən. Türkiyənin "Bengü" Yayın Evində Dünya Gənc Türk Yazarlar Birliyinin (DGTYB) fədakarlığı sayəsində "Çağdaş Azərbaycan şeiri" seriyasından II kitabın işıq üzü görməsi mənə, bir oxucu olaraq, bu hissləri bir daha yaşatdı (yeri gəlmişkən qeyd edim ki, bu seriyadan birinci kitab bir il öncə məhz DGTYB-nin dəstəyi ilə elə həmin nəşriyyatda işıq üzü görmüşdür).

Fəal ictimai xadim, gözəl şairimiz Əkbər Qoşalının başqanı olduğu Dünya Gənc Türk Yazarlar Birliyinin bu olduqca gərəkli işi Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən maliyyələşdirilən "Yeni nəsil Azərbaycan ədəbiyyatının təbliği" layihəsi şərtləri çərçivəsində gerçəkləşdirib. Bu yerdə heç şübhəsiz dövlətimizə, Dövlət Dəstəyi Şurasının yaradılması barədə sərəncam vermiş cənab Prezidentimizə öz yazar, vətəndaş sayğımızı ifadə edir, ədəbiyyata, mədəniyyətə verilən dəstəyin ən qalıcı və davamlı təsirə malik bir

hadisə olduğunu düşündüyümüzü ifadə etmək istəyirəm.

Burda bir məqamı xüsusi olaraq vurğulamaq istəyirəm. Şair qardaşımız Ə. Qoşalı zatən vətənpərvər bir qələm adamı olmaqla bu işləri illər öncə müsabiqəsiz-filansız başlayıb. Zaman-zaman çağdaş yazarlarımızın əsərlərinin qardaş türk ölkələrində, eləcə də Türk Dünyası yazarlarının əsərlərinin respublikamızda yayımını təşkil edib. yayımını təşkil edib. Vaxt varıydı çoxları türk mədəniyyətinin, bu mədəniyyəti yaradanların bir araya gəlməsinə şübhəylə yanaşırdılar. Amma zaman göstərdi ki, bir işin altına çiynini və ürəyini verəndə nəticəsi olur. Biz Əkbər Qoşalı kimi oğulların timsalında bunu gördük. O, "Türkün səsi" adlı topluda türk yazarlarının səsini dünyaya yaymaqla əxlaqlı bir ziyalı örnəyi göstərdi.

Kitabda müasir Azərbaycan poeziyasının müxtəlif estetik baxışa malik qırx üç istedadlı yazarın şeirləri oxuculara təqdim olunur. Kitabın arayaərsəyə gətirənlər oxucular arasında zövqlərin (parametrlərin) müxtəlif olmasının fərqindədirlər. Elbariz Məmmədli, Elçin İskəndərzadə, Dəyanıt Osmanlı, Fərqanə Mehdiyeva, Xanəmir, Namiq Hacıheydərli, Səhər, Rəsmiyyə Sabir, İbrahim İlyaslı, İlqar İlkin, Füzuli Sabiroğlu, Rasim Qaraca, Ayişə, İbrahim İbrahimli, Məlahət Yusifqızı, Həyat Şəmi, Əlirza Həsrət, Saqif Qaratorpaq, Namiq Dəlidağla, Sərvər Məsum və digərlərinin sadəcə imzasını xatırlatmaq yetər ki, bu rəngarəngliyi hiss edəsən. BİR MİLLƏT İKİ DÖVLƏTin ədəbiyyat adamları

üçün haqqında danışdığımız antologiyanın kifayət qədər maraqlı ədəbi informasiya mənbəyi olacağına inamlıyam.

Tanıtım yazılarında nə deyilsə də, ümumi xarakter daşıyır. "Çağdaş Azərbaycan şeiri"ndən örnəklər gətirməklə fikrimizi daha yaxşı tamamlamış olarıq. Hələ ömrünün çiçək yaşında torpaqlarımıza dikilən soyuq düşmən nəzərlərinə tab gətirməyib 20 Yanvar hadisələrində şəhid olan Ülvi Bünyadzadənin şeirləri ilə açılır antologiya (nümunələr Türkiyə türkcəsində verilir):

**Kar yağıyor**
**ağır-ağır**
**Karib yüreklere**
**inen dert gibi.**

Burda təqdim olunan şeirlərin böyük bir qismi, adı çəkiləndə gözlərə heyrət, könüllərə qürur gətirən Türk Dünyasının varlığına şair münasibətidir. Keçmiş sovetlər dönəmində bu duyğuları qələmə alanlar onu oxucu kütləsinə çatdıra bilmirdilər. Rejimin senzurası buna yol verməsə də, bu əsərlər yazılırdı. Nə yaxşı ki, o vaxtkı qadağalar qələm adamlarının düşüncə tərzini dəyişdirə bilmədi. Zaman-xaman ürəklərdə pərvəriş tapan duyğuları birdəfəlik silib-atmaq mümkün deyildi. İbrahim İlyaslının "Türküstan" şeiri bu baxımdan çox səciyyəvidir:

**Bizi attan endirdiler,**
**Yine at belindeyiz.**
**Yine ocak başında,**
**Yine "od" dilindeyiz.**

Və yaxud Elbariz Məmmədlinin bir vətəndaş olaraq yaşantıları təqdim olunan şeirlərində oxucunun düşüncələrinə tamlıq gəlir. Onun düşüncəsinə və poetik qənaətinə görə zamanın gərdişi mübarizələrin fonunda formalaşır:

**O yurtta, o başta ölüb kalaydın,**
**Sığınıb bir taşta ölüb kalaydın.**
**Bir ağır savaşta ölüb kalaydın,**
**Belə ölməyəydin, zavallı göçmen.**

Bu misralarda hər hansı ağrı-acıya boyun əyməklə bunu taleyin qədəri kimi qəbul etmək təbliğ olunmur. Burda həm də dünya tarixinin şərəf səlnaməsini yazmış böyük türkün özünəqayıdışına səslənişdir:

**Bir yol başlayaydın - yüzü yurduna,**
**Varıb getireydin - yazı yurduna.**
**Gözünün yaşını gözü yurduna,**
**Kaş ki, silmeyeydin zavallı göçmen.**

Elə Dünya Gənc Türk Yazarlar Birliyi kimi, fəaliyyətinin bir istiqaməti də Azərbaycan ədəbiyyatının türk dövlətlərində yayımı olan "Vektor" Elm Mərkəzinin sədri, zəngin elmi və ictimai fəaliyyəti ilə, az qala, bütün dünyada tanınan şair Elçin İskəndərzadənin də kitabda təmsil olunması fərqli düşüncələrə yaxşı örnəkdir:

**Bu karlı kış gününde,**
**başıma gelenler**
**bir beyazlık içinde.**
**başka birisinin kaderiymiş gibi.**

Və belə düşünməkdə də haqlıdır şair. Şair düşüncələri təkcə öz ağrı-acılarının üstündə kök-

lənmir ki?! Şairliyin bir möhtəşəmliyi də ondadır ki, ətrafında cərəyan edənləri ürəyi və ilhamı ilə özününküləşdirə bilir. Necə ki, İlqar İlkin bunu bacarır:

**Şimdi ayakların**
**gök yüzünde Tanrı yürüşü yürer,**
**Yavru kurtum, boynuna sarılan**
**bayrak kollarını ister.**

Bir az əvvəldə qeyd etdiyimiz kimi, kitabda müxtəlif estetik düşüncə daşıyıcılarının şeirləri yer alıb. Azərbaycan poeziyasında özünəməxsus yeri olan Səhərin şeirləri, bu baxımdan çox diqqəldayiqdir:

**Bağışla beni,**
**Penceremden bakdığım Ay.**
**İnan ki, ben de**
**Senin gibi param parça,**
**Senin kadar yalnızım.**

Rəsmiyyə Sabirin misralara yüklənən pıçıltıları zamanın dolanbac yollardan keçən gərdişləri və bu məqamda əsl şairi düşündürənlərin ifadəsidir. Bəzən Tanrının yaratdıqlarını sadəcə müşahidə etməyin özü də ilahi duyğulara çevrilir. Poeziyanın özəlliklərindən biri də məhz budur:

**Bizim aramızda bin yıllık yol var,**
**Özüme yakınsın benden, İlahi!**
**İçi cah-celallı cahan vermişsin,**
**Durup bakıyorum genden, İlahi!**

Eyni məkanda, eyni zamanda yaşananlar hər qələm əhli tərəfindən müəyyən parametrlərlə ifadə olunur. Nə yaxşı ki, "Çağdaş Azərbaycan şeiri" antologiyasında oxucuların mühakiməsinə verilən

şeirlərin əksəriyyətində ifadə formaları gözəldir. Dünya Gənc Türk Yazarlar Birliyinin fəallarından olan gənc şair Namiq Hacıheydərlinin maraqlı düşüncələri kimi:

**De, kimdi bizi soran,**
**De, kimdi muhtac bize.**
**Kimdi salam yollayan,**
**Fakır bize, ac bize.**

Misallar gətirdiyimiz,-mövzuları və ifadə formaları bir-birindən fərqli, bir-birindən gözəl olan bu şeirlərin arasında ümumi bir yaxınlıq da var. O da mədəniyyəti tarixi qədər zəngin olan bir məmləkəti təmsil etmələridir.

Sonda istər-istəməz kitabı hazırlayan qələm dostlarımıza - layihənin rəhbəri Əkbər Qoşalıya, redaktorlar İlqar İlkin və İmdad Avşara, şeirləri Türkiyə türkcəsinə uyğunlaşdıran Rəsmiyyə Sabirə, var olun, deyirik. Ona görə var olsunlar ki, var olan SÖZümüzü dünya arenasına çıxaranda ürəklə çalışıblar. "Çağdaş Azərbaycan şeiri" kitabı, sözün həqiqi mənasında, çağdaş Azərbaycan şerinin qardaş Türkiyədə təbliği istiqamətində daha böyük iş görmüş olacaq. Necə ki, birinci kitab bunu bacarmışdı. Nə mutlu…

# VİRAN EŞQİN HEKAYƏTİ
# və yaxud
# ÖLÜM SEVGİ YARADA BİLMƏZ

… Son yüz ilin ən böyük eşq hekayətlərindən birini indicə tamamladım. İndicə deyəndə, kitabı indi əldə etdim, heç bir fasilə vermədən, oxucu olaraq, bu «şirin» ağrılı əsəri başa çatdırmaqdan özümü saxlaya bilmədim. Sadəcə ona görə yox ki, bu, bir qızın yaralı taleyindən danışırdı, həm də ona görə ki, bu qəbildən olan əsərlər az-az yazılır.

Həyat həqiqətinin əsil bədii həqiqətə çevrildiyi anda, o, təkcə müəllifin olmaq haqqını itirir və oxucu olaraq bizimki olmaq haqqı qazanır, stolüstü kitabımıza çevrilir. Müəllif yazdıqlarının həm də iştirakçısı və ya müşahidəçisi olanda onu birnəfəsə oxumaqdan başqa çarən qalmır. Qənirə Paşayeva kimi… «Onun sevgi məktublar kimi»… Çünki o, bu aləmə yad deyil. İllərlə bir publisist, bir millət vəkili olaraq öz düşüncələri, əməlləri ilə insanları necə sevmişdisə, bir yazar olaraq oxucunu da eləcə sevməyi bacardı. ONA SEVDİYİ BİR ƏSƏR TƏQDİM ETDİ. Özü də epistolyar janrda. Oxucunu sevməyin ona sevə biləcəyi əsəri təqdim etməkdən başqa formulası yoxdur…

Kitabın girişində müəllif yazır: «Heç düşündünüzmü, bizə sevdiyimizi xatırlamaq, unutmamaq üçün yaddaş verən Tanrı niyə onu unutmaq üçün heç nə verməyib? Bəlkə Tanrı qullarını ən zəif, ən həssas, ən ağrılı yeri olan sevgi

ilə imtahana çəkir? Sevgi ilə yaratdığının ağrıya dözümünü yoxlayır?». Min illərdir ki, bu imtahandan, olduğu kimi, kimin necə çıxdığını bizə ədəbiyyat çatdırır. Budur əbədiyaşarlıq. Bəri başdan deyim ki, «Onun sevgi məktubları» müəllifinə və əsərin qəhrəmanı olan Könülün böyük sevgisinə əbədiyaşarlıq qazandırdı. Bu haqda bir az sonra.

Yazının əvvəlində həyat həqiqətinin əsil bədii həqiqətə çevrilməsi məsələsinə toxunmuşduq. Müəllifi dindirən Könüllə çox da uzun zamana dayanmayan dostluğu deyildi, rəfiqəsi Könülün həyat hekayəsinin bəzi yandırıcı məqamları idi. Ömrünün son anına kimi qarşılıqsız sevən Könülün sevgisi yolunda çəkdikləri «şirin» ağrılarını əks etdirən sevgi məktubları Qənirə Paşayevanı (yaxşı ki) bu hekayəti qələmə almağa vadar etdi. Könül də yazdığı məktubların sonrakı taleyini Qənirə xanıma həvalə edəndə, heç olmasa, o məktubların gələcək taleyindən nigarançılığına son qoymuşdur.

«Onun sevgi məktubları»nı var edən üç nəfərdir.

O üç nəfərdən biri KÖNÜLdür ki, bu taleni məhz o yaşayıb. Bir ömrü bir EŞQ yolunda əritsə də qarşılığını görməyən Könül. Bütün hadisələr onun əhatəsində, daha doğrusu onun yazdıqlarının əhatəsində cərəyan edir. Son yüzillərin nadir təsadüf olunan SEVGİlərindən birinə sahib olan Könül elə təkcə buna görə, BÖYÜK EŞQinə görə tarixin yaddaşında qalmalıdır.

Bayağılığın at oynatdığı, hər şeyin digər mizanlarla ölçüldüyü bir zaman kəsiyində Könül adı kimi bir könül işinə ömür bağışladı. Bir oxucu olaraq fərqidəyəm ki, Könül heç də gözübağlı, kor-koranə sevgiyə qul olan fədai deyil. Həm düşüncələrində, həm yazdığı məktublarında Şəms Təbriziyə, Mövlana Cəlaləddin Rumiyə söykənməsi Könülün, sözün həqiqi mənasında, ağılsız bir EŞQ əhli olmadığına işarədir. Baxmayraq ki, haqqında «Dəli eşq» adlı mahnı da yazılıb. Dəlinin nə işi vardı Dante, Sapfo, Frans Kafka, Motsart, Şopen, Şuman, Henrix Heyne, Əziz Nesin, Mixail Lermontov, Nazim Hikmət, Marina Svetayeva, Ahmet Altan, Qabriel Qarsia Markes, Çingiz Aytmatov, Atilla İlan, Viktor Hüqo, Can Dündar, Cihan Özdemir, Cemal Süreyya, Simona de Bovuar və digərlərinin yaradıcılığı, düşüncələri ilə…

Könülün hər məktubu özünün mükəmməl düşüncələri, zamanında əxz elədiklərindən gətirilən sitatlarla doludur. Özü-özünü bir natamamlıq kompleksində hiss etsə də, rəfiqəsinin və bəzi hallarda özünün də cəhdlərinə baxmayaraq sevgisindən vaz keçə bilməməsi ilə özünü qınaq obyekti də bilmir. O bu sevgiyə ayıq düşüncə ilə sahib oldu və son anına kimi də bunu taleyin işi bildi.

Könülün məktubları sadəcə bir qızın sızıltılarını özündə yaşadan məktublardan deyil. O, qəfil tutuşduğu eşqini bəzən şeir, musiqi parçaları, bəzən əbədiyyət qazanmış dünya incilərindən

gətirdiyi misallarla izhar edir. Heç bir qarşılıq görməyən, üstəlik də bir insan olaraq, biganəlik, etinasızlıq məngənəsində sıxılan Könülü heç nə sevdalı taleyindən ayıra bilmir. O bu taleyin sonunun necə olacağını da hamıdan yaxşı bilir. «Giriftar olmayan bilməz» prizmasından yanaşanda Könül çarəsiz deyil, əslində ancaq ürəyinin hökmünə qulaq asmaqla, hər kəsdən ucada dayanır.

O, sevgisinin ölümündən sonra da qorunmasını istəyir. Haqlıdır. Belə sevgi qorunmalıdır. Qarşı tərəf onu dəyərləndirə bilməsə də, qorunmalıdır. Amma necə… Bəlkə elə böyük eşqlərin qorunması onun zaman-zaman dillərdə, ürəklərdə, «Onun sevgi məktubları» kimi beləcə əsərlərdə yaşamasıdır. Leyli – Məcnun, Fərhad – Şirin sevgisi əsrlərdir ki, necə qorunur… Nəsillərin ürəklərində… Könül sevgisinin, son məktubunda yazdığı kimi, «O»nun tərəfindən qorunmasını istəyir. Ancaq Könülə bu cavabsız eşqi yaşadan, bu və ya digər səbəbdən olsa da, dərbədər olmuş bir eşqin günahkarına çevrilən, arxasınca İstanbula gedən Könülə beş dəqiqəsini ayırmaq istəməyən O, məzarda da bitməyən bu sevgini necə qoruya bilər ki… Bir də ki, Qənirə xanım bu həyat hekayəsini əbədi bir qoruma altına aldı – «Onun sevgi məktubları» adlı əsəri araya-ərsəyə gətirməklə. Elə bir qoruma altına ki, illər keçsə də böyük sevgi dastanları kimi yaddaşlardan silinmək qorxusu yoxdur.

Bilirsənmi, sevgi ölümdən güclüdür. Çünki

sevgi ölümü yarada bilir, amma ölüm sevgi yarada bilməz, ancaq onu bitirə bilər, – bu Könülün sevən könlünün gəldiyi son qənaət idi. Sonu faciə ilə bitən bir EŞQ dastanının yazılma səbəblərindən biri də budur, bəlkə. Və bu qənaət də qisməti oldu. Sevgisi ölümünü gətirdi. Nədənsə illər öncə yazdığım bir şerin misralarını xatırladım:

**Yolur saçlarını o, saçdan keçir,**
**Dostdan, rəfiqədən, yoldaşdan keçir.**
**Bu qızın gözündə nədi bu oğlan,..**
**Ömründən-günündən bu başdan keçir.**

**Dünyanın hər cürə üzündən keçir,**
**Xəyalı dağından, düzündən keçir.**
**Qurban veriləsi gözləri qalıb,**
**Ağlayır, indi də gözündən keçir.**

**Görən, nə danışır dodağı altdan,**
**Onsuz diləməyə aman qalmayıb.**
**Qoymayın, yer qaçdı ayağı altdan,**
**Göydən tutmağa da güman qalmayab -**
**Bu qızın gözündə nədi bu oğlan...**

(Bəlkə də, heç belə bir həyat hekayəsi olmayıb, bəlkə də bütün bunlar Qənirə Paşayevanın qələminin məhsuludur. Belədirsə, daha gözəl).

«Onun sevgi məktubları» var edən üçlükdən ikincisi «O»dur. Könülün sevgisini dəyərləndirə bilməyən O. Buna hökm etmək olmasa da, hər halda O bu eşq dastanının oxucu tərəfindən sevilməyə haqqı olmayanıdır. Xırda detallara da

varsaq, oxucu kitab haqqında tam məlumat alar və bu əsərlə baş-başa qalmaqdan yayınar (Qənirə xanımın oxucularının əlindən «Onun sevgi məktubları»nı oxumaq haqqını almaq, ən azından günahdır). Kim bilir, bəlkə də bu böyük bir sevgini cavabsız qoysa da və bununla bir taleyə «ölüm hökmü» oxusa da, bəlkə günahsızdır. Çünki bu böyük eşqi cavabsız qoymaq üçün ürəyin başqa bir sevgiyə aid olmalıdır. Bunlar oxucunun ağlına kitabı təzə oxumağa başlayanda gəlir. Kitabın sonlarına gəldikdə isə qənaətində bir az yanılırsan. Onun davranışlarındakı qəribəliklər və müəmmalar da bu hekayətin əsas qəhrəmanını ümidləndirməyə bilməzdi. Baxmayaraq ki, bir məktubunda Könülə yaxşı dost ola biləcəklərini, aralarında hər hansı bir sevginin mümkünsüz olduğunu söyləmiş, başqa bir məktubunda isə onu könlündə dəfn etməməsini istəmişdir.

Amma sonrakı məktubunda XƏYALLAR HƏMİŞƏ YARIDA QALIR, MƏNİMLƏ BAĞLI XƏYALLAR QURMA yazması ilə böyük bir sevgini ancaq xəyalla, təxəyyüllə müqayisə eləməklə, əslində bir taleyin, bir eşqin dərbərdər olma vaxtını yaxınlaşdırırdı. Viran etdi də…

O üç nəfərdən üçüncüsü (bu taleni əbədi varlığa çevirdiyi üçün bəlkə də birincisi) müəllifdir – Qənirə Paşayevadır. Bu yaşantılara onun müdaxiləsi olmasaydı, indi «Onun sevgi məktubları» adlı bir əsəri oxumaq, ondan danışmaq imkanımız olardımı… O, müəllif olaraq, rəfiqəsinin məktublardan oxunan taleyinə haqlı bir əbədilik

qazandırıb.

Hər məktubdan əvvəl dünya mədəniyyət tarixinin dühalarından gətirilən sitatlar bu eşq dastanına xüsusi bir rəng verir. Bir az Könülün, az qala, əfsanələşən sevgi məktublarının davamını öyrənmək istəyi, bir az Qənirə Paşayevanın epistolyar canrda təqdim etdiyi ilk bədii əsərini ciyərinə çəkmək arzusu «Onun sevgi məktubları»na fasiləsiz oxunmaq haqqı qazandırıb. Bunu indiyə kimi kitabı oxuyan hər kəs təsdiq edə bilər.

Bu təkcə bir kitab müəllifinin, bir qəhrəmanın «Sevgi məktubları» deyil ki… Bu kitabda ömrün müxtəlif məqamlarında insan taleyindən keçən qəfil duyğuların incələnməsi var. Qənirə Paşayeva, bir vətəndaş olaraq, insanların yaşantılarına necə qayğı ilə yanaşırdısa, insan duyğularını də eyni yanğı ilə qələmə aldı və nədənsə, «Onun sevgi məktubları»nın onun yeganə bədii əsəri olmayacağına inamlıyam.

## YALAN RƏNGLƏRİ GÖTÜRÜB, GERÇƏK ŞƏKLİ ÇƏKİRƏM

Onun şair taleyindən keçən nə varsa, əbədiyaşarlıq qazanıb. Bu məmləkəin "ağır oturub batman gələn" kişilərindən və şairlərindən biri olan İbrahim İlyaslını deyirəm. Təvazökarlığı ilə kölgədə qalmağa vərdiş etsə də, o, dilimizdə az qala aforizmə çevrilən şeirlər müəllifidir:

**Haqq deyilən heç nə yoxdur,**
**Ancaq dəyər axtarmağa.**

Və yaxud:

**Yeddi yol səcdə qıl, yeddi qat əyil,**
**Zalımdan məzluma hay olmaz, olmaz!**
**Hər saya salının sahib-say deyil,**
**Hər saya gələndən say olmaz, olmaz!**

Başqa bir misal:

**Tanrım bu gözəli sən yaradıbsan,**
**Nurdan yoğurubsan mah camalını.**
**Tullayar tacını ayaqlarına,**
**Görsə dərgahında şah camalını.**

Bu kimi örnəkləri çox gətirmək olar. İbrahim İlyaslının yenicə çapdan çıxmış kitabı haqqında yazı yazmaq istərkən nədənsə bunları xatırladım. Görünür, bu da səbəbsiz deyil. Bəzən layiq olanları dəyərləndirməyi bilməsək də, bu, heç İbrahimi sıxmayıb da. Çünki yaxşı bilib ki:

Dəryada balıq olannan,
Sudu dünya dolanması.

İbrahim İlyaslının "Avrasiya Press"

nəşriyyatında "Çağdaş Azərbaycan poeziyası" seriyasından çapdan çıxmış "Yuxuma söykənmiş adam" şeirlər toplusu "Hamı bir körpüdən keçir"(1998), "Mən bir söz bilirəm"(2006) adlı şeir kitablarından sonra oxucularla üçüncü görüşüdür. Hər görüş "salam"la başladığı üçün İ. İlyaslı da "Ön söz"də yazır: "Əvvəlki iki kitabımda olduğu kimi, yenə də ön səhifə mənim Sənə ərk yerimdi. Şeirlə deyə bilmədiyim bir para mətləbləri Səninlə bölüşmək fürsətidir". Bir oxucu olaraq, mənim üçün də ən maraqlısı da odur ki, İbrahim "Ön söz"də deyə bildmədiklərini şeirlərində çox gözəl ifadə edir. "Salam-Əleyküm"ü də misralarla daha gözəl ifadə edir:

**Salam sahibi haqdı,**
**Haqqa Salam-Əleyküm!**
**Vaxt bir Allah görküdü,**
**Vaxta Salam-Əleyküm!**

Şair qardaşımızın yaradıcılığı haqqında bir neçə dəfə nəsə yazmışam. Yaxşılı-yamanlı ürəyimdən gələnləri ifadə etmişəm. Bütün yaradıcılığında olduğu kimi, bu kitabında da Vətən haqqı hər şeydən ucadır, onu cılızlaşdırmaq istəyənlər İbrahim İlyasldının bir şair üsyanı ilə üz-üzə qalır. Kitabdakı "Əsirlikdən məktub" şeiri bunun ən gözəl örnəyidir:

**Haqqın nəfsinə kündəsən,**
**Səfalətə sürgündəsən.**
**Sən məndən betər gündəsən,**
**Can, məmləkət... Can, məmləkət!**

İbrahim İlyaslı ilə qəribə bir ruh yaxınlığımız var. Ulu kökümüzün eyni bulaqdan

rişələnməsindəndirmi, bilmirəm. Hər halda bu da var. "Mən bir dəli rəssamam" şeirini oxuyarkən buna bir daha əmin oldum:

**Oturub ömrün içində,**
**Çiçək şəkli çəkirəm.**
**Yalan rəngləri götürüb,**
**Gerçək şəkli çəkirəm.**

Nə vaxtsa həmin duyğulara mən də köklənmişdim. İbrahim kimi "dəli rəssam" olmasam da dərd şəkli şəkməyə cürət etmişdim:

**Rəngləri elə calandı,**
**Baxdım ürəyim talandı.**
**Nə bilir ciyərim yandı,**
**Zəhər çəkir, ağı çəkir.**

İbrahim İlyaslı ilə söz qohumu olmağın özü bir şərəfdir.

Az qalırdı mən də bir çox şair dostlarımız kimi İbrahim İlyaslının üçüncü kitabının da cəmisi altmış dörd səhifəlik olmasından gileylənim. Ancaq oxuyandan sonra əmin oldum ki, həmişə döş cibdə, ürəyin başında gəzdirilməsi mümkün olan bu balaca kitabda İbrahimi oxucuya sevdirəcək qədər şeir var (çəkisi tonlarla ölçülən, bircə salamat cümləsi, misrası demirəm ha, yadda qalmayan kitabları saymaqla qurtarmaq olarmı?):

**Onu görənlərin gün deyil günü,-**
**Görürsən ərşdəki fəryadı, ünü.**
**Meh vurub oynadır qara zülfünü,-**
**Gah köksünü örtür, gah camalını.**

Bu misralara hakim kəsiləndən sonra istər-istəməz İbrahim İlyaslının bu kitabına salmadığı başqa bir şeiri düşdü:

**İbrahiməm, için-için,**
**Sızlayıram gedir köçüm.**
**Ölmürəm yaşamaq üçün,**
**Ölürəm səndən ötəri.**

Bəlkə də ona görə yadıma düşdü ki, bu şeir nədənsə kitabda yoxuydu. Çünki mən İbrahim İlyaslını tanıyandan o, yaşamaq üçün ölmür. Ölür yaşatmaq üçün. Və bir də onun təbirincə desək, "dünya dolanması"yla əbədi bir mübarizədədir:

**Nə sağlıqdı, nə də solluq,**
**Qurtulan yoxdur biryolluq.**
**Axşam-səhər nəfsə qoulluq,**
**Budu dünya dolanması.**

Həmin dünya dolanmasıydı ki, İbrahim İlyaslının doğmaca xalası oğlu, Azərbaycanın böyük şairi Akif Səmədi yaşadığı zaman kəsiyində bir bölük intizar, üzündü, ağrı ilə üz-üzə qoydu:

**Şuşaya dönərik dedi-gün gələr,**
**Qəhr olar yağılar - qalxar süngülər.**
**Qaçqınlı, köçkünlü tinlər, döngələr,**
**Dalanlar öldürdü Akif Səmədi.**

"Yuxuma söykənmiş adam" kitabı İbrahim İlyaslının "Qıfılbənd"i ilə tamamlanır. Tamamlanır ona görə deyirəm ki, bu qıfılbəndi İ. İlyaslı bir müddət öncə mətbuatda yazarlara ünvanladı və açın bu qıfılbəndi,-dedi:

**Arif olan, bir sorğuma cavab ver,**
**O nədir ki, dünya ona dar olu?**

O gündən bilən-bilməyən, hərə bir cavab yazdı. Amma heç birimiz bilmədik ki, o qıfılbəndi açmaq üçün İbrahim olmaq lazımdır, özü də İBRAHİM İLYASLI!

## ONU SEVMƏYİN DƏ YOLU BAŞQADIR

İyirmi yaşından tanıdığın bir adamın haqqında birdən-birə 45 yaşında nəsə yazmaq çətindir. Çünki iyirmi beş illik zaman kəsiyi az vaxt deyil. Buna baxmayaraq mən Salamı iyirmi yaşında daha çox sevdiyimin fərqindəyəm. Bəlkə ona görə ki, onda zamanın və insanların indikindən daha saf vaxtıydı və Salam da ədəbi ictimaiyyəti təzə-təzə heyrətləndirməyə başlayırdı:

**Çox qızındın istisində odun sən,**
**Bu dünyada ən mülayim qadıq - sən.**
**Göz yaşınla ər paltarı yudun sən,**
**Əllərində ütün qaldı, neyniyək?**

Sonralar bir çox şeirləri üzərində eksperiment aparıb dəyişdirsə də, mənim üçün o ilkinlik hələ qalır və Salam indi heç xatırlatmadığı, haqqında danışmadığı şeirləri ilə ürəyimin başında öz yerini qoruyub saxlayır:

**Vaxtında salmadım özümü bərkə,**
**Bu, mənim ömrümə ləkəymiş, ata!**
**Dünyanın ən dadlı tikəsi bəlkə,**
**Boğazdan keçməyən tikəymiş, ata!**

Bu o zamanlar idi ki, boş vaxt tapan kimi, hansı birimizinsə yaşadığı yataqxanaya toplaşır, gecəni səhərəcən poeziyadan danışır, bəzən zarafatyana qafiyələr də tuturduq. Salam, Faiq, Balaxan və bu sətirlərin müəllifinin yaratdığı birlik çoxlarının qibtə yerinə çevrilmişdir. .

Salamın sonra qazandığı mənsəblərin hamı-

sı onun şair nüfuzunun kölgəsində formalaşıb. Bu, Salam istəsə də, istəməsə də, belədir. Bir şerində özü deyidiyi kimi:

**Məni sevməyin də yolu başqadır,**
**Bununçün məhəbbət-filan şərt deyil.**

Həqiqətən də belədir. Salamı sevmək üçün sadəcə olaraq, yaşının 25, 45, 85 olmasının fərqinə varmadan, onu oxumaq lazımdır. Poeziyası onu istər-istəməz sevdirəcək. Sağ olsun, Əsəd bəy kimi oğullar və oxucular. Özlərindən əvvəl gələn söz sahiblərini yaşatmağı elə bizlərə də öyrətdilər.

# LAÇIN DƏRDLƏRİMİN ƏN GÖYÇƏYİDİ...

## Nadir Azayoğlunun 50 yaşına təbrik əvəzi

Laçınlı 30, Laçınsız 20 il yaşayan Nadirin ömrünün yarım əsrlik bir zaman kəsiyində bundan "gözəl" dərdi olmayıb. Həm yaşantıları, həm poeziyası ilə bu "gözəl" dərdin ağrısını çəkib. Elə təkcə bu misra kifayət edər ki, Nadirin Azayoğlunun poeziyada yerini təsdiqləsin.

**O vaxt ki, yer çiçək, göy çiçək idi,**
**Bilirsən bu dünya nə göyçək idi?!.**
**Laçın dərdlərimin ən göyçəyidi,**
**Bu eşqin ortağı çıxmaz, ay oğul.**

Ağrıların hər çeşidini görsə də, qüruru yenilməyən, əzmi qırılmayan şair Nadir Azayoğlunu həyatda ən ağır sınağa çəkən oğlu Vaqifin "Ata, görən indi Laçına da yağış yağırmı?" sualı olub. Və Nadir bunu etiraf etməkdən başqa bir yol görmür:

**Sualın nə yaman səmitsiz oldu,**
**Atan elə çökdü qalxmaz, ay oğul.**
**Çətin sualınan, çətin sözünən,**
**Oğul atasını yıxmaz, ay oğul.**

Təkcə bu şeirlə, təkcə bu şeirin istənilən misrası ilə Nadir Azayoğlunu, şair olaraq, bir ömür sevmək olar. Təkcə onun yurd, torpaq, Turan sevgisinə görə hər yerdə başda oturmaq

haqqı var. Amma onun şeirlərinin hamısı onu sevdirəcək qədər şahanədir, UCALIQ sevgisi türkün tarixi qədər qədim-qayımdır:

**Çaylar keçdim bir dəryacan,**
**O tayı ruh, bu tayı can.**
**Mən Doğudan Batıyacan,**
**Ulu bir soydan gəlirəm.**

Nadir Azayoğlunun qırx yaşında ona həsr etdiyim bir şeirdə,

**Ah səni çəkəmməz, ahlıq deyilsən,**
**Gündə neçə kərə çəksən ah belə.**
**Ömür yaşayırsan ömürdən gözəl,**
**Hər axşam beləcə, hər sabah belə, -**

demişdim. Elə əli yaşında da o fikirdəyəm. Nadir Azayoğlunun sadə, amma ağayana (sadəlikdə ağayanalıq sizi çaşdırmasın) yaşantıları, yaşantıları qədər düşündürən poeziyası onun ömürdən gözəl ömür payının (ağrı-acıları ilə birlikdə gözəl) nişanəsidir. Amma o,

**...Qara bulud oldum, daşa dammadım,**
**Siz bulud ömrümə bir daş atdınız.**
**Mən ötən ömrümü yaşayammadım,**
**Bəlkə qalanını siz yaşatdınız,** - deyəndə

də haqlıdır. Buraya kimi və burdan sonra yaratdıqlarını sadiq oxucuları yaşadacaq. Özü də zaman-zaman. Ola bilsin ki, onun sadəcə sayı çox olan oxucuları olmasın, amma həm sayı, həm poeziyaya sayğısı olan oxucuları var və poeziya var olduqca, onlar da var olacaq. Bunlar sadəcə gəlişigözəl sözlər deyil ki… Bunlar mənim Nadir Azayoğlunu, şair olaraq, iyirmi ildən artıqdır ki,

mütaliə edən və hər dəfə poeziyasına səcdəyə duran bir oxucu kimi illərlə ürəyimdə gəzdirdiyim düşüncələrimdir.

… Əslində 50 illik yubileyi münasibətilə təbrik yazmaq istəyirdim.

## Mündəricat

*Növbədənkənar yazı . . . . . . . . . . . . 4*
*Bu ömrü . . . . . . . . . . . . . . . . . . . 12*
*Dindirə . . . . . . . . . . . . . . . . . . . . 13*
*Göndərir . . . . . . . . . . . . . . . . . . . 14*
*Qızlarım . . . . . . . . . . . . . . . . . . . . 15*
*Eylə . . . . . . . . . . . . . . . . . . . . . . . 16*
*Nə olur, olsun . . . . . . . . . . . . . . . . 17*
*Addadım . . . . . . . . . . . . . . . . . . . . 18*
*Beləcə . . . . . . . . . . . . . . . . . . . . . 19*
*Çiçək . . . . . . . . . . . . . . . . . . . . . . 20*
*Hələ yazmamışam səni bir sətir . . . . 21*
*Yıxır . . . . . . . . . . . . . . . . . . . . . . 22*
*Tərsinə . . . . . . . . . . . . . . . . . . . . 23*
*Sevgidir . . . . . . . . . . . . . . . . . . . . 24*
*Yeriydi . . . . . . . . . . . . . . . . . . . . 25*
*Solandı yanağın yaş olan yeri . . . . . . 26*
*Gedimmi . . . . . . . . . . . . . . . . . . . . 27*
*Çətin ki... . . . . . . . . . . . . . . . . . . 28*
*Elçin İsgəndərzadəyə . . . . . . . . . . . . 29*
*Gedirsən . . . . . . . . . . . . . . . . . . . . 30*
*Balaca adaşıma . . . . . . . . . . . . . . . . 31*
*Qurbanı . . . . . . . . . . . . . . . . . . . . 32*
*Qorxuram . . . . . . . . . . . . . . . . . . . 33*
*Gedəcəm . . . . . . . . . . . . . . . . . . . . 34*
*Məni . . . . . . . . . . . . . . . . . . . . . . . 35*

*Bir azca* . . . . . . . . . . . . . . . . . . . . . . . . 36
*Qızları Gültac və Səyalıya* . . . . . . . . . 37
*Bu körpə* . . . . . . . . . . . . . . . . . . . . . . 38
*Qardaşım oğlu İskəndərə* . . . . . . . . . . 39
*Xalamın* . . . . . . . . . . . . . . . . . . . . . . . 40
*Var* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 41
*Nəyimə lazımsan* . . . . . . . . . . . . . . . 42
*Yarəb* . . . . . . . . . . . . . . . . . . . . . . . . 43
*Qolun sınsın, oynamağın yerimi* . . . . . 44
*Əmi* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 45
*Varmı...* . . . . . . . . . . . . . . . . . . . . . . . 46
*Qızıma* . . . . . . . . . . . . . . . . . . . . . . . 47
*Dərd şəkili çəkən rəssam* . . . . . . . . . . 48
*Məni* . . . . . . . . . . . . . . . . . . . . . . . . . 49
*Kor adam ağlayır necə* . . . . . . . . . . . 50
*Yaxşı unutdun* . . . . . . . . . . . . . . . . . . 51
*Bu necə həsrətdir* . . . . . . . . . . . . . . . 52
*Nə dərd çək, nə həsrət* . . . . . . . . . . . 53
*Xatirələr ağır-ağır çəkir yükünü* . . . . . 54
*Ölməyin bir gözəl bəhanəsi yox* . . . . . 55
*Sevginin dilini duyandan bəri* . . . . . . . 57
*Doğmalarıma* . . . . . . . . . . . . . . . . . . . 58
*Gah elə bilirəm* . . . . . . . . . . . . . . . . 59
*Səyyah* . . . . . . . . . . . . . . . . . . . . . . . 60
*Bir gör neyniyirsən* . . . . . . . . . . . . . . 62
*Bu nə bəla idi* . . . . . . . . . . . . . . . . . . 63
*Atamın xatirəsinə* . . . . . . . . . . . . . . . 64
*Çox tələsdin bu nağılda, nağılçı* . . . . . 65
*Yüz il yaşamaqla çatmaq olmayır* . . . . 66

*Yamanlıq etməyi öyrənəcəyəm . . . . . . 67*
*Qızıl yuxu . . . . . . . . . . . . . . . . . . . . . 68*
*Məndən küsən şeir . . . . . . . . . . . . . . . 69*
*Tavana yazılan nəğmə . . . . . . . . . . . . 70*
*Tənhalıq . . . . . . . . . . . . . . . . . . . . . . 71*
*İndi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 72*
*Dərdi olmayanlar . . . . . . . . . . . . . . . . 73*
*Sizin qəminiz . . . . . . . . . . . . . . . . . . . 75*
*Özümlə söhbət . . . . . . . . . . . . . . . . . . 76*
*Təzə başlayır . . . . . . . . . . . . . . . . . . . 78*
*Gözlərim ağrıyır səni görəndə . . . . . . 79*
*Dünya . . . . . . . . . . . . . . . . . . . . . . . . 80*
*Düşdüm . . . . . . . . . . . . . . . . . . . . . . . 81*
*Nalbəndin şikayəti . . . . . . . . . . . . . . 82*
*Lalə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 83*
*İlahi şeir . . . . . . . . . . . . . . . . . . . . . . 84*
*O sevgi . . . . . . . . . . . . . . . . . . . . . . . 85*
*Niyə taleyimiz oxşardı belə . . . . . . . . 86*
*Demə ki... . . . . . . . . . . . . . . . . . . . . . 87*
*Naməlum buluddan yağan yağış . . . . . 88*
*Nə isə . . . . . . . . . . . . . . . . . . . . . . . . 89*
*Sənə . . . . . . . . . . . . . . . . . . . . . . . . . 90*
*Bu qızın gözündə . . . . . . . . . . . . . . . . 91*
*Sevgi şeirlərimə . . . . . . . . . . . . . . . . . 92*
*Gəlirsən . . . . . . . . . . . . . . . . . . . . . . .93*
*"Unuda bilmirəm" demən . . . . . . . . .94*
*Uçurum (poema) . . . . . . . . . . . . . . . . 95*
*Görk (ssenari) . . . . . . . . . . . . . . . . . 106*

## *BUNLARI DA ŞEİR ADINA YAZMIŞAM*


*Kim bu gözəlliyə qiymət qoymasa . . . 114*
*Gənclik təbiətin zarafatıymış . . . . . . . 121*
*Yanmış iki çuval . . . . . . . . . . . . . . . 126*
*Bu yaşıl ağacın altı bizimdir . . . . . . 132*
*Göy tanrı-Tüstəmxanlı tanrısı . . . . . . 138*
*Mən Allah olmaqdan imtina etdim . . 145*
*Rüzgarla çarpışır türkün bayrağı . . . . 151*
*Çəpər . . . . . . . . . . . . . . . . . . . . . . . . 158*
*Adamın içində üşüyür səsi . . . . . . . . 161*
*Quşdan özgə göydə nə var, əyləyin . . 165*
*Gedəcəyəm üzü haqqa . . . . . . . . . . . 172*
*Qara kağızların hücumu . . . . . . . . . 176*
*Güllələnmiş "Xalça"dan lənətlənmiş "Qıfıl"a qədər . . . . . . . . . . . . . . . 181*
*Bu dünyada bircə halar adam varsa, o da yoxdur . . . . . . . . . . . . . . . . . . 186*
*Məndən gizlin ağlamısa, deyəsən . . . . 189*
*Bir tikə də bölünməyib, Ürəyimdə vətən mənim . . . . . . . . . . . . . . . . . . 194*
*Fəxri Müslümün yaşantıları . . . . . . . 198*
*Qaldır əlini göylərə, Tanrını qucaqla Şahin . . . . . . . . . . . . . . . . . . . . . . 201*
*Qaçmağı öyrəndim yerişdən qabaq . . . 207*
*Ölümündən qaça-qaça, Hamı ölümə tələsir . . . . . . . . . . . . . . . . . . . . . . 213*
*Şuşaya gedə bilmədi . . . . . . . . . . . . 219*
*Şəlalənin quzu kəsim dilinə . . . . . . . 221*

*O tay da uzaqdır, bu tay da uzaq . . . 223*
*Bircə qom bənövşə xətrinə . . . . . . . . 225*
*Dərdim naxış-naxış, düzüm-düzümdür 230*
*"Çağdaş Azərbaycan şeiri" yenidən DGTYB-nin təqdimatında . . . . . . . . . . . . . . . . . . . . 232*
*Viran eşqin hekayəti . . . . . . . . . . . . 238*
*Yalan rəngləri götürüb, gerçək şəkli çəkirəm . . . . . . . . . . . . . . . 245*
*Onu sevməyin də yolu başqadır . . . . .249*
*Laçın dərdlərimin ən göyçəyidi . . . . . .251*

**Vasif Süleyman**

**Bu, ömürdür mən dediyim, nağıl yox**

**Redaktor: Elbariz Məmmədli**
**Korrektor: Müzadil Aqil**
**Texniki redaktor: Allahverdi Əliyev**
**Kompüter tərtibatçısı: Eynulla**

**Yığılmağa verilmiş: 20.07.2013**
**Çapa imzalanmış: 4.10.2013**
**Nəşrin formatı: 84X108**
**Həcmi: 6,5 ç.v.**
**Sayı: 500 nüsxə**
**Sərbəst qiymət**

***Kitabın işıq üzü görməsində göstərdiyi yaxından dəstəyinə görə millət vəkili sayğılı Qənirə xanım Paşayevaya minnətdarlıq edirəm.***